ELDAR İSMAYIL

# HACANSIZ DÜNYA

- 23486 -

BAKI
"Gənclik"- 2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

AZ
i-17
BBK 45.2.2

i-17. **Eldar İsmayıl** "Hacansız Dünya".
Bakı, "Gənclik" 2008, 272 səh.

*İstedadlı şair, nasir, publisit Eldar ismayıl oxucularla növbəti görüşə "Hacansız dünya" publisistik kitabı ilə gəlmişdir. Kitab keçən əsrin 70-80-ci illərində Qərbi Azərbaycanın (İndiki Ermənistan) Çənmərək (Krasnoselo) rayonunda müxtəlif vəzifələrdə çalışmış, yüksək milli mənəvi dəyərlərə malik, namus və qeyrət nümunəsi Hacan Orucovun həyat yolundan bəhs edir.*

*Dörd hissədən ibarət olan kitabın əvvəlində Qərbi Azərbaycan, Göyçə, Toxluca haqqında bəzi məlumatlar verildikdən sonra əsərin qəhrəmanı və ətrafı haqda bilgilər əsas yer tutur. Kitaba ayrı-ayrı müəlliflərin xatirələri və Hacana həsr olunmuş şeirlər də salınmışdır.*

*i* $\frac{4702060202}{M\ 653(07)}$ **Qrifli nəşr**

***İSBN 5-8020-1670-9***

© *"Gənclik", 2008*

# I HİSSƏ

***Elə adamlar var ki, həyatda onların yoxluğunu doldurmaq, heç nə ilə əvəz etmək mümkün deyil. Hacan müəllim bu cür nadir insanlardan idi. Onun həyatdan getməsi təkcə bir ailənin, bir nəslin deyil, onu tanıyanların, eşidib-bilənlərin hamısının, bütün el-obanın itkisi idi. Deyirlər dağa yaxın olanda onun böyüklüyünü, ucalığını hiss etmək çətin olur. Dağın əzəmətini duymaq üçün aralanıb, ona uzaqdan baxmaq lazımdır. Ötüb keçən illər Hacan müəllimin cismani varlığını onu tanıyıb-bilənlərdən uzaqlaşdırır. Lakin illər ötdükcə biz onun əzəmətini, şəxsiyyətinin böyüklüyünü daha dərindən duyur, dərk edirik. Onun yoxluğu qəlbimizi göynədir, yeri aramızda daha aydın görünür.***

***ZAKİR MƏMMƏDƏLİYEV,***
***professor.***

## DÜNYA

*Mən sənə dünya demişəm,*
*Fani dünya, yalan dünya.*
*Məndən ötrü bir oyuncaq,*
*Ay firfira olan dünya.*

*Mən tanıya bildim səni,*
*Sən əyə bilmədin məni.*
*Vara-mülkə güvənənin*
*Ardınca fit çalan dünya.*

*Aldatmısan nadanları,*
*İblisləri, şeytanları.*
*Nəfsinə qul olanları*
*Yedəyinə alan dünya.*

*Son anda haqqa and içdin,*
*Nə şahı, çobanı seçdin.*
*Bir yaxasız köynək biçdin,*
*Gülüb yola salan dünya.*

*Başa vurdum yaxşı ömrü,*
*Yaşamadım naşı ömrü.*
*Mən yaşadım kişi ömrü,*
*Budur məndən qalan dünya!*





*Soldan: Minayə xanım, Hacan, Məryam və Ziyafət*

## ÖN SÖZ

*Hər kəsin qiyməti və dəyəri*
*onun elmi, biliyi qədərdir.*

*Məhəmməd Peyğəmbər.*

*Hər kəsin dəyəri və hörməti onun*
*etdiyi yaxşılıqların sayı qədərdir.*

*Əli Əleyhissalam.*

Milli-mənəvi abidəmiz hesab edilən islam dini, onun müqəddəs səmavi kitabı olan Qurani-Kərim bəşər cəmiyyətinə Allahutəla tərəfindən hədiyyə edilmiş ən böyük töhfədir. Təbiət və cəmiyyət hadisələrini, zəhmətlə, səbr və hünərlə öyrənməyi, insanlığa xas ədəb-ərkanı, hörmət və ehtiramı, xeyrxahlığı təlqin edən və öyrədən bu müqəddəs varlıq haqqında danışmağımız heç də təsadüfi deyil. Ülvi duyğularla zəngin, pak, müqəddəs düşüncələrin, amalların mənbəyi olan dinimiz və quranımız, xeyirxahlığı, əl tutmağı, maddi və mənəvi köməklik göstərməyi, həyata, insanlığa, bütövlükdə bəşər cəmiyyətinə hörmətlə, ehtiramla yanaşmağı müqəddəs vəzifələrdən, borclardan hesab edir.

Haqqında söhbət açılan xatirələr yazılan, şerlər qoşulan və onu tanıyanlar tərəfindən daima hörmət və ehtiramla yad edilən səmimi fikirlərin, düşüncələrin ədəbi məhsulu olan bu kitab Göyçə mahalının ər igidlərindən olan, yalnız Hüsənli tayfasının deyil, bütövlükdə Toxluca tayfalarının xoş duyğularla yad edildiyi, xeyirxahlığı, səmimiyyəti, insanlara köməklik göstərərək həyan olmağı özünün həyat kredosu hesab edən **Orucov Hacan Qənbər oğlu** haqqındadır.

İlk öncə onu qeyd etmək istəyirəm ki, hər hansı kitaba



*Kitabın müəllifi və tərtibçisi Eldar İsmayıl, ön sözün müəllifi Firudin Məmmədov və şair Müzahim Mehvalıoğlu kitabın materiallarını müzakirə edərkən.*

ön söz yazmaq həm böyük məsuliyyət tələb edir, həm də onu yazan adam üçün çox böyük şərəf və hörmət gətirir. Azərbaycan xalqının sözün hər mənasında böyük oğlu Hüseyn Cavidin seçilmiş əsərlərinin Latın əlifbası ilə yenidən nəşr olunması qərara alınır. Belə razılaşırlar ki, kitaba ön sözü də yazıçının qızı Turan Cavid yazsın. Bir dəfə mən televiziya verilişlərinin birində Turan xanımın dilindən eşitdim ki, sonradan ön söz yazmaq istəyənlərin sayı çoxalır və o təşviş hissi keçirir ki, ola bilər ki, bu işi o

yox başqası həyata keçirsin. Nəhayət, tam qərara alınır ki, ön sözü yazçının öz qızı Turan xanım yazacaq.

Mən nəyə görə bu hadisəni xatırladım. Əziz oxucu, əvvəla onu bildirməliyəm ki, kitabın müəllifi və tərtibatçısı xalqımızın ləyaqətli, şərəfli, ziyalı oğlu Eldar İsmayıl bu təklifi mənə edəndə mən daxilən çox sevindim. Lakin eyni zamanda düşündüm ki, bu həm də böyük məsuliyyət hissi deməkdir.

Mən Hacan dayı ilə bağlı fikirlərimi, düşüncələrimi, xatirələrimi kitabda-öz publisistik yazımda verə bilmişəm. Ancaq bir daha bildirməliyəm ki, ön söz yazmağın mənə həvalə edilməsi məni həm çox sevindirdi, həm də üzərimə böyük məsuliyyət qoydu. Bütün bunlara görə də mən xalqımızın tanınmış şair oğlu, yazıçı oğlu Eldar İsmayıla öz təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm.

Orucov Hacan Qənbər oğlu ilə bağlı yazılan bu kitabda müxtəlif qrup insanların fikirləri, duyğuları, xatirələri, çözələnir, yarımçıq qalan ömrün, lakin mənalı və şərəfli, ailəsinə, elinə, obasına, hər zaman baş ucalığı gətirən bir ömrün yaşanmış anları söylənilir, danışılır, əbədi bir tarix olaraq yaddaşlara köçürülür.

Ilk öncə bu kitabın müəllifi və tərtibatçısı Eldar İsmayılın yazısı ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Müəllif bu kitabın üzərində işləyərkən sistemli, həm də dərin məna və məzmun kəsb edən tarixi faktları, baş vermiş hadisələri, o dövr üçün səciyyəvi olan, bu gün üçün də nəticə çıxarmalı olduğumuz prosesləri, ardıcıllıqları elmi şəkildə verə bilmişdir. Belə ki, o əvvəlcə Qərbi Azərbaycanın bir parçası olan Göyçə mahalı haqqında, H.Q.Orucovun rayonu olan Krasnoseloda (Cənmərək), doğulub boya-başa çatdığı Toxluca kəndi haqqında, eyni zamanda o eldə, mahalda olan tayfalar, igid insanlar, mərd oğullar, vətənini və xalqını yadelli işğalçılar olan ermənilərdən qəhrəmanlıqla müdafiə etmələri haqqında, geniş məlumatlar verir. Sonra isə igid, mərd, çox böyük hörmət və ehtirama malik olan Hüsənli tayfası haqqında, onun ləyaqətli və şərəfli nümayəndələri haqqında söhbət açır. Bütün bu bilgilərdən və məlumatlardan sonra isə bu tayfanın, yalnız Hüsənli tayfasının deyil, həm də Göyçə və Qaraqoyunlu mahalının bütün insanları tərəfindən sevilən və böyük ehtiramla yad edilən, dostu, qardaşı Hacan Orucov haqqında xatirələrini, fikirlərini, düşüncələrini ağ kağız üzərinə yazır.

Təbii olaraq ilk öncə onun ailəsinin, yəni həyat yoldaşının və övladlarının pak, tərtəmiz, mübaliğəsiz, və səmimi duyğuları, həyacanlı həzin fikirləri, xatirələri daha diqqətçəkən, daha təsirlidir.

Mən Hacan dayının böyük övladı Səmayənin atası ilə bağlı yazısını həyacansız, sözün bütün mənalarında kövrəlmədən oxuya bilmədim. Atası ilə bağlı obrazlı şəkildə desək ilk baxışda epizodik görünən hər hansı bir hadisəni o dərəcədə mənalandıraraq izah edir ki, bəzən elə zənn edirsən ki, sən də həmin hadisənin şahidi və içərisində olmusan. Səmayənin xatirə etüdündə diqqəti çəkən ikinci məqam ailədə olan tərbiyə ilə bağlıdır. Atasının ailədə yaşanmış ömrünün mənalı, xatirələrdə heykəlləşmiş anlarını "canyanğısı" ilə söyləyən, danışan övlad həm də fəxarət hissi keçirir ki, o məhz belə bir atanın övladıdır.

Hacan dayı ilə bağlı bir çox xatirə etüdlər həm çox mənalı və səmimi, həm də qəlbimizi ehtizaza gətirən yaşan-

mış hadisələrə, duyğulu anlara, insani kövrək və həzin hisslərlə çulğalayan, ağuşuna alan, eyni zamanda köksünü qürur hissi ilə dolduran faktlarla, deyimlərlə, yaşanmış ömürlə daha dərindir, daha mənalıdır. Belə xatirə etüdlərə misal olaraq professor Zakir Məmmədəliyevin, dosent İbrahim Bayramovun, Etibar Məmmədovun, Məhərrəm Həsənovun, Hacı Məhəmmədəli Kərbəlayı Molla Əli oğlunun, İmamqulu Hacıyevin, Abbas İbrahim oğlu Səfərovun, Məmməd Alı oğlu Qurbanovun, Müzahim Mehvalıoğlunun, Fazil İsmayılovun qələmə aldıqları yazıları göstərmək olar. Eyni zamanda Hacan dayıya həsr edilmiş bir çox şeirlər mənalı və dəyərlidir, diqqət çəkəndir. Belə şeirlərə misal olaraq Məhəmməd Muradovun, Müzahim Mehvalıoğlunun, çox hörmətli şairimiz Eldar İsmayılın, Təvəkgül Cəmillinin, Əli Toxlucalının, Xaləddin Məmmədovun, Saşa Əliyevin yazdıqlarını göstərmək olar.

Şair, publisist, nasir Eldar İsmayılın "Hacansız dünya" kitabı olduqca oxunaqlı, mənalı, məntiqli, yadda qalan deyimlərlə, fikirlərlə, oçerklərlə zəngindir. Kitab təkcə Hacan Orucov haqda deyil, həm də Ulu Göyçə mahalı, Toxluca kəndi və ayrı-ayrı şəxsiyyətlər haqqında dəyərli məlumat mənbəyidir.

***Firudin MƏMMƏDOV,***
*pedaqoji elmlər namizədi, dosent.*



## MÜƏLLİFDƏN

Hörmətli oxucum, mənim bu kitabım Toxluca kəndində doğulub, boya-başa çatmış, sonralar uzun illər boyu həmin kənddə rəhbər vəzifələrdə işləmiş Hacan Qənbər oğlu Orucovun xatirəsinə həsr olunmuşdur. Kitabı qələmə almağımın başlıca səbəbi nədən ibarətdir, sualına cavab olaraq deyim ki, bu səbəbin birincisi elə Hacan özüdür. Onun insan kimi böyüklüyü, müqəddəsliyi və qüdrətli vətən oğlu olmasıdır.

Həm də bu kitabı yazarkən qədim türk torpaqları olan Göyçə və onun dəyərli övladları haqda da söz demək imkanına malik oluramsa bu da mənim üçün çox şey deməkdir. Belə ki, insanlar bilməlidir ki, indiki Ermənistan əzəli türk torpaqları olmuşdur.

Onu deyim ki, Hacan Orucov haqqında yazmamaq, kitab hazırlamamaq ən azı günah olardı. Biz onun xatirəsini əbədiləşdirməsək, onun ruhu heç birimizi bağışlamazdı.

Hacan olduqca dəyərli insan idi. Uca boyu, yaraşıqlı, nurlu siması, qartal baxışı, şahanə duruşu, paklığı, saflığı, namusu, qeyrəti ilə o özü idi. O, səbri, dəyanəti, ləyaqəti, cəsarəti, vicdanı, əzəməti ilə Hacan idi. Böyük yaradan Hacanı heç kəsə bənzəməyən, yalnız özü olaraq, Hacan olaraq dünyaya bəxş etmişdi. Hacan hər hansı sambalı bir əsərin qəhrəmanının xarakterik xüsusiyyətlərini özündə cəmləşdirməyə layiq saflıq və gözəllik nümunəsi idi.

Mən Hacanı yaxşı tanıdığım üçün bu kitabın yazılmasını lazım bildim. Dövrün, zamanın az-az yetişdirdiyi bu cür insanlar tarixin səhnəsindən silinməməlidirlər. Bir yazar olaraq və qohumluq əlaqələrini də nəzərə alaraq mənim

haqqım yoxdur ki, yaxşılıq nümunəsi kimi tandığım Hacan haqqında öz ürək sözlərimi deməyim, onun xatirəsinə bir kitab-abidə yaratmayım.

Hacanı kim görsə idi ondan ayrılmaq istəmirdi, yaxud uzun müddət ondan danışırdı. 1981-ci ilin iyul ayı idi. Görkəmli ədəbiyyatşünas alim Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Yaşar Qarayev bizim ailənin qonağı idi. O, hər gün istirahətini şən keçirmək üçün bulaqların başına, Göyçə gölünün sahilinə və başqa görməli yerlərə gəzintiyə çıxırdı. Hacan Orucov mənə dedi ki, Yaşar müəllimlə "Dürlü bulaq"ın başında görüşmək istəyirəm.

Mən növbəti gəzintinin birini adı şair və aşıqların dilinin əzbəri olan "Dürlü bulaq"ın üstündə keçirməyi qərara aldım. Həmin gün Yaşar müəllimlə görüşə Hacan da gəldi. Zahid Sadıqov da bizimlə idi. Yaşar müəllim də, Hacan da az danışmağı, danışanda mənalı söhbəti sevirdilər. Həmin gün onların söhbəti daha çox tutmuşdu. Biz "Dürlü bulaq"ın üstündən sonra Toxlucanın örüşündəki məşhur "Turş bulaq"ın başına gəldik.

Mənim "Ulu Göyçə" poemamı yüksək dəyərləndirən və ürəkdən sevən Yaşar müəllim söhbətin Göyçədən, Toxlucadan getdiyi bir məqamda üzünü mənə tutub dedi:

- Eldar, "Ulu Göyçə"dən bir neçə bənd bizim üçün oxuya bilərsənmi?

Xoşbəxtlikdən poemanın əlyazması maşında idi. Mən 5-6 metrlik aralıda dayanmış "Jiquli" maşından əlyazmasnı götürüb, adamların arasına qayıtdım:

- Bəli, -dedim. İcazə versəniz elə Toxluca ilə bağlı hissəsindən oxuyaram. Üzündə xoş bir təbəssüm oynayan Hacan dilləndi:



- Oxu, Eldar, həmin hissəni oxu, -dedi. Mən poemadan bir neçə bənd oxudum.

*Ulu Göyçə, Toxlucanın bərəsi,*
*"Dərə yurd"un selli-sulu dərəsi.*
*Sel qopanda "Əyri çay"ın nərəsi,*
*Bir sürünü bircə anda götürdü.*
*Bir igidi köpüklərdə itirdi!*



*Hacan və xalası oğlu Hümbət*

*Ulu Göyçə, tülək-tərlan oylağı,*
*İgidlərin, cəsurların durağı.*
*Mərd kişinin sönən deyil ocağı,*
*"Ocaq dağı" məğrurluğun var olsun!*
*Sənin eşqin övladına yar olsun!*

*Ulu Göyçə, "Gəncə yolu" bir yoldu,*
*Karvan getdi, qayıtmadı, gec oldu.*
*Telli adlı yar gəlmədi, necoldu?*
*Gözü yolda qalanım var demirmi?*
*Məni yola salanım var demirmi?*

*Ulu Göyçə, Ocaq yeri daş-qaya,*
*Qayalarda möcüzədir "Quş qaya".*
*Qanad qaya, bədən qaya, baş qaya*
*Bu quş bir vaxt şər qüvvəni qovarmış!*
*Elə gələn qan-qadanı sovarmış!*

*Ulu Göyçə, Cığal Həsən kür olub,*
*Qaçaqlığı, qoçaqlığı sir olub.*
*Dava günü nərildəyən şir olub,*
*Yağı düşmən boyun əyib bu ada!*
*Ölənəcən əyilməyib dünyada!*

*"Armudlu"nun şeh çiləyən havası,*
*Göz oxşayan, könül açan səfası.*
*Hər bir çiçək neçə dərdin davası,*
*Bu qoruğu gəl insana tapşıraq!*
*Məhərrəm tək bir loğmana tapşıraq!*

Poemanın başqa yerlərindən hissələr dinləməyi də unutmadılar.

Biz onda yaddaqalan bir gün keçirdik. Yaşar Qarayevin söhbəti, davranışı Hacanın xoşuna gəldiyi kimi, Hacanın da hər bir hərəkəti, insanlığı onun qəlbinə hakim kəsilmişdi. Yaşar müəllim sonralar mənimlə görüşlərində həmişə Hacanı soruşar və axırda özünəməxsus bir şirinliklə



deyərdi: "Hacan əvəzsiz insandır"!

Mən Hacan Orucovla bağlı bu kitabı hazırlayarkən onu yaxından tanıyan bir neçə adamın ürək sözlərini, xatirələrini də kitabın səhifələrinə salmağı məsləhət bildim. Həmin xatirələri yazıb göndərən adamların hər birinə öz təşəkkürümü bildirirəm. Xüsusilə, professor Zakir Məmmədəliyev, dosent İbrahim Bayramov və Firudin Məmmədovun yazıları çox oxunaqlı, məzmunlu, daha doğrusu ürəklə yazılmışdır.

Kitabı hazırlayarkən müəllif yazılarındakı cüzi üslub səhvlərinə və durğu işarələrinin düzəlişinə fikir vermişəm. Çalışmışam ki, müəllifin yazısı olduğu kimi saxlanılsın, məzmununa xələl gəlməsin.

Bəzi şeirlərin redaktə olunmaması üçün oxucular bizi bağışlasınlar. Çünki ürək ağrısı ilə söylənmiş bu ağılar şairlik səriştəsi olmayan müəllifin söylədiyi, yaxud qələmə aldığı kimi qalsa daha əhəmiyyətli hesab olunur.

Kitab boyu Hacan Orucov haqqında ayrı-ayrı xatirələrlə, oçerk və şeirlərlə tanış olacaqlar. Mən sözümü bitirərkən Hacanın ruhunu əziz tutan, onun adını, şöhrətini uca saxlayan hər bir millət oğluna öz minnətdarlığımı yetirirəm.

Ulular da deyib, mən də deyirəm, dünya heç kəsə qalmayacaq. Vay o insanların halına ki, dünyaya aldanıb, dünyadan pis adla ayrılıblar.

Eşq olsun yaxşılara! Əməli, eşqi gözəllərə eşq olsun! Hacan Orucovun qəlblərdə yaraşıqlı heykəli, eldə-obada yaxşı adı qaldı!

# İNDİKİ ERMƏNİSTAN

Gələcək nəsil bilməlidir ki, indiki Ermənistan qədimdən bəri türk torpaqları olmuşdur. Rusiyanın və Avropa dövlətlərinin böyük yardımı və köməkliyi ilə 1828-ci ildən başlayaraq 1988-ci ilə kimi, yəni 160 il bu torpaqların əzəli sakinlərini öz ata-baba yurdundan çıxararaq Azərbaycanın qərb hissəsində böyük bir əraziyə sahib olmuşdur. Bu ərazi indi Ermənistan adlanır.

***Həmin illərin qısa xronologiyası aşağıdakı kimidir:***

**1828-ci il fevralın 10-da** Türkmənçay müqaviləsi bağlanmış, 21 mart günü Çar hökuməti İrəvan xanlığı ərazisində erməni vilayəti yaratmaq haqda qərar imzalamışdır.

**1828-ci** ildən sonra İrandan, Türkiyədən İrəvan xanlığı ərazisinə ermənilərin köçürülməsi təşkil edilmişdir.

**XIX** əsrin sonlarında indiki Ermənistan ərazisində 2310 yaşayış məntəqəsi olmuşdur. Bundan 2000-dən çoxunda azəri türkü yaşamışdır.

**1893-1905-1915-1918-1919-cu illərdə** azərbaycanlılar ermənilərin qırğınına məruz qalmışlar.

**1920-ci ildə** 15 azərbaycanlı mahalı üzərində Ermənistan SSR yaradılmışdır.

**1920-ci ildən 1937-ci ilə** kimi on minlərlə savadlı, bacarıqlı, hörmətli Azərbaycan oğulları represiya qurbanı olmuşdur.

**1948-1953**-cü ildə Stalinin və Mikoyanın yeritdiyi şovinist siyasət nəticəsində 150 min azərbaycanlı Ermənistandakı yurd-yuvasından çıxarılaraq yük vaqonlarında Qazaxstana və Azərbaycanın aran rayonlarına sürgün edilmişdir. Kəskin iqlim şəraitinin fərqi, aclıq və xəstəliklər nəticəsində həmin adamların 70 minə qədəri az müddət ərzində həlak olmuşdur.



- 23486 -

**1828-ci ildən 1952-ci ilə** qədər Ermənistan ərazsində 2 mindən artıq azərbaycanlı yaşayış məntəqəsi boşalmışdır.

**1920-ci il** dekabrın 1-də Azərbaycan Xalq Komissarları Şurası Qarabağ, Zəngəzur, Naxçıvan, Dilican, Göyçə mahallarını və Göyçə gölünün yarısını Ermənistanın XI qızıl Ordu tərəfindən işğalından üç gün sonra Rusiyanın təzyiqi ilə ermənilərə vermişdir.

**1920-1970-ci illər** arasında 500-ə qədər azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir.

XIX-XX əsrdə indiki Ermənistan ərazisində 3 milyondan artıq azərbaycanlı deportasiya edilmiş və bu zaman 1 milyon günahsız adam ermənilər tərəfindən öldürülmüşdür. Təkcə İrəvan şəhərində olan 9 məsciddən biri qalmışdır - **Göy məscid**. Son vaxtlar erməni mətbuatı onu da fars məscidi kimi qələmə verir.

**1988-ci ildə** 200 mindən artıq azərbaycanlı sonuncu nəfərə qədər dədə-baba torpaqlarını tərk etməyə məcbur olmuşdur. Bu vaxt 217 nəfər adam həlak olmuş, 1154 nəfər yaralanmış və onlardan bir çoxu ömürlük şikəst qalmışdır. Azərbaycanlılar 171 bütöv azərbaycanlı kəndini və 89 qarışıq yaşayış məntəqəsini tərk etməli olmuşdur.

**1988-ci ildə** kolxoz və sovxozlarda (kolxozlar sovxoza çevrilərkən əmlakı məbləği ödənilməmişdir) 550 min baş davar, 50 min baş iribuynuzlu malqara ermənilərin əlinə keçmişdir. Şəxsi təsərrüfatlarda olan 600 min baş davar və 50 min baş mal-qara talana getmişdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## ELİMİZ-OBAMIZ, FƏLAKƏTLƏRİMİZ

Krasnoselo kəndinin camaatı XIX yüzilliyin ikinci yarısında çar Rusiyasının ruslaşdırma siyasəti ilə əlaqədar bu əraziyə sürgün edilmişdir. Çənmərək kəndinin 1 kilometrliyində salınan Mixayilovka adında bu kənd 1920-ci ildə dəyişdirilərək XI Qızıl Ordunun buraya gəlişi münasibətilə Krasnoselsk (Qırmızıkənd) adlandırılmışdır.

Çənmərək kəndində ermənilər yaşamışdır. Ancaq kəndin adı bölgənin aborigen əhalisi olan Azərbaycan türklərinə məxsusdur. Çən-duman, sis deməkdir. Mərək isə qədim türklərdə samanlığa verilən addır. Bir atalar sözündə deyilir: "Mərddə mərək, yarı gərək". Yəni mal-qara üçün mərəyə (samanlıq) toplanmış yem mart ayında yarı olmalıdı. Bu söz heç də təkcə samanlıq kimi deyil, başqa yöndə, başqa sahələrdə də nəyinsə cəmləndiyi yer kimi işlədilmişdir.

Şınığın üstü Mormor dağı ilə Ağbulağın örüşündə olan "Darama" yüksəkliyi arasında olan çökəklik çox vaxt çənin toplaşdığı yer kimi tanınmışdır. Və Çəmbərək - daha doğrusu Çənmərək bu cür yaranmışdır.

Krasnoselo kəndinin yerində əvvəllər Altunkənd (Altuntaxt) adlı türk kəndi olmuşdur. Kəndin əhalisi XVII əsrdə İrana köçürülmüş və sonradan geri qayıtmamışdır.

Krasnoselonun ərazisində olan bir sıra tarixi abidələr, yer-yurd adları Azərbaycan türklərinin bu bölgənin ən qədim sakinləri olmasından xəbər verir. Səfəvilər sülaləsinin görkəmli nümayəndəsi Şah İsmayıl Xətai Şirvandan geri dönərkən öz Qızılbaş əmirləri ilə Xınna dərəsini ötüb Altuntaxt yaxınlığındakı səfalı bir düzənlikdə atdan düşüb, iki gün, iki gecə dincəlmişdir.



Altuntaxtın, eləcə də qonşu kəndlərin ağsaqqalları Şah İsmayılı və onun adamlarını böyük mehribanlıqla qarşılamışlar. Göyçənin Toxluca, Ardanış, Ağbulaq, Şorca və Qaraqoyunlu dərəsinin Gölkənd kəndindən gələn ağsaqqallar Şahın qoşunu üçün xeyli sayda at bağışlamışlar. Həmin dövrdə indiki Ağbulaq kəndinin qərbində "Dikdaş" adlanan yerdə Yellicə adlı kənd olmuşdur. Qonşu kəndlərdə olduğu kimi bu kəndin ağsaqqalları da şahın əsgərləri üçün at bağışlamışlar. Həmin dövrdə yaranmış bir bayatı xalq arasında günümüzə qədər yaşamaqdadır:

*A Yellicə, Yellicə,*
*Dörd tərəfi güllücə.*
*Şaha köhlən bağışlar*
*Hər ilxıdan əllicə.*

Şah İsmayıl Altuntaxt yaxınlığındakı düzəngahda dincələrkən ətraf örüşləri gəzir: "Böyük dağ" (yaxud da "Pir dağı") deyilən dağın qərbində olan güllü-çiçəkli bir dərəyə gələndə, vəcdə gələrək deyir: Bura "nə gözəl yerdir, nə gözəl dərədir". Bundan sonra həmin dərə el arasında "Gözəl dərə", şahın qoşunlarının dincəldiyi düzəngah isə "Şah meydanı" adlanır.

Tovuz ellərinin dədə-baba yaylağı olan "Gözəl dərə" haqda Tovuz aşıqları və şairləri bir çox şeirlər qoşmuşlar.

Qaraqoyunlu ellərinin qədimdən müqəddəs saydığı, qoynunda pirlər, ocaqlar olan Murğuz dağının üstündə "Ağcaqala" adlı bir qala olub. Bu qala çox qədimdən Ağca

adlı cəngavər bir türk qızına məxsus olub. Ağca elə böyük sərkərdə olub ki, onun döyüşkən ordusu həmin qalanın möhtəşəmliyini, alınmazlığını təmin edibdir. Həmin qalanın xarabaları son dövrə qədər qalırdı. Çox təəssüf ki, 1920-ci ildən sonra Türkiyədən köçürülüb gətirilmiş ermənilər Ağcaqala adlı yerdə, "Gödək Alının örüşü"ndə Martuni adlı bir kənd saldılar. Bir qədərdən sonra erməni tarixçiləri müxtəlif mənbələrdə qədim türk qalası "Ağca qalanı", X əsr Martuni qalası, XIII əsr alban kilsəsini Martuni kilsəsi, XIII əsr alban xaç daşını Martuni xaç daşı kimi təqdim etdilər.

Eyni zamanda Qoturbulaq ərazisində olan alban kilsəsi orta əsr Ttucur kilsəsi kimi qələmə verildi. Yuxarı Çənmərəkdəki alban xaç daşı (XIII əsr.) və Şorca kəndinin qərbindəki təpənin üstündə olan alban kilsələri də (XVI əsr) erməni kilsəsi kimi tarixi saxtakarlıqlara məhkum edilmişdir.

Halbuki, keçən əsrin iyirminci illərindən Ttucur kimi formalaşan Qoturbulaq ərazisində, eləcə də Şorca kəndinin ərazisində tarixən ermənilər yaşamayıb. Bəli, saxtakar erməni xisləti torpağımızı, sözümüzü, abidəmizi, mahnımızı, özününküləşdirmək həyasızlığını beləcə davam etdirməkdədir.

Çənmərək bazarı ətraf bölgələrdə çox məşhur olub. Xüsusilə yaylaq dövrü aşıb-daşardı. Gəncədən, Tovuzdan, Qazaxdan bəri bu bazara adamlar gələrdi. Əsasən heyvan alqı-satqısı üstünlük təşkil etsə də saz ustadları, zərgərlər, dəmirçilər, nalbəndlər öz mallarını satar, pitixanalar, kababçılar, çayxanalar, xəngəlxanalar bazara gələn camaata xidmət edərdi. Buradakı ustaların, dükançıların əksəriyyəti



Göyçədən, Qaraqoyunludan, Tovuzdan və Şınıxdan olardı.

**XIX** əsrin sonlarında Staraya Mixayilovka bir malakan kəndi kimi diqqəti çox da cəlb etmirdi. Onu Çənmərəklə arasından axan "Tərsə çay" ayırırdı. Çənmərək ətraf bölgələrdə daha məşhur idi. Bura yaylaq ellərinin mərkəzi kimi diqqəti çəkirdi.

Bu dövrdə və sonralar da (XX əsr) Çənmərəyin camaatı uşaqdan böyüyə azərbaycan dilini mükəmməl bilirdi.

**1827-ci ilin** oktyabr ayında rus ordusu tərəfindən İrəvan qalası süqut etdi. Bundan bir neçə ay sonra 1828-ci ilin fevralında "Türkmənçay müqaviləsi" bağlandı. Müqavilədən az sonra novruz bayramı günü Çar hökümətinin fərmanı ilə İrəvan xanlığı erməni vilayəti adlandırıldı. Bundan sonra bu ərazilərdə sürətlə erməniləşdirmə siyasəti başlandı.

**1831-ci ilə** kimi Mixayılovkada 1493 nəfər Azərbaycan türkü yaşamışdır. 1886-cı ildə bu kənddə 2274 nəfər rus yaşamışdır. 1905-07-ci və 1918-19-cu illərdə erməni daşnak birləşmələrinin silahlı müdaxiləsi nəticəsində ərazidə böyük fəlakətlər baş verdi. Azərbaycan türklərinin tamam məhv olmaq təhlükəsi yarandı. Qırılan qırıldı, qaçanlar isə Türkiyədən, İrandan belə yayıldı. Həmin dövrdə Türkiyədən və İrandan gətirilən ermənilər yerləşdirilməyə başladı. 1918-ci ilin sonunadək daşnak ordusu İrəvan quberniyasında 200 azərbaycanlı kəndini qarət edib yandırmışdır. Sağ qalan adamlar dağlara qaçmış və yollarda aclıqdan, soyuqdan tələf olmuşlar. 100 min nəfərdən artıq azərbaycanlı əhali Sürməli, İrəvan, Eçmiədzin və Şərur qə zalarını tərk etməyə məcbur olmuşdur.

Gərnibasar, Dərəçiçək, Pəmbək, Dağ Borçalı, Ağbaba ətrafında da qanlı döyüşlər gedirdi. Türk qanına susamış

millətçi erməni qoşunları günahsız azəri türklərini son dərəcə amansızlıqla məhv edirdilər. 1918-1919-cu illərdə Gümrü ətrafında 10 min azərbaycanlı qətlə yetirilmişdir. Andronik Uzunyanın, Dronun, Njdenin qanlı fəaliyyəti bütün mahalları bürümüşdür. İndiki Ermənistan ərazisində yaşayan türklərin soyqırımı aparılırdı. 1918-ci ilin sonlarında düşmən Haqqıxlı kəndini yandırıb dağıtdıqdan və bir neçə saat ərzində 71 adamı qəddarlıqla məhv etdikdən sonra Qaraqoyunlu dərəsinin Polad və Salah kəndləri istiqamətində güclü müqavimətə rast gəlib ağır tələfatla geri oturduldu. Polad ətrafındakı döyüşə Qaraqoyunlu camaatı ilə yanaşı, Göyçənin və Şınığın yaxın kəndlərindən çoxlu kömək gəlmişdi. Xüsusilə, Yaqublu dərəsindən Məcid ağanın, Göyçədən Cığal Həsənin, Topal Orucun, Məşədi Hümbətin, Dəli İsmayılın başında gələn dəstələr böyük şücaət göstərmişdilər.

Qaraqoyunlu dərəsində qabağı kəsilən daşnaq qoşunu strateji manevr keçirərək Göyçə gölünün şimalına Çubuqlu istiqamətindən hücum etdi. Bu zaman artıq Dərəçiçək və Ağzıbir-Kəvər arasındakı kəndlər vir-viran edilmişdi. Dərəçiçəkli qaçaq Rüstəm və hacımuğanlı İskəndər Dəniz güneyinə-Toxluca dağlarına çəkilmişdilər.

Göyçədə qanlı vuruşmalar gedirdi. Cığal Həsənin və Topal Orucun dəstəsi bir gündə 74 erməni qaniçənini məhv etmişdi. Bunu görən, mükəmməl silahlanmış nizami ordu ermənilərin köməyinə gəldi. Daşnaklar Toxlucanı, Ağbulağı, Cili, Babacanı, Pəmbəyi talayıb Şişqayaya ötdülər. Basarkeçərə Kəvər istiqamətindən də hücumlar başlanmışdı.

Erməni qəsbkarları tərəfindən dəfələrlə qeyri-insani xə-



yanətlərə məruz qalan türklər, o cümlədən Göyçə camaatı 1827-1831-1905-1907-1918-1919-cu illərdə dəhşətli müsibətlərə düçar olmuşdur. Rus imperiyasının havadarlığı ilə türk millətini dədə-baba yurdlarından çıxarıb, Ermənistan yaratmaq iddiası indiki Ermənistanın vaxtı ilə ərazisində olan 2000 türk kəndinin dağıdılmasına səbəb olmuşdur.

Daşnaq sərkərdəsi Sulikovun qoşunu 1919-cu ilin 13-20 aprel arası bütün kəndləri xarabaya çevirdi və 60 min türk qəddarlıqla məhv edildi. Şişqaya kəndinin camaatını barış adı altında bir neçə böyük evlərə doldurub yandırdılar. Çıxıb qaçanlar isə silahlı daşnaq əsgərləri tərəfindən güllələborana tutulub məhv edildi. Həmin hadisədə Şişqayadan 700-ə yaxın günahsız insan (qadın, uşaq, qocalar da daxil olmaqla) rəhmsizcəsinə öldürüldü. Dinc əhalinin qanına susamış Sulikovun cəllad yürüşü qəhrəman Zod igidləri tərəfindən dayandırıldı. Səməd ağanın və Məşədi İsanın başçılığı ilə Sulikov Zodda öldürüldü. Erməni sərkərdəsinin ölüm xəbəri daşnakları tamam sarsıtdı və qəzəbləndirdi. Yeni qüvvə ilə Göyçəyə hücum edən daşnak qoşunları qalan kəndlərin də külünü göyə sovurdular. Səməd ağa və Aşıq Nəcəf tutulub Basarkeçər qalasına salındı. Səməd ağanın hirsindən ürəyi partladı. Aşıq Nəcəfi Kəvər (Norbayazet-Kamo) qalasına aparıb, kürəyinə odlu samovar bağlayıb öldürdülər. Ölümündən əvvəl ona müraciət etdilər ki, aman istə, səni əfv edək. Qəhrəman türk oğlu Aşıq Nəcəf "Mən düşməndən aman istəmirəm!" - deyə qəti qərar verdi.

Q.Muradyan aprel qırğını haqqında yazırdı: "Bizim hökumətin tədbirləri sayəsində (Daşnak hökuməti. E.İ.) bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və başqaları) əhalisi

Ermənistan sərhəddini tərk etdilər. Tərk edilmiş kəndlərdə mən pişik və itlərin necə uladığının şahidi oldum. Bu kəndlərin əhalisi külli miqdarda kartof, buğda və arpa səpmişdi. Hökumət bu kəndlərin ərazilərindən iki milyon puddan çox buğda və yarım milyon pud kartof yığa bilər" (Joğovurd - erməni qəzeti 105, 1920-ci il).

Erməni müəllifləri həmişə hər hansı bir yazıda tarixi saxtalaşdırmağa çalışmışlar. Bunun da başlıca səbəbi türklər yaşayan ərazilərdə öz dövlətlərini qurmaq iddiasında olmalarıdır. Həmin torpağın vaxtı ilə erməni torpağı olmasını təsdiq edən sənəd yaratmaq erməni hiyləsinin tərkib hissəsidir.

Q.Muradyan da digər soydaşları kimi "Joğovurd" qəzetinə məqalə verərkən "Toxluca, Ağbulaq, Ardanış kəndlərinin əhalisi Ermənistan sərhədlərini tərk etdi" deməklə həmin məkrli niyyətə qulluq edir. Axı, 1919-cu ildə adı çəkilən kəndlər, daha doğrusu Göyçə gölünün şimal hissəsi Ermənistan deyil, Azərbaycan ərazisi idi.

Erməni hərbçisi Vahram yazır: "Mən Basarkeçərin tatar əhalisini heç nəyə məhəl qoymadan məhv etdim. Bəzən gülləyə də heyfim gəlirdi. Bu itlər üçün ən düzgün vasitə döyüşdən sonra yaralananların hamısını bir quyuya doldurub üzərlərinə ağır daşlar yığmaqdır ki, onlar bir də yer üzündə olmasınlar. Mən belə də edirdim: bütün qadınları, kişiləri və uşaqları yığıb quyulara doldurub başlarına daş töküb öldürdüm" (Revolyutsonnıy Vostok, 2-3, 1936).

**1919-cu ilin** yazında erməni faşizmin ordusu heç bir müharibə hazırlığı olmayan qocaları, uşaqları, qadınları Zodun Ağ qaya və Hüseyinqulu ağalı (Nərimanlı) yaylağındakı "Yal" aşırımından Kəlbəcər tərəfə keçirdilər. Çalmalı dağının ətəyində olan bu aşırımdan keçərkən yüzlərlə insan və minlərlə mal-qoyun borana düşüb qırıldı. Həmin dərə o vaxtdan "Sümük tökülən" dərə adlanır.



**1918-ci ilin** may ayından 1920-ci ilin noyabrına qədər hakimiyyətdə olan daşnak hökuməti 440-dan artıq türk kəndini yandırıb yerlə-yeksan etmiş, yüz minlərlə soydaşımızın ölümünə və qaçqına çevrilməsinə səbəb olmuşdur.

XI Qızıl Ordu 9 min kv. km ərazisi olan Ermənistanı işğal etdi. 1920-ci il dekabrın 1-də Rusiyanın təzyiqi ilə Azərbaycan Xalq Komissarları Şurası Dilicanı və Göyçə gölünün şimal hissəsini ermənilərə verdi. Bu tarixi faciəni qəbul etməyən minlərlə göyçəli etiraz səsini qaldırdı. Bu etiraz aksiyasının başında duran namuslu adamlar təqib olunur, “Sovet hökumətinin düşməni” adı ilə aradan götürülürdü. Göyçənin Ermənistana verilməsinin əleyhinə olan qəhrəman Hüsənli (Toxluca kəndi) igidləri silahlarını yerə qoymaq istəmirdilər. Uzun sürən gərgin mübarizədən sonra bolşevik mundiri geymiş daşnaklarla rus ordusunun birləşmələri nəticəsində Topal Oruc və onun doğmalarından ibarət 14 nəfər dönməz türk oğlu qəhrəmanlıqla qeyri-bərabər döyüşdə həlak oldu.

## KRASNOSELO RAYONU

1937-ci ilin 31 dekabrında Göyçə mahalının Cil, Ardanış, Şorca, Ağbulaq, Toxluca, Qaraqoyunlu dərəsinin Cıvıxlı, Gölkənd, Çaykənd, Bəryabad, Əmirxeyir, Qaraqaya, Yanıqpəyə azərbaycanlı kəndləri və Krasnoselo (rus kəndi), Yuxarı Çənmərək, Aşağı Çənmərək, Təzə Başkənd, Orconokidze, Ttucur (Qoturbulaq), Martuni və Gədəbəy ərazisində yerləşən, 1992-ci ildə Azərbaycan ordusu tərəfindən dağıdılan Köhnə Başkənd (erməni kəndləri) daxil olmaqla Krasnoselo rayonu yaradılmışdır.

697 kv. kilometr sahəsi və 27 min nəfər əhalisi olan yeni yaradılmış rayon 13 kənd Soveti və 20 yaşayış məntəqəsini birləşdirmişdir. Əhalisinin 78 faizi azəri türkləri olduğuna görə rayonda vəzifələrə əsasən milliyyətcə türklər qoyulmuşdur. Əlbəttə, bütün bunlar ilk növbədə gözdən pərdə asmaq üçün bir hiylə idi. Bir qədərdən sonra erməni məkri, erməni millətçiləri açıq şəkildə özünü göstərməyə başladı.

Rayon təşkil olunanda rayon partiya komitəsinin birinci katibi vəzifəsinə Cümşüd Həsənov adlı qabiliyyətli bir azərbaycanlı təyin edilib. Rayon prokuroru vəzifəsini isə Meğrıdən olan Mənaf Babayev icra edib. Böyük Vətən müharibəsi başlanmazdan əvvəl birinci katib vəzifəsi ermənilərə verilib. Azərbaycanlı əhalisinin təzyiqi ilə 1953-cü ildə Krasnoselo rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə Cümşüd Sultanov təyin edilib.

Cümşüd Sultanovdan sonra Krasnoselo rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə Yunis Qəhrəman oğlu Rzayev seçilib.



O, Azərbaycan Dövlət Universitetini, Bakı Ali Partiya məktəbini, Moskva Ali Partiya məktəbini bitirib.

Erməni təzyiqi ilə hər gün, hər saat üz-üzə qalan Yunis Rzayev 1970-ci ildə Azərbaycana köçmüş, əvvəlcə Şamaxı Rayon Partiya Komitəsinin birinci katibi, sonra isə Respublika Üzümçülük və Şərabçılıq Komitəsinin sədri vəzifələrində çalışmışdır.

Azərbaycan xalqının yetişdirdiyi böyük dövlət xadimlərindən biri olmuşdur. Yunis Rzayev 1985-ci ildə Bakı şəhərində vəfat etmişdir. Məzarı Fəxri xiyabandadır.

Yunis Rzayevdən sonra Krasnoselo rayonunun birinci katibi vəzifəsinə Əli Ələsgər oğlu Həsənov seçilmişdir.

Əli Həsənov 1920-ci ildə Göyçə mahalının (Martuni-Qaranıq rayonu) Mədinə kəndində anadan olub.

Moskvada Ali Partiya məktəbini bitirib. Rayon partiya komitəsində təlimatçı, şöbə müdiri işləyib və "Sovet Ermənistanı" qəzetində məsul vəzifələrdə çalışıb. 1960-cı ildən 1969-cu ilədək Krasnoselo rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmışdır.

Qeyd etmək lazımdır ki, Əli Həsənov Krasnoselonun tarixində uzunmüddətli (9 il)-katib işləyən yeganə şəxs olub.

1969-cu ildən etibarən Basarkeçər və Krasnoselo rayonlarına birinci katib vəzifəsinə erməni millətindən olan kadrlar təyin edilib.

## TOXLUCA

Göyçə mahalının ən qədim, axar-baxarlı, tarixən təbiətinin və tikililərinin gözəlliyi ilə diqqət çəkən yaşayış məntəqələrindən biri də Toxluca kəndi olmuşdur. Binövrəsi XII əsrdə qoyulmuş Toxluca kəndinin əhalisi digər qonşu kəndlərin camaatı ilə 1500-cü ilin yazında Şah İsmayılın başçılığı ilə Göyçəyə qədəm qoymuş Səfəvi qoşununu böyük hörmət və sevinclə qarşıladı. Altunkənd (İrəvan əyalətinin icmal dəftərində (1728-ci il) Altunova) adlı yaşayış məntəqəsinin şimal-şərqindəki düzənlikdə dincəlmək qərarına gələn səfəvi qoşunu və onun sərkərdəsi Şah İsmayılın şərəfinə Toxluca, Ağbulaq, Şorca (həmin dövrdə türklər yaşamışdır), Ardanış, Cil, Şımpır və başqa kəndlərin camaatı böyük ziyafət təşkil etdilər. Onun əsgərlərinin yorulmuş atlarını yenisi ilə əvəzlətdilər.

Şah İsmayıl bu ərazini gəzintiyə çıxdı. Güllü-çiçəkli, otlu-ormanlı böyük bir dərəyə gələndə təbiətin bu dilbər guşəsi onu heyran etdi. "Bura ən gözəl dərədi" deyə öz heyrətini gizlətmədi. Toxlucanın örüşünə söykənən bu dərə bundan sonra "Gözəldərə" adlandı. Bir çox şairlər, aşıqlar "Gözəldərə"yə çoxlu şeirlər qoşdular. Məhşur el şairi Xəyyam Mirzə yazırdı:

*Quşçu eli çıxan "Şah meydanı"dı,*
*Dillərin əzbəri "Topaşan"ıdı.*
*"Böyük Gözəl dərə" şah fərmanıdı,*
*Dam-daşı tək gəlib cahana, dağlar.*





*Toxluca kəndindən bir görünüş. Şəkili M.Mehvalıoğlu təydim etmişdir.*

İsmayıl Katib yazırdı:

*"Gözəldərə" sənsən dilim əzəbəri,*
*Var sərrafın seçən ləli, gövhəri.*
*"Dürlü bulağı"nın abı-kövsəri,*
*İçən olur dəli-divana, dağlar.*

Şah İsmayılın qoşunu toplaşan düzəngahı əhali həmin gündən etibarən "Şah meydanı" adlandırdı. XVI əsrin sonları, XVII əsrin əvvəllərində Səfəvi dövləti ilə Osmanlı türkləri arasında müharibə gedirdi. Osmanlı hakimi Davud Paşa yeddiminlik qoşunla hücuma keçdi. Bu tərəfdən isə Sinan Cığaloğlunun başçılığı ilə Osmanlı qoşunu yaxınlaşırdı. Türklərin əlinə keçməsin deyə 1 Şah Abbas Arazın sol sahilini köçürmək barədə fərman verdi. Bu vaxt əhalinin Göyçədən köçürülməsi də həyata keçirildi. Bu köçürülmə tarixşünaslıqda "Böyük sürgün" adlandırılmışdır. Bu dövrdə Göyçədən köçən əhali evini-eşiyini atıb getmiş, mal-qarasını itirmiş, aldığı tapşırığa görə qalan ələfi və ərzağı yandırmağa məcbur edilmişdi.

Göyçədən köçürülən camaat Təbrizə, Xoya, Ərdəbilə, İsfahana, hətta Kərkükə qədər yayılmışdır. Göyçəli analar həmişə bayatılar zümzümə edə-edə deyərdilər:

- Bu bayatıları göyçəlilər sürgün vaxtı Kərkükdə deyiblər. O bayatılardan biri belə idi:

*Arabam,*
*Yolda qalıb arabam.*
*Özüm türk, dilim türkcə,*
*Necə deyim ərəbəm.*



Həmin köç digər kəndlərin camaatı kimi toxlucalılardan da yan ötməyb. Bir neçə ildən sonra geri qayıtmağa icazə verilsə də bir çoxları geri qayıtmayıb. Lakin qayıdanlarla birlikdə bu köçlərə qoşulub gələnlər də olub. Xüsusilə həmin dövrdə Sulduzdan köçüb Göyçəyə gələnlərin sayı daha çox olub. Göyçəyə Qazax, Tovuz, Şəmkir, Gəncə və Qarabağdan gəlib məskunlaşanlar da az olmayıb. Bundan sonra Toxlucanın əvvəlki sakinlərinə yeni sakinlər də qoşulub və sonuncu Toxlucanı qurublar.

Rəvayətə görə həmin dövrdə yeni Toxlucanın binövrəsini bir əsgər qoymuşdur. Balı adlı bu əsgər komandanına can-başla qulluq etdiyinə görə komandanı bu yeri ona hədiyyə etmişdir. Beləliklə, kənd onun saldığı yaşayış məntəqəsi kimi tanınmışdır.

Toxluca qonaqlı-qaralı, görkəmli şəxsiyyətləri ilə seçilən bir kənd olub. Onun qəhrəman oğullarının adı-sanı hər yana yayılıb. Kəsəmənli İsrafil ağa və Qaçaq Kərəm Toxlucalı Cığal Həsənlə, Məşədi Məmmədlə, Topal Orucla dostluq ediblər. Yazıqlar olsun ki, sonralar Kərəmlə İsrafil ağa əsil düşmənə çevrilmişlər. İsrafil ağa Sayil imzası ilə şeirlər yazmışdır. O şeirlərdən biri Qaraqoyunlu və Göyçə yaylaqlarına həsr edilmişdir. "Dağlar" rədifli 12 bəndlik bu qoşmanın üç bəndini oxucuların diqqətinə çatdırmağı lazım bildim.

*"Soyuqbulaq" kənd yerinin çiçəyi,*
*Sərxoş gəzir gözəllərin göyçəyi.*
*"Gözəldərə" Toxlucanın gəzdiyi,*
*Kimə qaldı yadigarın, a dağlar?*

*"Marallıca", "Maymaq dağı", "Əşrəfi",*
*Qurular üstündə çadır, tənəfi.*
*Gözəllər dəstəsi, xuraman səsi*
*Heç görünmür o xubların, a dağlar.*

*Bir yanın "Top gəzdək", "Balıqlı çayı",*
*Bir yanın "Yal yolu", "Dəniz güneyi".*
*Duman qalxa bir kəseydi areyi,*
*Bağlanaydı o yolların, a dağlar.*

Kəndin camaatı 1905-1920-ci illər arasında erməni işğalçılarına qarşı qəhrəmancasına mübarizə aparmışdır. Xüsusilə Cığal Həsən və Topal Oruc ermənilərlə gedən savaşlarda böyük mərdlik göstəriblər.

Cığal Həsən Çar üsul idarəsi tərəfindən izləndiyinə görə qudası Məşədi Məmmədlə birlikdə üç il qaçaqlıq edib. Bir il İranda yaşayıb.

Kəvər qalasından və Qazaxda Şəkərin qalasından qaçandan sonra Cığal Həsəni məhv etmək üçün üstünə xüsusi hazırlıqlı kazak dəstələri göndərilir. Öz dəstəsi ilə kazakları darmadağın edir. Bu igidliklə əlaqədar olaraq ağbulaqlı şair Kazım yazır:

*Yaraneldən hökm olundu,*
*Kazak atlandı yeridi.*
*Əllərdə cidalı tüfəng*
*Dörd bir yanı bürüdü.*



*Kimi gördü eşqə doldu,*
*Kiminin bağrı əridi.*
*Təpindi dörd yüz saldata*
*Xod verdi süzənə Cığal!*

*Uzaq yeri neyləyirsən,*
*Kür üstdən bərini deyim.*
*Bayramlını, Qırıqlını,*
*O Qovlar saranı deyim.*
*Kəsəməni, Cırdaxanı,*
*Bilmirəm haranı deyim?*
*Kiminlə ki, dost olubdu*
*Əhd edib peymana Cığal!*

*Hər kim ilə mərc eləyb,*
*At sürüb qoşa keçməyib.*
*Berdanqa mənzil ötürüb,*
*Aynalı daşa keçməyib.*
*Əlində top kimi süzən,*
*Atanda boşa keçməyib.*
*Öldürübdü düşmanları,*
*Düzdürüb yan-yana Cığal!*

*Bu gün aşığın nəmərin*
*İki nəmər şir verəcək.*
*Açılacaq mərd dəftəri,*
*On tüməni bir verəcək.*
*Bir elə də Oruc Sultan*
*Üstünə qoyub verəcək.*

*Katiblər bu dastanı*
*Yazar Gülüstana Cığal!*

*Şair Kazımın ağası,*
*Hər işə əncam eylədi.*
*Cığal yığdı yoldaşların*
*Öz başında cəm elədi.*
*Öldürdü Dəvəli kürdü*
*Murazından kəm eylədi.*
*On iki kazakın leşini*
*Sərdirdi yan-yana Cığal!*
*İki soldatın başını*
*Göndərdi divana Cığal!*

Krasnoselo rayonunda rayon mərkəzindən sonra ən böyük yaşayış məntəqəsi olan Toxluca kəndinin ümumi sahəsi 47 kvadrat kilometr, əhalisi 1831-ci ildə 296, 1897-ci ildə 681, 1908-ci ildə 1193, 1914-cü ildə 1373 nəfər, 1986-cı ildə 3100 nəfər olmuşdur.

Kənd, rayonda ilk dəfə - 1956-cı ildə sovxoz kimi şöhrət qazanmışdır. Sovxoz təsərrüfatında 11500 baş xırda heyvan, 1200 baş malqara saxlanırdı. Bu qədər də camaatın şəxsi təsərrüfatında mal-qoyun olmuşdur.

Arıçılıq geniş inkişaf etmişdi. İqtisadiyyatda başlıca sahə heyvandarlıq, taxılçılıq və tütünçülük sayılırdı.

Sovxozda 50-dən artıq maşın və traktor, çoxlu kənd təsərrüfatı aqreqatları var idi. Kənddə böyük orta məktəb binası, mədəniyyət evi, kitabxana, ambulatoriya, aptek, rabitə şöbəsi, məişət xidməti emalatxanası, ATS və digər obyektlər olmuşdur.



Toxlucada Krasnoselo rayonundakı 18 saylı Yol-Tikinti idarəsininin və Başkənd (Arzvaşen) xalça fabrikinin filalları fəaliyyət göstərmişdir.

Bütün Qərbi Azərbaycan camaatı kimi Toxlucalılar da 1988 - ci ilin noyabr ayında öz doğma kəndlərindən silah gücünə çıxarıldılar.





*Məhəmməd TOXLUCALI*

## TOXLUCA

Axtardım tarixin daş yaddaşını,
Balı Sultan qoyub təməl daşını.
Niyə qəribsəyib çatdın qaşını?
Üstünə yeridi sellər, Toxluca!

Dağların qoynunda məğrur durmusan,
Qartaltək zirvədə yuva qurmusan.
Daşnaq generalı sərrast vurmusan,
Səndə baş qoymuşdur "fillər", Toxluca!

Dağların qonaqlı, odlu, məşəlli,
Dosta hörmətin var, hər yanda bəlli.
İgidlər yurdusan polad təməlli,
Xainlər gözünə millər, Toxluca!

Göyçə gölü sənin eşqin, vüqarın,
Odur, şah əsəri min bəstəkarın,
Hanı Topal Oruc, Cığal Sərdarın
Nə yaman bəd gəldi illər, Toxluca!

Sinəsi alovlu oğlun, qızın var,
Alimin, loğmanın, min ulduzun var.
Hələ yazılmamış nəğmən, sözün var,
Tərifin söyləyir dillər, Toxluca!



Ələsgər sinəndə sazın çalıbdı,
Məclislər keçirib xələt alıbdı.
Anamın laylası səndə qalıbdı,
Solmasın qoynunda güllər, Toxluca!

Mən sənin qoynunda gəlmişəm cana,
Məhəmməd oğlundur, sən ona ana.
Deyirəm dünyamız batmasın qana,
Açılsın qoynuna yollar, Toxluca!



## TAYFALAR

Göyçə mahalının böyük yaşayış məntəqələrindən olan Toxluca kəndi haqda yazarkən kənddəki tayfalar barədə məlumat verməmək düzgün olmazdı. Ona görə hər tayfadan və tayfalardan ayrılmış budaqların hər birindən bir neçə nəfər nümayəndə göstərmək qərarına gəldim.

**Alıkişilər**- Dıvır Əhməd, Məmmədbağır, Qara.

**Abbasəlilər**- Həsənalı, Məhəmmədəli, İbrahim.

**Arazdar**- Məşədi Hasan, Məşədi Avıl, Murğuz, Abdulla, Məşədi Səfər, Cəfər, Əmrah.

**Bəhmənli**- Ağamalı, Hasoy, Mehralı,

**Bədəllər**- Məcid, Mehdi, Musa, Eyyub, Ziyad, Zirəddin, Məşədi Bədəl.

**Bəxtiyarlar** -Musa, İsa, Vəli, Əli.

**Bicoylar**- Allahverdi, Məstan, Rüstəm, Hüseyn.

**Bayramlar**- Bayram, Məstan, Qəmbər, Məhəmməd .

**Vəlikişilər**- Məmməd, Məşədi İsmayıl, Məmmədcan, Hüseyn.

**Qaranamazlı**- Şəmistan, Şəmgül, Xasoy.

**Qılınclı**- (Balı Sultanın nəsli)-Xançalxan, Mollaməmməd xan, Xamoy, Kalvay Dostumalı.

**Qocalar**-Şəmistan, İsmayıl, Nəbi, Nağı, Abdulla.

**Qələndərli (Qaçağanlı)**- Ağacanbəy, Məmmədxan ağa, Qələndər, Kalvayı İsgəndər, Mədət, Ramazan, Novruz.

**Dəmirçilər**- Məşədi Həsən, Kövrük, Şirin.

**İvoylar**- Məşədi İbrahim, Hacı Əhməd, Hacı Məmməd.

**İmamqulular**- Aslan, Məstan, Bəhlul, Qurban.

**Yoloğlular**- İman, Bayram, Abdulla.

**Kəlvəlilər**- Kərbəlayı Əli, Abdul, Əmrah.

**Kərbəlayı Əlilər**- Kərbəlayı Kalı, Məhərrəm, K.Qasım, K. Molla Əli.

**Məşədi Ağa Rzalar**- Məşədi Qara, Murad, Rəşid, Musa, İsmixan, Taplan.



**Məşədi Yolçular**- Məşədi Qasım, Məşədi Yolçu, Bavaş

**Məşədi Vəlilər**- Həmid, Məşədi Hüseyin, Vəli, Hacı İbrahim.

**Məşədi Qaralar** - Məşədi Qara, Murad, Rəşid.

**Mansırlı**- Qaravəli, Mehvalı, Fərrux.

**Mollalar**- Daşdəmir, Məşədi Molla Ramazan, Molla Rəhim, Molla Əhməd.

**Molla Cəfərlər**- Şaban, Zaman, Camal.

**Nədirli**- Kərbəlayı Məmməd, Qəhrəman, Əsgər, Rüstəm.

**Novruzlar**- Ələs, Oysar, İsaq, Kərəm.

**Otoylular (şapqalılar)**- Pisir Abbas, Məşədi Abbas, Cabbar, Cavad, İsa, Oruc.

**Seyidlər**-Hacı Mirsadiq, Mirələkbər, Mirhəmid, Mir İsmayıl, Mirqasım, Mirqələm

**Poluxlu**- Qara Məcid, Xalıqverdi, Qəmbər, Abdüləli.

**Rzaqulular**- Bayram, Bodur Hüseyn.

**Tavarlar**- Tağı, İsgəndər, Həmid.

**Tattağılar**- Yediyar, Oruc, Şirin.

**Tatlar**- Abduləli, Məlikməmməd, Xəlil, Qasım, Ağəli.

**Tatarlar**- Tatar Hüseyin, Həsən, Məmmədsadıq, Qara.

**Hüssənlilər**-Hüssənli Qasım, Süleyman, Məşədi Məmməd, Topal Oruc, Qənbər, Aydaş, Yaqub, Ağəli,Səlidar.

**Hümmətlər**-Qutul Hümmət, Əmrah, Nəsib, Qasım.

**Hajabbaslar**-Hacı Abbas, Kərbəlayı İbrahim, Əli, Hüseyin, Aslan.

**Ciletflər**- Əhməd, Ələkbər, Rüstəm.

**Xudular**- Tamaşa, İrvaham, İsmayıl.

**Şükürlər**- Hümbət, Rəsul, Heydər.

Bu tayfalardan biri də **"Hüsənlilər"** tayfası olmuşdur.

## HÜSƏNLİ TAYFASI

Göyçə mahalında adı hörmətlə çəkilən ünlü tayfalardan biri də Hüsənli tayfasıdır. Mahalın qədim kəndlərindən olan Toxluca tarixən igidlər yurdu kimi tanınmışdır. Bu kəndin hörmətli ağsaqqalları, görkəmli din xadimləri, cəsur, yenilməz igidləri elə-obaya həmişə başucalığı gətirmişlər. Hüsənli ağsaqqalları, igidləri də sevilən, seçilən, elin-obanın xeyrinə-şərinə yarayan, təsibini çəkən, qeyrətini daşıyan insanlar olmuşlar.

Atası İsmayıldan və əmisi Süleymandan sonra Hüsənli tayfasının ağsaqqalı kimi tanınan Məşədi Məmməd müdrikliyi, əsil-nəcabəti, səbr və dözümlülüyü ilə seçilən qətiyyətli bir şəxs olmuşdur. Eyni zamanda o cəsur, mərd, qorxmaz və döyüşdə yenilməzliyi ilə də tanınmışdır. Məşədi Məmməd tanınmış xalq qəhrəmanı Cığal Həsənlə quda olmuşdur. Cığal Həsənin qızı Maya xanım Məşədi Məmmədin oğlu Ağəlinin, Məşədi Məmmədin qızı Bağdad xanım isə Cığal Həsənin oğlu Əlnin həyat yoldaşı olmuşdur.

Cığal Həsən Çar üsul - idarəsi tərəfindn izlənildiyinə görə qudası Məşədi Məmmədlə birlikdə üç il qaçaqçılıq edib, bir il İranda yaşayıb.

Tayfanın digər ağsaqqallarından biri isə Topal Oruc kimi tanınan Oruc Süleyman oğludur. Uşaqlıqdan dəcəlliyi, qorxmazlığı və çevikliyi ilə seçilən Orucun, çəçələ barmağı oda toxunduğundan yaxşı açılmırdı. Buna görə o "Topal Oruc" ləqəbi ilə tanınıb.

Oruc orta boylu, qarayanız, suyuşirin, bir adam olub. Çox da iri olmayan qara bığı sifətinə xüsusi yaraşıq verib. Əyninə



dəri kürk geyinər, taxtalı onatan, beşaçılan, gümüşdəstəli xəncər götürərdi.

Topal Oruc kəndin digər igidlərini və Hüsənli gənclərini ətrafında cəmləyərək 1905-ci ildən ömrünün sonuna kimi erməni işğalçılarına qarşı mərdliklə mübarizə aparmış xalq qəhrəmanlarından biridir.



*Topal Orucun xəncəri.*

Hüsənli igidləri Polad, Çubuqlu (Zovaquğ), Təkağac, Darama, Şahdağ, Basarkeçər döyüşlərində əsl qəhrəmanlıq nümunələri göstərmiş, erməni faşizminə ağır zərbələr endirmişlər.

Erməni cəlladları xalq arasında böyük nüfuzu olan, döyüşlərdə şücaət göstərən adamları sıradan çıxartmağa çalışırdı. Ona görə də Hüsənli igidləri həmişə onların diqqət mərkəzində idi. Ermənilər bu nəslin kökünü kəsmək üçün planlar cızırdı.

Köhnə Başkənddə (bu kənd 1992-ci ildə Azərbaycan ordusu tərəfindən dağıdıldı) yerləşən daşnak qruplaşması Arzumanın başçılığı ilə gecə vaxtı Toxlucaya dolub, Hüsənli tay-

fasının evlərini mühasirəyə aldılar. Tayfanın ayrı-ayrılıqda hər bir evi silahlı əsgərlər tərəfindən nəzarətə götürüldü. Artıq Məşədi Məmməd, Topal Oruc, Tapdıq, Aslan, Həmid kimi cəsur insanlar qızmış aslan kimi çırpınır, bayıra çıxmağa məqam axtarırdılar. Cığal Həsənin ermənilərə hücumu başlayan kimi Topal Oruc və digər Hüsənli cavanları evdən çölə atıldılar. İlk növbədə Arzuman öldürüldü. Bundan sonra Arzumanın dəstəsi qaçıb dağlara-daşlara dağıldı. Düşməni təqib edən Hüsənlilər və toxlucalı igidlər xeyli sayda daşnak əsgərini itkiyə məruz qoydular.

Hüsənli igidləri atlanıb hansı cəbhəyə yola düşsəydilər ordan zəfərlə geri dönürdülər. Bütün bu qalibiyyətlər Orucun başçılığı ilə həyata keçirilirdi. Şair Kazımın "Oruc" adlı müxəmməsi əllərdə gəzirdi.

## ORUC

*Mərd yaranıb mərd atadan,*
*Dolanır mərdana Oruc!*
*Canını qurban eyləyib,*
*Anlayıb-qanana Oruc!*
*Ərz eyləyib yön çevirməz,*
*Can deməz nadana Oruc!*
*Millətinin arxasıdı.*
*Səs salıb hər yana Oruc!*
*Qapısı qonağa açıq,*
*Qonağı Qazaxdan gəlib.*
*Həm Şəmkirdən, həm Gəncədən,*
*Yaxından, uzaqdan gəlib.*
*Bu mərifət, bu səxavət,*



*Bu halal ocaqdan gəlib.*
*Qan ağladıb, divan tutub*
*Yağıya, düşmana Oruc!*

*Yanında nər igidləri,*
*Başda Məşəd Məmməd durur.*
*Ağır yığıncaq keçirir,*
*Ləngərli məclislər qurur.*
*Tapdıq ilə Həmid atıb*
*Yağını gözündən vurur.*
*Arxalanır dar ayaqda*
*Temirə, Asdana Oruc!*

*"Qoturbulağ"ın malını*
*Yığıb qabağına qatıb.*
*Arzumanın əsgərini*
*Qomarıb qol-qola çatıb.*
*Beşaçılan od ələyib,*
*Muxtarın başına atıb.*
*Qırıb daşnakın qoşunun*
*Bələyib al-qana Oruc!*

*Gözlərimlə gördüyümü,*
*Söyləyirəm şahid kimi.*
*Heç igid görməmişəm,*
*Hüsənnili igid kimi.*
*Bir ordunun timsalıdı,*
*Bəy qardaşı Seyid kimi.*
*Qırıb qolunda qandalı,*
*Od vurub zindana Oruc!*
*Toxluca deyilən bu el,*

*Mərd kişilər oylağıdı.*
*Dost-tanışın səngər yeri.*
*İgidlərin ocağıdı.*
*Şair Kazım desin eşit,*
*Düşmanlara gözdağıdı.*
*Nikolaydan hökm olunur,*
*Baş əymir fərmana Oruc!*

1918-ci ilin payızında və 1919-cu ilin yazında Göyçədə gedən erməni-türk müharibəsi zamanı Topal Orucun dəstəsi, yəni Hüsənli igidlər bu silahlı hadisənin ertəsi günü digər toxlucalılar və qonşu kəndlərin igidləri ilə birlikdə erməni ordusuna qarşı mərdliklə vuruşdular. Xüsusilə "Təkağac" döyüşlərində böyük şücaət göstərdilər.

Bütün bunlar erməni daşnak hökuməti tərəfindən qeydə alınırdı. 1920-ci ilin noyabrında Ermənistanda Sovet hakimiyyəti qurularkən Göyçənin Ermənistana verilməsi ortaya çıxdı. Bu vaxt Hüsənlilər barışmaz mövqe nümayiş etdirərək Göyçənin Azərbaycanın tərkibində qalması tələbini təkidlə tələb etdilər. Bundan sonra bolşevik qıyafəli erməni rəhbərliyi Hüsənli tayfasını yer üzündən silmək kimi bir plan hazırladı.

İki il erməni-rus silahlı birləşmələrinə qarşı davamlı mübarizə aparan Hüsənli igidləri 1922-ci ilin payızında Tovuzdan toydan qayıdarkən Çənmərək yaxınlığındakı "Şah meydanı"nda mühasirəyə düşdülər.

Üç gün gecə-gündüz vuruşan igidlər silah-sursat qurtarandan sonra mərdliklə həlak oldular. Dərəçiçəkli Qaçaq Rüstəm və oğlu Cəmil də onların arasında idi.

Həmin gün Toxluca camaatı Topal Oruc başda olmaqla on



dörd nəfər igidini ağır matəm içində son mənzilə yola saldı. Erməni faşizmi cəsur "Hüsənli" tayfasınının sonuna çıxdı. Lakin insanlar tərəfindən gizlədilmiş üç gənc salamat qaldı: Ağəli, Qənbər və Aydaş. Bu günkü "Hüsənli" tayfasının ocağını şənləndirən, tüstüsünü çıxaran insanlar bü üç nəfərin törəmələridir. Erməni hökuməti 1937-ci ildə həmin üç nəfərdən birini, Ağəlini də represiya qurbanına çevirdi.

Erməni xəyanətinə, erməni qəddarlığına, vəhşiliyinə baxmayaraq kökünü kəsmək istədiyi tayfanın pöhrələri yenə də puçurladı, böyüdü, köklü bir ağacın bu- daqlarına çevrildi.

Tayfanın salamat qalan nümayəndələrindən biri Qənbər kişinin yurdunu Hacan bəy şenləndirdi. O Hacan ki, təmsil etdiyi tayfanın adını-sanını, şöhrətini yaşatdı, yüksəklərə qaldırdı, hamının barmaqla göstərdiyi böyük şəxsiyyət kimi yetişdi.



*Tayfanın nümayəndələri:*
*Solda: Qəmər xanım, Səlidar müəllim,*
*Məqsudə xanım və Siyavuş müəllim.*

Hacan Qənbər oğlunun ləyaqəti, müdrikliyi, uca şəxsiyyəti onun haqqında bir kitabın yazılmasını ortaya qoydu.

Məhz bu kitabda bütün söhbətlər Hacan dünyası ilə tanışlıqdan keçəcək. "Hüsənli" tayfası ilə bağlı yazımı başa çatdırarkən şair Kazımın "Hüsənli" adlı müxəmməsini oxucuların diqqətinə təqdim edirəm.

*Elimin dar günündə,*
*Haraya gəldi Hüsənli.*
*Qoşuna vay-veylə saldı,*
*Qılıncın çaldı Hüsənli.*
*Elin-obanın qədrini*
*Həmişə bildi Hüsənli.*
*Oruc kimi sərkərdə yox,*
*Rüstəmi zaldı Hüsənli.*
*Arzumanın qoşununu*
*Dağıdıb böldü Hüsənli.*

*Söz açım Tapdıqdan deyim,*
*Ər oğlu ərdi bu igid.*
*Məhəmmədəli, Məhərrəm*
*Deyərdim nərdi bu igid.*
*Temir qızmış pələng kimi*
*Döyüşdə birdi bu igid.*
*Daşnakları məhv elədi,*
*Yüzünü qırdı bu igid.*
*Bir qisasın əvəzinə*
*Yüz qisas aldı Hüsənli.*
*Dara düşən müsəlmanın*
*Harayına Aslan çatar.*
*Dağı-daşı qarışdırar*
*Qoparar bir tufan, çatar.*



*Mehvalı, Qəhralı qalxar,*
*Elər dərdə dərman, çatar.*
*Əliş, Həmid bir havadar*
*Neçə belə cavan çatar.*
*Bir də gördün Koroğlu tək*
*Düşməni sildi Hüsənli.*

*Haqqı haqqa verməyən*
*Palıd biləkli oğullar.*
*Nikolaya baş əyməyən*
*Elə gərəkli oğullar.*
*Kazım deyər qeyzə gələn*
*Aslan ürəkli oğullar.*
*Yağı düşmənin önündə*
*Toplu-tüfəngli oğullar.*
*Öz canını qurban verib,*
*Dünyada qaldı Hüsənli.*

## YAXŞILAR-YAXŞILIQLAR

Hər insan bir ömür yaşayır. Hər insan öz ömrünü yaşayır. Mənə elə gəlir ki, insan dünyaya imtahan vermək üçün gəlir. Bu imtahan onun nələrdən keçdiyini, kimliyini, nəçiliyini təsdiqləyir. Həyatda hansı mövqe tutduğunu, hansı xeyir və şər əməllərə imza atdığını ortaya qoyur. Heç kəsin əməli gizli qalmır.Gec-tez üzə çıxır, aydınlaşır, elin qiyməti ilə dəyərləndirilir. Atalar deyib: "el gözü tərəzidir".

Dünyaya gələn yaxşı insanlar öz xeyirxahlığı, namus və qeyrəti ilə insanların qəlbində öz heykəlini qurur, hörmət-izzət, məhəbbət sahibi olur. Dünyadan köçəndə isə hamını yandırıb-yaxır, nəhayət rəhmət qazanır.

Söhbət yaxşı insanlardan gedir. Yaxşılar tanrının ən sevimli, istəkli, nurdan yaranmış bəndələridir. Mayası halallıqdan, saflıqdan, paklıqdan tutulmuş hər bəşər övladı öz zövqü-səfasını xalqına, millətinə, vətəninə qulluq etməkdə görür. Yaxşılar vəzifəyə gələndə də hamıya əl tutmaq, yön olmaq istəyir. Qohuma, qardaşa, dosta, tanışa, nəhayət bütün insanlara mərhəmət göstərmək, onları sevmək kamil insanların müqəddəsliyi, böyüklüyüdür. Pula, vara-dövlətə, şan-şöhrətə görə insanları məzlum etmək, onların haqqını tapdalamaq namərdlərin, tamahkarların, şeytani əməllərə uyanların, namərd və nadan adamların peşəsidir.

***HAŞİYƏ:***

*Deyirlər uzaq keçmişlərdə bir ölkənin adil, mərhəmətli*



*hökmüdarı uzunsürən xəstəlikdən sonra dünyasını dəyişir. Padişahın qırxı çıxandan sonra taxt-taca sahib olmaq üçün yeni padişah seçməyin vaxtı çatır. Elan verib camaatı böyük bir meydana toplayırlar. Yenə də başlayırlar quş uçurmağa. Quşu buraxırlar, o iki dəfə gedib bir ağacın başına qonur. Camaat bu işə heyrət edir. Axı, quş həmişə istədiyi bir adamın çiyninə qonar, onu da padişah seçərdilər. Hamının təəccübləndiyini görən bir ixtiyar irəli yeriyib dedi:*

*- Ey camaat, bizim uçurduğumuz quş kimin çiyninə qonasıdısa onun kimliyini yaxşı tanıyır. Ona görə bir başa həmin adamın çiyninə qonmayıb, ağaca düşdü. Tale hökmü olsa da öz seçiminə etirazını bildirdi və gələcəkdə onu qınamamağı bizə çatdırdı.*

*Bundan sonra quşu yenə uçurdular. Quş meydanın üstündə dövrə vurub, əhali toplaşan yerdən aralanıb, xeyli aralıda bir adamın çiyninə qondu. Çox keçmədi ki, həmin adam vəzir, vəkil, mürid, mürşid dayanan taxtın qabağına gətirildi. Bu 35-38 yaşlarında bir cavan idi. Quşu onun çiynindən götürüb adını soruşdular. Adı Məlik idi. Vəzir onu dayandıqları kürsüyə dəvət edib dedi:*

*- Ey camaat, ilahinin vergisi, taleyin qisməti ilə bu gündən etibarən Məlik padişah bizim başımızın tacı, millətimizin sahibi olacaq. İndi sözü ona verək, qoy özü haqda bir neçə söz desin.*

*Məlik bir addım qabağa durub dedi:*

*- Qardaşlar, sizin uçurduğunuz quş mənim çiynimə qonub. Mən bu qismətə görə çox şadam, sevinirəm. Ancaq məndən padişah olmaz. Çünki mən sizə zülm edərəm, ədalətli ola bilmərəm, mərhəmətsizlik edərəm. Buna görə bu*

*seçimdən imtina eləyirəm.*

*Yenə həmin ixtiyar irəli yeriyib buyurdu:*

*- Siz artıq padişahsınız. Quş sizin çiyninizə düşüb. Bizim bu qayda-qanunu pozmaq haqqımız yoxdur.*

*Məlik həmin gündən padişah oldu. Bir qədərdən sonra ölkədə dərəbəylik hökm sürməyə başladı. Məmurlar vergi üstə camaatı sıxıb suyunu çıxarır, rüşvət alır, heç kəsin cinayətinə baxmır, varlılar yoxsulu tapdayır, aclıq-səfalət baş alıb gedir, dinib-danışanlar zindana atılır. Məlik şahın kefdən, eyş-işrətdən başı açılmır.*

*Haqsızlıqdan, zülmdən cana doymuş camaaat toplaşıb padişaha şikayətə gəlir. Padişah məsələni öyrənib onlara deyir:*

*- Əvvəla görünür ulu Tanrı məni sizə zülm etmək üçün göndərib. Yəqin ki, siz Allahın yolundan azıbsınız.*

*- Mən sizə vaxtında dedim ki, məndən sizə padişah olmaz. Soruşmadınız ki, niyə olmur? İndi niyəsini deyim.*

*Bu iş məndən asılı deyil. Çünki mənim qanımda dolaşan bir xəyanət var. O da atamdan gəlir. Mənim atam odunçu idi. Meşəyə odun düzəltməyə gedənlər quru ağacları tapar, doğrayıb odun düzəldərdilər. Atam isə yaşıl yarpaqlı ağacları baltaya verib gövdəsini, budaqlarını doğrayıb tökər, yarpaqlarına puçurlarına rəhmi gəlməzdi. İndi siz deyin canlı ağaclara rəhm etməyən, balta vuran bir kişinin övladı insanlara rəhm edə bilərmi? Qanımda olan xarablıq imkan vermir ki, mən özümü tarazlayım. Ona görə də mən həmin padişahlıqdan gedirəm. İstəmirəm xalq məndən zülm çəksin. Sabahdan quş uçurub təzə padişah seçməyinizə razılıq verirəm.*



Bu hekayətə ona görə müraciət etdim ki, yaxşı adamlar həmişə yaxşı insanlardan törəyirlər.

Yaxşı bir nəsildən, qeyrətli, namuslu, mərd insanlardan törəyənlər də ləyaqətli və mərd olurlar. Hacan Qəmbər oğlu Orucov kimi.

"Ot kökü üstə bitər" - deyiblər. Hacan da Hüsənlilər kimi mərd-mübariz, qəhrəman, əyilməz, vüqarlı, ilqarlı bir tayfanın nümayəndəsi olaraq şərəfli ömründə öz böyüklüyünü, qüdrətini təsdiq etdi.



## QƏNBƏR ORUC OĞLU



*Qənbər kişi.*

***Kor olsun o gözləri ki, bir adam gedərkən onun haraya və nə üçün getdiyini anlamır...***

***Qənbər kişinin dediklərindən***

Hüsənli tayfasının dəyərli nümayəndələrindən biri olan Qənbər Oruc oğlu 1908-ci ildə Göyçə mahalının Toxluca kəndində məşhur xalq qəhrəmanı Topal Orucun ailəsində dünyaya göz açmışdır. O, orta məktəbdə dörd il oxumuşdur.

Qənbər Qostan Məşədi Məmməd qızı ilə ailə həyatı qurmuş və gözəl bir ailə həyatı yaşamışdır. Qostan Məşədi Məmməd qızı əliaçıq, geniş ürəkli, nəzakətli, qohumcanlı bir xanım kimi nəsilin ağbirçəyi olmuşdur. Onların 4 övladı (1 oğlan, 3 qız) olmuşdur

Rusiya- Almaniya müharibəsi (1941-ci il) başlayanda cəbhəyə yola düşmüş, 416 saylı Taqanroq diviziyasında döyüşçü, 408 saylı Taqanroq diviziyasında isə atıcı (snayper) kimi döyüşmüşdür. 416-cı Taqanroq diviziyasının komandiri Tağı Tağıyevin ruslar tərəfindən güllələnməsinə bir neçə ay olsa da imkan verməmişdir. Göstərdiyi şücaətlərə görə orden və medallar almışdır. Mir Cəfər Bağırovun şəxsi zəmanəti ilə partiya sıralarına qəbul edilmişdir.

1944-cü ildə yaralanmış və ordu sıralarından tərxis



olunmuşdur. Kəndə qayıtdıqdan sonra Toxlucada anbardar işləmişdir ki, bu da ona hər an həyatı bahasına başa gələ biləcəyinə baxmayaraq, çox ailələri müharibənin aclıq ölümündən xilas etməsinə kömək etmişdir.

Soykökündən gələn müsbət dəyərləri özündə yaşadan Qənbər Oruc oğlu camaat arasında mərd, səxavətli, el qəhri çəkən bir adam kimi, Qənbər kişi kimi tanınmışdır.

Qənbər Oruc oğlu Süleymanov (Hüsənli) 1988-ci ilin aprel ayının 5-də Toxluca kəndində dünyasını dəyişmişdir.



*Sağdan: Hacanın anası Qostan, dayısı Aydaş, dayısı arvadı Leyli və dayısı oğlu Səməndər*

## HACAN ORUCOV- HÜSƏNLİ



*Hacan Orucov*

Məşhur Hüsənli tayfasının adını-sanını ləyaqətlə davam etdirən Hacan Orucov 1938-ci ildə Göyçə mahalının Krasnoselo rayonunun (Çənmərək) Toxluca kəndində anadan olub. 1944-1945-ci tədris ilində Toxluca kənd orta məktəbinin birinci sinfinə getmiş, 1955-ci ildə orta təhsilini başa vurmuşdur. 1956-cı ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumuna daxil olub, 1959-cu ildə oranı bitirmişdir. Elə həmin ildən Toxluca sovxozunda heyvandarlıq üzrə briqadir işləmişdir.

1959-cu ildə Stavropolda Ümumittifaq Elmi Tədqiqat Kənd Təsərrüfatı Akademiyasında yunçu zootexnik ixtisasına yiyələnmişdir.

Hacan Orucov 1965-ci ildə Kirovabad (Gəncə) Kənd Təsərrüfatı İnstitutunun zootexnik şöbəsinə daxil olub, 1970-ci ildə ali təhsil diplomu almışdır. 1971-ci ildən 1975-ci ilə qədər əvvəlcə Toxluca sovxozunda baş zootexnik, sonra isə Yanıqpəyə kolxozunda sədr işləmişdir.

İşgüzarlığı, yüksək təşkilatçılıq qabiliyyəti, millətsevərliyi ilə seçilən Hacan 1978-ci ildə irəli çəkilərək Toxluca kimi böyük bir təsərrüfatın direktoru təyin edilmişdir. O, bu vəzifədə 1978-ci ildən 1983-cü ilə qədər çalışmışdır. Rayon Aqrar Sanaye birliyinin böyük zootexniki olmuşdur. 1988-ci



ilin noyabr ayından etibarən öz ata-baba yurdundan zorən çıxarılmış və Azərbaycana gəlmişdir.

Bakı şəhərində məskunlaşan Hacan Orucov 1990-cı ilin mart ayından Azərbaycan Qaçqınlar Cəmiyyətinin Xətai rayon dayaq məntəqəsinin sədr müavini, 1992-ci ilin fevralın-




dan isə AQC-nin ərizə və şikayətlər şöbəsinə təlimatçı təyin edilib. Həmin ilin sentyabr ayında Suraxanı rayon mənzil kommunal təsərrüfatı birliyinin özəlləşdirmə şöbəsinin rəisi vəzivəfəsinə keçib.

1994-cü ilin noyabrında isə Mənzil Təsərrüfat idarəsində I dərəcəli mühəndis vəzifəsində işləmişdir.

Hacan Orucov ömrünün əvvəlindən sonuna kimi işlədiyi hər hansı bir vəzifədə həmişə xalqına xidmət nümunəsi göstərmişdir.

**Elin-obanın sevimli oğlu 1995-ci ildə yanvar ayının 5-də qəflətən vəfat etmişdir.**

## MİNAYƏ AĞƏLİ QIZI ORUCOVA



Hacan Orucovun sevimli həyat yoldaşı Minayə xanım 1944-cü ildə Toxlucada Ağəli Əsədovun və Bahar Xəlil qızının ailəsində dünyaya göz açıb. Doğma kəndi Toxlucada orta məktəbi bitirmişdir. Minayə xanımın doğulub, tərbiyə aldığı ailə görüb-götürmüş bir ziyalı ailəsi olub. Əsl-nəcabətli bir ailədə böyüyən Minayə xanımın məhz belə bir ailədə tərbiyə alması həyatı boyu onun gərəyi olmuşdur. O, Hacan Orucovun daim qonaqlı-qaralı, qohum-əqrabalı olan, get-gəliş kəsilməyən evində həyat yoldaşının istəyincə hərəkət etməyə çalışmış və ona nail olmuşdur.



Minayə xanım ağıllı və bacarıqlı bir qadın kimi uşaqların tərbiyəsi ilə ciddi məşğul olmuşdur. O, Hacanla birlikdə 2 oğul və 5 qız böyütmüşdür. Bu uşaqlar anadan aldıqları tərbiyə sayəsində həmişə atalarının yolunu gözlər, o işdən dönənə kimi yatmaz, sevinclə onu qarşılardılar. Minayə xanım özü də həmişə sevimli həyat yoldaşının yolunu gözlər, o gələndən sonra çayını-çörəyini verər, sonra səhər üçün paltarını ütülər, hazır qoyardı.

Minayə xanım uşaqların təhsili ilə də ciddi məşğul olmuşdur. Uşaqların hamısı ali və orta ixtisas məktəbini bitirmişdir. Onlar ailəlidir.



*Soldan: Həqiqət xanım, Minayə xanım, Pərvin xanım, Məryam xanım. Arxada ayaq üstə Hacan Orucov*

## ÖVLADLARI

### ORUC ORUCOV



*Oruc və Minayə*

Oruc Hacan oğlu Orucov 1964-cü ildə Toxlucada anadan olub. 1982-ci ildə doğma kənddə orta məktəbi, 1987-ci ildə Gəncə Kənd Təsərrüfatı Akademiyasını bitirib (mühəndis-mexanik).

**1988-ci ildə** ailəsi ilə Bakıya köçüb, 1991-ci ilədək 101 saylı Texniki peşə məktəbində usta və ixtisası üzrə müəllim işləyib.

Bir il sonra Almaniya dövlətinin təşkil etdiyi "Bazar iqtisadiyyatının təşkili" kursunu bitirib.

**1992-1995-ci illərdə** bankda valyuta şöbəsinin müdiri və baş mühasib, **1995-1997-ci illərdə** isə İNAM THLİSB-nin direktoru vəzifəsində işləyib.

**1997-1998-ci illərdə** "Azəravtoyol" Dövlət Şirkətində nəzarətçi, 1998-2001-ci illərdə "3X" şirkətinin yaradıcısı və direktoru vəzivəsində çalışmışdır.



### MAİS ORUCOV



Mais Hacan oğlu Orucov 1970-ci ildə Toxluca kəndində anadan olub. 1988-ci ildə orta məktəbi bitirib və həmin ilin payızında erməni xəyanəti nəticəsində ailəsi ilə Bakıya köçüb. Sovet ordusunda xidmət edib, 1990-cı ildə tərxis olunub. Həmin ildən 1993-cü ilə kimi Bakı Məişət Kondisonerləri zavodunda çilingər işləyib.

**1993-cü ildən** Daxili İşlər Nazirliyində polis nəfəri işləyir. 2006-ci ildə Polis Akademiyasını bitirmişdir.

## RƏNA ORUCOVA

Rəna Hacan qizi Məmmədova (Orucova) 1961-ci il iyun ayinin 2-də Ermənistan SSR Krasnoselo rayonunun Toxluca kəndində anadan olmuşdur. 1968-1978-ci illərdə Toxluca kənd orta məktəbində oxumuşdur. 2003-2006-ci illərdə Azərbaycan Beynəlxalq kollecində təhsil almışdir. Rəna 1978-ci ildə Xaləddin Hüseyn oğlu Məmmədovla ailə qurub.

Xaləddin Məmmədov Bakı şəhərinin Nizami rayonunda orta məktəb müəllimidir. Bir qızı, bir oğlu var.

**Qızı**- Elmira Xaləddin qızı Məmmədova. Ailəlidir, iki övladı var.

**Oğlu**- Elmir Xaləddin oğlu Məmmədov. MTK şirkətinin tekstil şöbəsində baş mexanik işləyir.



*Hacan və Həsən*



## ALMAZ ORUCOVA

Almaz Hacan qızı İsmayılova (Orucova) 1962-ci ildə Toxluca kəndində anadan olub. 1979-cu ildə Toxluca məktəbində orta təhsil almışdır. 1987-1990-ci illərdə Bakı yüngül sənaye texnikumunda oxumuşdur. 1998-ci ildən bu günə kimi "Kəngərli" müəssisəsində mühasib vəzifəsində işləyir.

1981-ci ilin oktyabr ayından ailəlidir, 2 oğlu var.

**Həyat yoldaşı**- İsmayılov Fazil Ələsgər oğlu "İnkor MMC"-də baş mühasib vəzifəsində işləyir.



*Hacan və uşaq*

## SOLMAZ ORUCOVA

Solmaz Hacan qizi Ağamaliyeva (Orucova) 1964-cu il yanvar ayinin 1-də Ermənistan SSR Krasnoselo rayonunun Toxluca kəndində anadan olub. 1971-1981- ci illərdə Toxluca kənd orta məktəbində orta təhsil almişdir. 2004-cu ildən Azərbaycan Beynəlxalq kollecinin tələbəsidir.

Solmaz 1984-cu ildən Oqtay Nəcəf oğlu Ağamaliyevlə ailə qurmuşdur. İki oğlu var.

**Oğlu** - Ağamaliyev Ülvi Oqtay oğlu hərbi xidmətdən qayitmişdir.

**Oğlu** - Ağamaliyev Elnur Oqtay oğlu hal-hazirda hərbi-hissədə qulluq edir.



*Hacan və Özbək*



## ARZU ORUCOVA

Arzu Hacan qizi Vəliyeva (Orucova) 1967-ci ildə Krasnoselo payonunun Toxluca kəndində anadan olub. 1985-ci ildə Toxluca kənd orta məktəbini bitirmişdir. 1996- 2001-ci illərdə Azərbaycan Pedaqoji Universitetində təhsil almisdir. 1997-ci ildən ailəlidir. 1 qizi , 1 oğlu var.

Həyat yoldaşi Vəliyev Xudayar Mehtəbər oğlu ticarət işçisidir.

**Qizi** -Vəliyeva Səbinə Xudayar qizi Səttar Bəhlulzadə adina ingilis təmayüllü gimnaziyanin 1-ci sinfində oxuyur.

**Oğlu**- Vəliyev Cavid Xudayar oğlu Səttar Bəhlulzadə adina inqilis təmayüllü gimnaziyanin 1-ci sinfində oxuyur.



*Hacan ailəsi ilə*

# ELZA ORUCOVA

Elza Hacan qızı Məhərrəmova (Orucova) 1972-ci ilin yanvar ayının 20-də Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kəndində anadan olub. 1979-1989-cu illərdə Toxluca kənd orta məktəbində orta təhsil almışdır. 1990-1994-cü illərdə, Bakı baza energetika texnikumunda oxumuşdur. 2001-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil almışdır.

**1994-cü ildə** ailə həyatı qurmuşdur.

**Həyat yoldaşı** -Məhərrəmli Əbülhəsən Məhəmmədəli oğlu. "Kaskad" şirkətində baş mühasib vəzifəsində işləyir

1 oğlu, 1 qızı var.



*Minayə xanım*



# AĞƏLİ ABDULƏLİ OĞLU ƏSƏDOV



Qərbi Azərbaycanda uzun müddət müxtəlif vəzifələrdə işləyən və tanınmış şəxsiyyətlərdən biri olan Ağəli Əsədov Hacan Orucovun qaynatasıdır.

Ağəli Əsədov 1915-ci ildə Göyçə mahalının böyük kəndlərindən biri olan Toxlucada dünyaya göz açmışdır. Həmin dövrdə erməni məkri güclənmişdir. Qərbi Azərbaycandan türkləri sıxışdırıb çıxarmaq üçün hər cür fitnəkarlığa əl atılırdılar. Göyçənin igid kişiləri, Toxlucalı Cığal Həsən, Topal Oruc bu günlərdə düşmənə qarşı mərdliklə mübarizə aparırdılar.

**1934-cü ildə** orta məktəbi bitirən Ağəli Əsədov 1936-cı ildə Toxlucada mühasib kimi əmək fəaliyyətinə başlayıb. 1941-ci ildə Almaniya ilə Rusiya arasında gedən müharibəyə yola düşüb, 1942-ci ildə cəbhədə yaralanıb, geri qayıdıb 1945-ci ildə partiya məktəbini bitirib. Ağəli Əsədov 1946-1947-ci ildə Krasnoselo rayon ticarət şöbəsinin sədri vəzifəsində çalışıb. Onun bacarıq və qabiliyyəti tezliklə rəhbər təşkilatların diqqətini cəlb edib. O, 1948-ci ildə Krasnoselo Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilib. 1951-ci ilə kimi bu vəzifədə çalışan A.Əsədov Rayon meyvə-tərəvəz birliyinin sədri vəzifəsinə təyin edilir. Bundan bir qədər sonra isə həmin rayonunun ən böyük təsərrüfatlarından

olan Gölkənd təsərrüfatına sədr seçilir. Həmin dövrdə Gölkənd camaatını oradan köçürmək qərarına gəlirlər. O, camaatı başa salırlar ki, bu yeni bir erməni məkri və hiyləsidir, buna razılıq vermək olmaz. Eyni zamanda rayonda azərbaycanlı kəndlərinin adının dəyişdirilməsi prosesində də Ağəli Əsədov ermənilərlə üz-üzə durmalı olur. Bütün bunlara görə onu işdən çıxarırlar və o, bir müddət işsiz qalır.



*A.Əsədovun həyat yoldaşı Bahar xanım*

1953-cü ildə o, yenidən işlə təmin olunur və 1956-cı ilə kimi Rayon istehlak birliyinin sədri vəzifəsində çalışmışdır.

Ağəli Əsədov 1959-cu ildə rayonda ilk və yeganə sovxoz olan Toxluca sovxozuna direktor göndərilir. O, 1967-ci ilə kimi bu vəzifədə çalışmışdır.

**1967-ci ildə** yenidən Gölkənd kəndinə kolxoz sədri göndərilən Ağəli Əsədov fərdi təqaüdə çıxana kimi -yəni 1975-ci ilə kimi bu vəzifədə işləmişdir. Təqaüdə çıxandan sonra Toxluca kənd sovetinə sədr seçilmişdir.

**1988-ci ildə** ermənilərin işğalından sonra doğma kəndi Toxlucadan Bakı şəhərinə köçmək məcburiyyətində qalmışdır. A.Əsədov 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.



## BİZ HƏMİŞƏ GÖRÜŞƏRDİK

Mən "Dostluq" rayon qəzetində işləyəndə Hacan müəllimlə tez-tez görüşürdüm. Xüsusilə, Hacan rayon partiya komitəsinə, kənd təsərrüfatı idarəsinə gələndə redaksiyaya baş çəkməyi unutmurdu.

Hacan Orucov Krasnoselo rayonunun tanınmış adamları arasında xüsusi hörmətə malik şəxs idi. O, köhnə kişilərə məxsus ağır təbiətli, qətiyyətli, incə qəlbli, gülərüz bir adam idi. Heç kəsin qəlbinə dəymək istəməzdi. Bununla yanaşı işində çox tələbkar olduğuna görə qarşısına qoyduğu vəzifəni yerinə yetirməyincə özünü narahat hiss etdiyi aydın hiss olunurdu. Hacan həm də çox cəsarətli, söz sendirməyən, xoşagəlməz hallarla barışmayan, əyriliyi, yalançılığı, namərdliyi qamçılayan bir türk oğlu idi.

Hacan müəllim çox gözəl bilirdi ki, onun babaları ermənilərə qarşı mədliklə vuruşub, Göyçə mahalının Ermənistan SSR-in tərkibinə verilməsinə qarşı qətiyyətlə mübarizəyə qoşulmuşlar. Bütün bunlara görə Sovet hökumətinin düşmənləri adı altında Ermənistan hökuməti Hüsənli tayfasını məhv etdi.

Krasnoselo rayonunda yaşayan ermənilər bu tayfa haqda hər şeyi bilirdilər. Eyni zamanda onların arasında Hacana qarşı qeyri-sağlam münasibət yaşanırdı. Əlalxüsus, rəhbərlikdə olan ermənilər onun qabağa çəkilməsinə maneələr yaradırdılar. Bir dəfə Hacan, rayon kənd təsərrüfatı işçiləri həmkarlar komitəsinin sədri Məmməd Əliyev, Gölkənd sovxozunun direktoru Əziz Quliyev və mən Rayon İcraiyyə komitəsinin binası qarşısında ayaqüstü söhbət edirdik.

Rayon Kənd Təsərrüfatı idarəsinin rəisi Karlen Boryan

binadan çıxıb bizə yaxınlaşdı (O, 26 Bakı Komissarlarından olan A.Boryanın qardaşanın nəvəsi idi) və hamımızla özünəməxsus şuxluqla, daha doğrusu erməni hiyləgərliyi ilə əl tutub görüşdü. Hamının kefini soruşdu, Hacanı daha çox dilə tutdu. Bir azdan Hacan sağollaşıb işi olduğunu dedi və ayrılıb getdi.

Boryan Hacanın şux qamətini göz ucu süzə-süzə dedi:

- Hacan gözəl oğlandı. Boyu-buxunu, yaraşığı, ağılı-kamalı elə bil Allah könlünün xoş saatında verib ona. Ancaq ona əngəl olan böyük bir məsələ var. Babalarının dinc ermənilərə qarşı atdıqları addım heç xoşa gələn iş deyil.

Dildən yüyrək olan Məmməd Əliyev dərhal öz rəisinin cavabını verdi:

- Yoldaş Boryan, onun babaları çox qoçaq adamlar olub. Ancaq dinc erməni ilə yox, daşnaklarla vuruşublar. Bizi babalarımızla ölçmək düz deyil. O zamana çoxdan qurtarıb. O bu rayonda olan gözəl oğulların birincisidir.

Boryan gülə-gülə:

- Mamed dərhal daşnak məsələsini ortaya atdı. Mən eləbelə söz idi dedim. Doğrudan da Hacanı keçmişi ilə ölçmək düz deyil.

Aradan bir xeyli keçmişdi. Bir gün Hacan müəllim mənə dedi ki, məni Yanıqpəyə kolxozuna sədr göndərmək istəyirlər. Bu işdən sənin ağlın nə kəsir? Mən bir qədər susub dedim:

- Göndərirlər getmək lazımdır.

- Doğrusu təsərrüfat heç də yaxşı vəziyyətdə deyil.

- Mənə elə gəlir ki, Toxluca təsərrüfatında zootexnik işləmək Yanıqpəyə təsərrüfatının sədri olmaqdan heç də az məsuliyyət daşımır. Yəqin ki, sən Yanıqpəyə təsərrüfatını



qısa vaxtda qabaqcıllar sırasına çıxara biləcəksən. İrəli çəkilirsənsə daha da cəsarətli olmaq lazımdır.

Hacan özünəməxsus tərzdə azca qımışıb ağır-ağır dilləndi.

- Sən elə bilirsən mən cəsarətsizlik göstərirəm? Mən heç bir çətinlikdən qorxmuram və işimin öhdəsindən gəlməyi bacarıram.

- Mən də bilirəm ki, bacarırsan, -deyə ona cavab verdim.

Mən bilirdim ki, Hacan Yanıqpəyə təsərrüfatına rəhbərlik edəndən sonra sabah daha böyük təsərrüfatlarda rəhbər vəzifəyə irəli çəkiləcəkdir.

Artıq Hacan müəllim Yanıqpəyə kolxozunun sədri kimi fəaliyyət göstərirdi. İstər rayon rəhbərliyi olsun, istərsə də kənd camaatı, hamı onun işindən razılıq edirdi. Doğrudan da kolxozun təsərrüfat həyatında bir irəliləyiş diqqəti cəlb edirdi.

Ermənistan hökuməti qədim Azərbaycan-türk toponimlərini bir ucdan sıradan çıxarır, erməni yer-yurd adları ilə əvəz eləyirdi. Bu siyasət Ermənistanda çox ciddi qoyulmuşdu. Çünki başdan-başa türk yer-yurd adlarından ibarət olan indiki Ermənistanı erməni torpağı kimi təqdim eləmək üçün türk toponimlərini, yer-yurd adlarını tarixdən silmək lazım idi. Belə bir qasırğa Yanıqpəyə kəndinin də başı üstə fırlanmaqda idi. Bu da Hacan Orucovun bu kəndə rəhbərliyi dövrünə təsadüf etmişdi.

Ermənistan hökuməti məsələ qaldırmışdı ki, indi Sovet hakimiyyəti dövründə "Yanıqpəyə" sözü bizi qane etmir. Mədəni bir adla əvəz eləmək lazımdır. Yeni qoyulacaq adı da açıqlamışdılar. Yanıqpəyəni əvəz eləyəcək bu ad "Xancyan" olmalı idi. Yanıqpəyə camaatı bir nəfər kimi

ayağa qalxmışdı. Bu münasibətlə kənddə iclas keçirməyə gedən rayon rəhbərliyini biabır eləyib geri qaytarırdılar. Camaat ermənilərə deyirdi ki, siz kəndin qədim adını dəyişdirməklə şovinist millətçilik siyasəti yeridirsiniz. Siz türk toponimlərini silmək üçün bu kələklərə əl atırsınız.

Rayon rəhbərliyi bu məsələ ilə əlaqədar Hacan Orucova çox təzyiq göstərirdi. Lakin o, camaatın "Xancyan" adından daha da qəzəbləndiyini deyirdi. Bəzən də "mən orada qərib adamam, istəyirsiniz işdən çıxıb gedim. Camaat kəndin adını dəyişməyə heç cür razı deyil, deyirdi. Ancaq kəndə qayıdanda ağsaqqalları çağırıb "sözünüzün üstündə bərk durun" deyə onlara ürək-dirək verirdi.

Ermənistan hökuməti "Xancyan" adını təsdiqləyə bilmədikdən, uzun çək-çevirdən sonra kəndə yeni bir ad verilməsini xahiş etdi. Əsaslandırırdılar ki, "Yanıq və pəyə sözləri sosializm cəmiyyətinə xas olan məziyyətlərdən uzaqdır". Bundan sonra camaat "Meşəkənd" adının rəsmiləşdirilməsinə razılıq verdi.

Ermənistan hökuməti yenə də öz istəyinə nail olmuşdu. Qədim "Yanıqpəyə" sözünü tarixdən silməklə bu kəndin çox cavan bir sözlə -"Meşəkənd" kimi səslənilməsinə nail olurdu.

Yanıqpəyəlilər də razılıq verirdilər ona görə ki, "Xancyan" adından yaxalarını azad eləmişdilər.

Bu kəndin adının "Xancyan" olmamasında Hacan Orucovun nə qədər zəhmət, əziyyət çəkdiyinin şahidi olduq.

**1978-ci ilin** fevral ayı idi. Hacan həmişə olduğu kimi xoş bir əhval-ruhiyyə ilə redaksiyamız yerləşən kabinetin qapısını açıb içəri girdi. Biz çox səmimi görüşdük. Keçib stulda əyləşəndən sonra o adəti üzrə əməkdaşların bir-bir



hamısının halını soruşub, hal-əhval tutdu. Sonra üzünü mənə tərəf çevirdi:

- Eldar müəllim, sən hər dəfə mənə söz verirsən ki, Yanıqpəyəyə gələcəksiniz. Ancaq bu səfər baş tutmur. İndi deyin görüm nə vaxt gələcəksiniz?

- Doğru deyirsiniz, -dedim. Gəlmək istəmişik, nə isə alınmayıb. Ancaq söz verirəm bu dəfə gələk.

- Nə vaxt gələ bilərsiniz?

- Fevral soyuq aydı, Yanıqpəyə də dağların zirvəsində, qalın meşələrlə əhatə olunmuş bir kənddi. Qarı-yağışı çox olur. Martın birinci ongünlüyündə gələrik dedim. Razılaşdıq. O qalxıb gedəndə bir də həmin sözü təkrar elədi:

- Mütləq gəlin, gözləyəcəyəm.

Biz mart ayının 9-da redaksiyanın "Villis" markalı maşını ilə Yanıqpəyəyə getdik. Kolxozun cavan sədri Hacan Orucov bizi kolxoz idarə heyətinin həyətində qarşıladı. Biz birlikdə onun kabinetinə keçdik. Bir azdan partiya təşkilat katibi, Sovet sədri, məktəbin direktoru və digər hörmətli ağsaqqallar da içəri daxil oldular. Biz Yanıqpəyə təsərrüfatının vəziyyəti ilə maraqlandıq. Camaatın gün-güzaranını xəbər aldıq. Məktəbdə dərsin keyfiyyətindən danışdıq. Kəndin hörmətli ağsaqqalları qocaman müəllim Balı Sərdarov, Köçəri Ramazanov, Tağı Əhmədov və başqa ziyalılar Hacan müəllimin işindən, təsərrüfatdakı inkişafdan, camaatla xoş rəftarından ağızdolusu danışdılar. Sonra kəndin bir neçə obyektində olduq. Doğrudan da, hər şeydə bir irəliləyiş varıydı. Qadınlar, qocalar, cavanlar hamısı Hacan Orucovdan razılıq edirdilər.

Xüsusilə, onun namus, qeyrət sahibi olmasından daha

çox söz açırdılar. Doğrudan da, biz Hacanın yüksək səviyyədə tərbiyəsini, əxlaqını bilirdik. Əslində söz düşəndə rayon ərazisində hamı Hacanın bu yüksək insani keyfiyyətlərindən, gözəl əxlaqından söhbət açırdı.

Kəndlə, camaatla, məktəblə, fermalarla tanış olandan sonra o bizi yaşadığı evə dəvət elədi. Hacanla bu evdə həyat yoldaşı Minayə xanım, on bir yaşlı oğlu Oruc və yeddi yaşlı Mais qalırdı. Mən axşama kimi onun qonağı oldum. O, mənə və yoldaşlarıma yüksək səviyyədə hörmət göstərdi. Biz həmin gün Hacanla unudulmaz bir gün yaşadıq. Bu gün həmin anları yada salanda həm Hacan üçün, həm bağlı-bağatlı Yanıqpəyə üçün ürəyimin başı göynəyir.

Mən "Dostluq" rayon qəzetinin əməkdaşları ilə Yanıqpəyə kəndində olanda xalqın Hacan müəllimə olan böyük sevgisinin şahidi oldum. Doğrudan da, Hacan Orucov camaatın etimadını elə qazanmışdı ki, uşaqdan-böyüyə hamı ondan razılıq edirdi. Biz ordan ayrılandan sonra da uzun müddət Hacan müəllimlə birlikdə olduğumuz günü xatirimizdə canlandırmalı olduq. Redaksiyanın əməkdaşları həmişə Yanıqpəyə kolxozunun sədrindən danışar, onun nə qədər nəzakətli, bacarıqlı, əsil xalq adamı olduğunu deyərdilər.

İndi mənə o günlərdən, yəni 9 mart 1978-ci ildə Yanıqpəyədə, Hacan Orucovun yaşadığı evin qabağında çəkdirdiyimiz şəkil yadigar qalmışdır.





*Hacan Orusov (Soldan ikinci) Krasnoseloda çıxan "Dostluq" rayon qəzetinin əməkdaşları arasında*

## HÜSEYN ARİFLƏ GÖRÜŞ

Böyük Azərbaycan şairi Hüseyn Arif Göyçəyə gələndə ilk dəfə Ağbulağa gəlir, mənim qonağım olurdu. Onun xətrini Hacan Orucov çox istəyirdi. Bir-iki dəfə görüşmüşdü. Bir dəfə mənim evimdə də bir yerdə olduq. Rəhmətlik Fərman Eyvazlı da gəlmişdi. Sazlı-sözlü bir axşamı birlikdə keçirdik.

Hüseyn Arifin Göyçəyə növbəti səfərlərdən birində Ardanış kolxozunun sədri Abbasəli Kərimovla görüşdük. O da Hüseyn Arifin vurğunu idi. Şair sabah "Soyuqbulaq yaylağı"na getmək istədiyini bildirdikdə Abbasəli müəllim dedi:

- İşim çoxdu, mən özüm gedə bilməyəcəyəm. Ancaq "Villis"i göndərəcəyəm.

Biz belə də razılaşdıq. Səhər tezdən Abbasəli müəllim öz minik maşınını göndərdi. Biz özümüzlə yol azuqəsi də götürüb yola düşdük. Toxlucanın içində sovxozun inzibati idarəsinin qabağına çoxlu adam toplaşmışdı. Şair sürücüyə dedi:

- Maşını saxla, camaatla görüşək.

Maşınımız ləngər vurub binanın qənşərində dayandı. Biz maşından düşdük. Hamı Hüseyn Arifi tanıyıb onunla görüşməyə can atırdı. Toxlucalılar şairi çox böyük məhəbbətlə qarşıladılar. Cəmi beş dəqiqədən sonra sovxozun direktoru Hacan Orucov da gəlib çıxdı.

O, bizi öz kabinetinə dəvət etdi. Biz səfər üstə olduğumuzu desək də o, əl çəkmədi. Nəhayət direktorun ikinci mərtəbədə yerləşən kabinetinə qalxdıq. O, şairi yenidən



çox böyük istiqanlılıqla qarşıladı.

Hacan Orucov yüksək mədəniyyətli, qırx-qırx iki yaşlarında yaraşıqlı bir kişi idi. Qəhrəman bir tayfanın ləyaqətli nümayəndələrindən olan bu cavan adam bu gün Toxluca kimi nəhəng bir təsərrüfatı məharətlə idarə edirdi.

Şair Hacanla əvvəllər də görüşmüşdü. İndi biləndə ki, Hacan Topal Orucun nəvəsidir, çox məmnun oldu. Başladı müxtəlif suallar verməyə. Onların biri belə idi:

- Hacan, eşitdiyimə görə daşnaklar Hüsənli tayfasının kökünü kəsib. Mən elə bilirdim ki, tayfadan heç kim qalmayıb. Deməк mən gümanımda yanılmışam.

- Yanılmamısınız, Hüseyn müəllim, eşitdiklərinizdə həqiqət var. Hüsənlilər tayfasının 14 nəfəri bir gündə torpağa tapşırılıb. Lakin onlardan ələ keçməyən üç uşaq qalıb. Ağəli, Qənbər, Aydaş. Mən Qənbərin oğluyam.

Söhbət bir qədər çəkdi. Mən dedim:

- Qağa, söhbət qoyunu qurda verəcək. Biz "Kərəm qayası"na getməliyik.

- Hə, getməliyik, -deyə o, tez ayağa qalxdı.

Hacan Orucov dedi:

- Hüseyn müəllim, gedin, qayıdan baş sizi gözləyəcəm. Bu gün mənim qonağım olmalısınız.

Sonra üzünü mənə tutdu:

- Eldar müəllim, mütləq gözləyəcəm.

Mən, baş üstə, -deyib Hüseyn müəllimin üzünə baxdım. O, fikrini öyrənmək istədiyimi anlayıb dilləndi.

- Toxlucalılar qəhrəman camaatdır. Onların sözünü yerə salmaq olmaz.

Sürücümüz üzünü mənə tutdu:

- Eldar müəllim, Kərimov mənə tapşırdı ki, qayıdıb gələndə Hüseyn müəllimi də, Eldar müəllimi də Ardanışa gətir.

Mən qayıdıb Hacan Orucova baxdım:

- Eşitdin, sürücü nə dedi? Abbasəli müəllim tapşırıb ki, şairi özünlə Ardanışa gətir.

- Ardanış da bizimdir, Toxluca da. Ya mən Ardanışa gedərəm, ya Abbasəli müəllim buraya gələr.

Bu söhbətdən sonra deməyə söz qalmırdı. Biz Hacan Orucova söz verib yola düşdük. Daşlı-kəsəkli, enişli-yoxuşlu, dolambac yollarla "Qanqallıya" qalxdıq. Artıq Göyçə gölü solumuzda, Qaraqoyunlu meşəsi sağımızda ruhumuza bir doğmalıq, bir qədimlik, bir saflıq gətirirdi. Biz "Soyuqbulaq" yaylağına çatdıq, Hüseyn müəllim Kəsəmənin yerini göstərib kövrək bir tövrlə dedi:

- Bax, buralar alaçıqların qurulduğu yerdir. Təxminən bizim alaçığın yeri buralarda idi,- deyə o ayağını bir çökək yerə qoyub bizə göstərirdi. Sonra bir müddət gözlərini uzaq üfüqlərə dikib xəyala getdi. Yenidən dilləndi, -bu obada nə qədər mərd, qoçaq, ləyaqətli kişilər olub. Qaçaq Kərəmin, İsrafil ağanın "Soyuqbulaq" yaylağının hər qarışında ayaq izləri var.

Sonra biz "Kərəm qayası"nın yanına gəldik. Hüseyn müəllim xalqımızın böyük oğlunun adını yaşadan həmin qayanın önündə dayanıb baş əydi. Əlini qayanın üstünə qoyub asta-asta sağa-sola gəzdirdi. Sanki şair çoxdankı arzusuna yetmişdi. Öz uşaqlıq xatirələrinə qovuşmuşdu. Qayadan əlini çəkə bilmirdi. Xəyalında dağı arana, aranı dağa aparırdı. O, başını qayaya söykəyib, göydə uçan quşların civiltisindən və arıların aramsız vızıltısından başqa hiss



olunurdu ki, heç nə eşitmir. Deyəsən uşaqlıqda ətrafında oynadığı, Kərəmin adını yaşadan bu möhtəşəm qayadan uzaqlaşa bilmirdi. O, sakit bir tövrlə dodaqlarını qayaya söykəyib, ağır bir intizarla addımını geri atdı. Köksünü ötürüb bir an susdu. Nəhayət qayadan ayrılıb, laləli, qantəpərli, quzuqulaqlı, qaymaq çiçəkli çəmənin yaşıl, minbir ətir saçan otunu yara-yara qarşıdakı dikdirə tərəf irəlilədi.

- Yaman kövrəlmişəm, Eldar. -deyə əlini yuxarı qaldırıb bu misraları pıçıldadı:

*Verirmi hökmünü axşam küləyi,*
*Soyuqdan donurmu xəzan çiçəyi.*
*Ocağı qaralmış ocaq yerinin*
*Kəsirmi üstünü payız küləyi*
*Şimşəkdən od tutub paralanırmı.*

*Qaralmış göylərin bulud örpəyi*
*Alırmı ağzına dar dərələri*
*Gah enib, gah qalxan duman dənizi*
*Ot-alaq basıbmı bu vaxta kimi*
*Enişdə, yoxuşda açdığım izi.*

Biz indi Şahdağ silsiləsinin elə bir nöqtəsində dayanmışdıq ki, buradan bütün Göyçə, Göyçə gölü, Qaraqoyunlu dərəsi, Murğuz dağı, Şah dağı, Ağzıbir dağları görünürdü.

- Hə indi biz bulaqların suyundan içib yola düşək, Hacan bizi gözləyir, -deyə qağa maşına tərəf addımladı.

Sürücü bizi "Novlu bulağ"ın, "Ayğır"ın üstünə apardı. Bulaqlar çağlayır, lilpar, yarpız basmış arxla süzülüb üzü-

qoylu atlas meşələrin qoynuna tələsirdi.

- "Xoş gördük, ay bulaq, xoş gördük səni" -deyib şair özü bir lilpar qoparıb, yarpaqlarını təmizləyib bulağa yaxınlaşdı. Doyunca içib geri çəkildi:

- Cənnət suyu deyilən su budur ki, budur. Bu su məni 40-45 il əvvələ qaytardı. Bulaqlar, qayalar, dərələr, meşələr həminkidi. Ancaq nə zaman o zamandı, nə də insanlar o insanlardı.

Hüseyn müəllim "Soyuqbulaq" yaylağından ayrılmaq istəmirdi. Lakin geri dönmək vaxtı çatmışdı. Biz "Göyərçinli yaylağı"ndan ötüb "Dərə yurd"dan, "Seyidölən"dən keçib Toxlucaya çatdıq. Toxlucalılar şairi hərarətlə qarşıladılar. Ziyafət sovxozun baş mühasibi Oruc Əhmədovun böyük eyvanında düzəldilmişdi. Abbasəli Kərimov da burada idi. Süfrəyə hər cür yemək-içmək düzülmüşdü. Əsas məsələ şairin şerlərini dinləmək, onun söhbətinə qulaq asmaqdan ibarət idi. Saz coşdu, mahnılar yüksəldi. Abbasəli müəllim şairin şerləri ilə yanaşı öz şeirlərindən də nümunələr söylədi. Onun dövrünün əvəzolunmaz sənətkarı Aşıq İmrana həsr etdiyi “Danışsın” rədifli şeiri daha çox diqqəti cəlb elədi.

*Aşıq qardaş, götür telli sazını*
*Mizrab dilə gəlib, tellər danışsın.*
*Cəh-cəh vur bülbül tək, yay avazını*
*Obalar dinləsin, ellər danışsın.*

*Göyçə ana, vətən, aşıqlar yurdu,*
*Ələsgər onlara komandir oldu.*
*Təcnis, dodaqdəyməz bir saray qurdu,*
*Dağlar səcdə etsin, çöllər danışsın.*



*Aşıq qardaş, durma, dolan hər yanı,*
*Artsın Ələsgərin şöhrəti- şanı.*
*Dülgəroğlu dinlədikcə İmranı*
*Çiçəklər oynasın, güllər danışsın!*

Həmin axşam Hüseyn Arif yeni şeirlərini oxudu. Xüsusilə Yunis Rzayevə həsr elədiyi "Bəlkə buna görə" poemasından oxuduğu bir parça hamının ürəyindən oldu.

*Arabir izimə sabahın nuru,*
*Arabir yoluma gecə düşübdü.*
*Arabir yadıma dağların qarı*
*Düşübdü,*
*özü də, necə düşübdü.*

*Bir tərəfim tala, bir tərəfim bağ,*
*Bir dünya nemətdir bir yaşıl yarpaq.*
*Arabir meylimə Şirvan, Qarabağ,*
*Arabir Qax düşüb, Gəncə düşübdü.*

*Xəyal boylananda ana torpağa*
*Özümdən xəbərsiz qonur Qazağa.*
*Bilmirəm nədənsə, ay Yunis qağa*
*Xeyli var könlümə Göyçə düşübdü.*

*Bəlkə Ağbulağın bərəsindəki*
*Sübhün dan qoxusu səsləyir məni.*
*Bəlkə Toxlucanın dərəsindəki*
*Baldırğan qoxusu səsləyir məni.*

*Bəlkə Yeddibulaq dumanda, çəndə.*
*Yoluma göz dikib, daşlarında tər?*
*Bəlkə Ardanışdan Cilə keçəndə*
*Açdığım cığırlar qəribsəyiblər?*

Bu sazlı- sözlü gecədə təbii ki, mən də şeirlər oxudum. Həmin şeirlərdən biri Hacan Orucova həsr olunmuşdu.

*"Əyricə"dən qalxıb "Dərə yurd" dedim,*
*Dağında, düzündə mən səni gördüm.*
*Gözümü gəzdirdim Göycə göllərə,*
*Göy gölün gözündə mən səni gördüm.*

*Öz adı-sanı var hər bir ərənin,*
*Biri də sən oldun qəlblər hörənin.*
*Hüsənli at çapan dağın, dərənin*
*Yolunda, izində mən səni gördüm.*

*Yaşadın sellərin dağ nərəsində,*
*Yerin harayında, göyün səsində.*
*İlqarlı dostların can kürəsində,*
*Odunda, közündə mən səni gördüm.*

*Söhbət ki, ağıldan, kamaldan düşdü,*
*Təmiz bir sevgidən, amaldan düşdü.*
*Gözəl boy- buxundan, camaldan düşdü*
*Dünyanın üzündə mən səni gördüm.*

*Vətən eşqi çağlar qızıl qanında,*
*Hörmətin böyükdü millət yanında.*



***Eldarın alışan, yanan canında,***
***Özündə, sözündə mən səni gördüm.***

**Hüseyn müəllim yenə öz dadlı - duzlu yumorlarından qalmırdı.Üzünü qabaqqarşı oturmuş direktorlara tutub dedi:**

**-Sizi işdən çıxarıb eləmək təhlükəsi yoxdur ki?**

**-Yorulmuşuq, çıxartsalar pis olmaz,- deyə Abbasəli müəllim onun sualını cavablandırdı.**

**Üzündə müəyyən təbəssüm gəzən Qağa özünəməxsus bir tərzdə dedi:**

**- İşdi məcburi qaydada sizi çıxarmaq istəsələr çalışın çıxmayın.**

**- Bəs nə eləyək, Qağa?- Hacan dilləndi.**

**- Sadəcə olaraq yerinizi dəyişdirin!- deyə o cavab verdi.**

**Bu söz hamını tutdu, hamı ürəkdən güldü. Xoş məramlı bu ziyafət gecəyarıya qədər davam etdi.**



## BAKI MÜHİTİ

1988-ci il xalqımızın taleyinə bir qara kabus kimi daxil oldu. Amerika, Rusiya, Fransa kimi güclü xristian dövlətlərindən dəstək alan ermənilər bizi öz əzəli torpaqlarımızdan silah zoruna çıxardılar. Ata-baba yurdumuzu bir dəfəlik tərk etmək məcburiyyətində qaldıq. Mən də, Hacan da həmin vaxtdan etibarən Bakı şəhərində məskunlaşdıq. Həmin dövrdə Bakı şəhərindəki meydanda (Lenin meydanı) qəzəblənmiş xalq kütlələrinin geniş miqyaslı mitinqləri keçirilirdi. Mən Hacanla həmin mitinqlərdə tez-tez görüşürdüm. Elə olurdu ki, gecə yarıya qədər meydanda olurduq. Xalq hərakatının öncüllərini dinləyir, ayrı-ayrı ziyalıların söhbətlərinə qulaq asırdıq. İnsan seli dəniz kimi dalğalanır, coşur, çağlayırdı. Həmin dövrdə mitinqdəki insanları silahlayıb Qarabağa göndərən olsaydı, çox şeyə nail olunardı.

1990-cı ilin yanvarında "Azərbaycan Qaçqınlar Cəmiyyəti" yaradıldı. Mən bu cəmiyyətdə ideologiya şöbəsinə müdir təyin oldum. Bir qədərdən sonra Hacan Orucov da cəmiyyətdə işləməli oldu. Demək olar ki, biz hər gün görüşür, söhbət edirdik.

Bizim şöbədə məhşur partizan Cavad Həkimli, Qənbər Bayramov, Saşa Əliyev və başqaları işləyirdilər. Bu şöbədə hamı məsuliyyətlə çalışırdı. Qaçqınların say tərkibi, Ermənistanda öldürülən, yaralanan adamların hesabatı dəqiqləşdirilirdi. Ermənilər tərəfindən qarət olunan mal-qaranın, var-dövlətin uçotu aparılırdı. Ümumiyyətlə, ideologiya şöbəsinin işçiləri gərgin işləyirdilər. Bir gün Hacana dedim iki gündür görünmürsən, hardasan? O, cavab verdi ki, çox işləyirsiniz,



ona görə də vaxtınızı almaq istəmirəm. Cəmiyyətdə əsas iş görən sizsiniz, başınız qarışıb, heç nədən xəbəriniz yoxdur.

- Nə xəbər? -dedim.

- Burda qaçqının yardımına göz dikənlər də var. Onlardan yəqin xəbərsizsən, -dedi.

- Qaçqının yardımına, -deyə təəccüblə onun üzünə baxdım.

O, dilləndi:

- Çox təəssüf! Mən belə şeyə nifrət eləyirəm!

- Belə şeyi Allah götürməz!

- İnsanlarda halallıq qalmayıb. Əksəriyyətin mayası haramla qarışıb.

Artıq Hacanın təmiz, saf adam olduğunu qaçqınlar bilirdilər. Bəzi rayon təşkilatlarında tələb edirdilər ki, yardımın paylanması Hacan Orucovun nəzarəti altında keçirilsin!

Biz Hacanla olub keçənlərdən daha çox söhbət eləyirdik. Bir gün Hacan mənə dedi ki, Hüsənlilər haqqında bir kitab yaz. Sonra onların əhvalatı unudulacaq, hadisələr yaddan çıxacaq, belə bir kitab isə yazılmayacaq.

Bundan sonra o mənə bəzi məlumatları verdi və öz eşidib-bildiklərimi də cəmləyib işə başladım. Qardaşım Hüseyn İsmayılovla birlikdə "Göyçənin qisası qalır" tarixi sənədli romanı başa çatdırdıq. Onun bəzi fəsillərini Hacan müəllim oxudu, çox xoşuna gəldi. Ancaq maddi duruma görə kitabın çapı gecikdi. Hacan Orucov onun babalarının qəhrəmanlıq tarixini özündə ehtiva edən bu kitabı görə bilmədi. Kitab işıq üzü görəndə Hacan müəllim artıq iki il idi ki, sıralarımızda yox idi.

*Bizim sıramızdan ayrılıb getdin,*
*Durna qatarından ayrılan kimi.*
*Ömrün qürubunda görünüb, ötdün,*
*Günəş göy üzündən sıyrılan kimi.*

**Gözəllərin gözəli olan Hacan müəllimin adı gələndə içimdə başlayan sızıltı ürəyimi göynədib keçir. Bu günkü təsəllim odur ki, bu istəkli qohum, müdrik el ağsaqqalı, qeyrətli millət oğlunun xatirəsinə həsr etdiyim kitaba imza atıram. O böyük insanın ruhu önündə baş əyirəm.**





## BƏD XƏBƏR

1995-ci ilin yanvar günləri idi. Hardansa, necəsə yaman bir xəbər, bəd bir xəbər qara kabus kimi başımın üstünü aldı. "Ürəyi Hacanı yarı yolda qoydu", dedilər.

Dəryalardan qopan fırtınalara, tufanlara, qarşısıalınmaz qasırğalara dönən bu xəbər məni yerimdən qoparıb burulğana saldı.

Bu fırtınalar, qasırğalar "Hacan", "Hacan" deyib yeri-göyü titrətdi. Bir anlığa Toxluca dağları, Göyçə gölü gözüm önünə gəldi. Dağların haray səsi gəldi qulağıma, Göyçə gölünün qayalara çırpılan hıçqırtısı...

*Yalan dünya yalan olduğunu təsdiqlədi. Gözəl dünya gözəlliyini itirdi. Hacan Qənbər oğlunda bütün gözəlliklər birləşmişdi:*

*- O, boyu-buxunu, çinar qaməti ilə gözəl idi,*

*- Yaraşığı, nurlu siması, şahanə baxışı ilə gözəl idi,*

*- Qəlbinin odu, sevgisi, insanlara məhəbbəti ilə gözəl idi,*

*- Dəyanəti, ləyaqəti və tanrı vergili ağsaqqallığı ilə gözəl idi,*

*- Qeyrəti, namusu, şərəfl ,əxlaqı ilə gözəl idi,*

*- Ağır təbiəti, az və hikmət dolu mənalı söhbəti ilə gözəl idi,*

*- Arxasıza arxa, yıxılana dayaq, məzluma havadar olması ilə gözəl idi,*

*- Halal zəhməti, halal əməyi, halal süfrəsi ilə gözəl idi,*

*- Saflığı, paklığı, düzlüyü və ədaləti ilə gözəl idi,*

*- Elinə- obasına, millətinə vurğunluğu ilə gözəl idi,*

*Əgər bu gidi dünya Hacanı itirməklə bu qədər gözəllyini itirdisə mən belə dünyaya yalan dünya, havayı dünya demə-*

*yim bəs nə deyim?!*

*Sözümü bir səmtə, yönə deyirəm,*
*Bu sirri a dünya, sənə deyirəm.*
*Eldaram, demişəm, yenə deyirəm,*
*Havayı, havayı, havayı dünya!*

Dünyanın gözəlliyini ceyranlı- cüyürlü meşələr, coşqun bulaqlar, qıjov çaylar, mavi dənizlər, zirvəsi qartallı yaşıl dağlar və daha nələr təşkil etsə də bu gözəlliyin qiymət verəni də, bütün gözəlliklərin gözəli də insandı. Bir də insanların məxsusi gözəli var ki, Ulu Tanrı dünyanı elə bu gözəllərin xatirinə, hörmətinə qoruyub hifz edir. Bu cür insanlar dünyadan gedəndə hardasa yer tərpənir, hardasa göy gurlayır, ildırım çaxır, buludlar gözündən yaş tökür, sel qopur, daşqın olur... Hacan Orucov dünyaya göz yumanda da belə oldu. Qohum-qardaş, el-oba, bütün insanlar ağladı. Göy üzündə topa- topa buludlar göründü qəfildən, göy kişnəyib bulud ağladı.

*Solmaqdadı ömrün zəri,*
*Eldar, dolanma sərsəri.*
*Öz başıma gələnləri*
*Daşa dedim, daş ağladı.*

Dedilər hardasa günəş tutuldu, hardasa yer oynadı. Çox şey dedilər.

Mən isə Hacansız yaşamağın çətinliyini düşündüm. Düşünürdüm ki, bir daha Hacanla görüşüb, söhbət etməyəcəm. Hacan olmadığı təqdirdə mənim dünyamda



bir boşluq, bir narahatlıq hökm sürəcək. Hacanın olmayacağını düşünəndə içimdən soyuq bir üşütmə, giziltili ağrı keçirdi. Bu ağrı altda müxtəlif fikirlər də məni rahat buraxmırdı:

- Dilim tutmurdu, Hacan haqqında "ölüm" sözünü işlədim. Ölüm Allah işidi, hər yaranan köçməlidi. Ancaq Hacan üçün bu ölüm xəbəri çox erkən, çox tez vaxtından xeyli əvvəl qulaqlara çatmışdı.

Həmin o göynərtili anlarda, ürəyimin sızıldadığı dəqiqələrdə bir il əvvəl yazdığım şeirdən parçalar qeyri-ixtiyari dodaqlarımdan süzülüb pıçıltılı bir səslə ətrafa yayıldı.

*Qoynunda küləyəm mən bu dünyanın,*
*Əlində ələyəm mən bu dünyanın.*
*Nəyinə gərəyəm mən bu dünyanın?*
*Nəyimə gərəkdi bu dünya mənim.*

*Böyük dəyərləri ölçməkdə aciz,*
*Günahsız günahdan keçməkdə aciz.*
*Suyunu südündən seçməkdə aciz.*
*Nəyimə gərəkdi bu dünya mənim?*
*Nəyinə gərəyəm mən bu dünyanın?!*

*Düzəlmək, doğrulmaq daha gecdisə,*
*Ömür- gün heçdisə, həyat heçdisə,*
*Əvvəli get- gəlli, sonu köçdüsə,*
*Nəyimə gərəkdi bu dünya mənim?*
*Nəyinə gərəyəm mən bu dünyanın?!*

Hacanın qırxına kimi mən Hacansızlığı qəbul edə bilmirdim. Çox zaman yuxumda görürdüm. Özü də Toxlucada, Ağbulaqda, rayon mərkəzində daha çox "rastlaşır, söhbət edirdik". Qəflətən sıçrayıb ayılırdım. Bu xoşbəxt dəqiqələrin yuxu olduğunu görəndə daha da kədərlənirdim. Neyləmək olar, həyatın qanunu budur. İtki Hacan itkisi olsa da dözümsüzlük içində bir dözüm bizimlə çiyin- çiyinə gedirdi. O gündən 12 il keçsə də Hacan hər gün mənimlə birlikdə olub.

Hacansız dünyaya nifrətlər yağdıra- yağdıra, həmin o çətin günlərədə göynəyə-göynəyə qələmi əlimə aldım. İçimdən püskürən "Hacansız dünya" və "Göynəyə-göynəyə" şeirlərimi ürək sızıltıları ilə kağıza köçürdüm.

Bu gün Hacan cismən sıramızda yoxdu. Ancaq ürəyimizdə, qəlbimizdə, canımızda yaşayır. O, yaşayacaq! Ona görə ki, Hacanın buna haqqı var! Ona görə ki, Hacanın qədirbilən çoxlu qohum-əqrəbası, dost- tanışı, eloğluları var. *Hacanın yaşamaq haqqı var! Biz bunu onun istiqanlı, atalarının xətrini daim əziz tutan, ucalara qaldıran övladlarının - Orucun, Maisin, Rənanın, Almazın, Solmazın, Arzunun və Elzanın şəxsində görürük.*



## HACANSIZ DÜNYA

*Qohumların sevimlisi, dostların müqəddəsi,*
*paklıq mücəssiməsi Hacan Qənbər*
*oğlunun əziz və unudulmaz xatirəsinə.*
*(birinci ağı)*

*Cavab ver səsimə, harayıma sən,*
*Bir daş bas səbrimə ay gidi dünya!*
*Paxır qat zərimə, qalayıma sən,*
*Toxunma qəbrimə ay gidi dünya!*

*Toxunma qəbrimə, dəymə daşıma,*
*Qazancım bir məzar, bir başdaşıdı.*
*Mənə nə vermisən qaxma başıma,*
*Sən verən naz- nemət namərd aşıdı!*

*Nə gördüm mən səndə hiylədən özgə,*
*Nə qədər kiçildin gözümdə mənim!*
*Sənin iç üzünü bürüyən kölgə*
*Axır üzə çıxdı düzümdə mənim!*

*Dön mənə Hacan tək bir oğlul göstər,*
*Ay firfira dünya, ay hərrac dünya!*
*Belə bir böyüklük, bir ağıl göstər,*
*Sən ay korafəhim, ağlıçaş dünya!...*

Hanı gözəlliyin tacı, vüqarı,
Hanı bir mahalın istəkli oğlu?!
Hanı kişiliyin palıd, çinarı,
Bir elin- obanın gərəkli oğlu?!

Sən seçə bilməzsən qaradan ağı,
Namərdi yürgələr, mərdi atarsan!
Ələyə vurarsan daşı, torpağı
Hacan tək igidi çətin taparsan!

Necə pəsinmədin bəd əməlindən,
Sən necə söndürdün yanan çırağı?!
Gözümə yaş qoydun, saçlarıma dən,
Sən çəkdin sinəmə bir Hacan dağı!

Mən sənə nə deyim bu gündən belə,
Mürvətsiz, kərəmsiz, amansız dünya!
Heç nəsən mənimçün bu minval ilə,
Utan, xəcalət çək Hacansız dünya!





# II HİSSƏ

**Atalarımız "Polad sınar, ancaq əyilməz" deyiblər. Onların ruhu şad olsun deyə biz əyilməyəcəyik, onların bütün arzularını yerinə yetirəcəyik! Çünki biz Topal Orucun davamçılarıyıq!**

***Sədaqət ƏLİ QIZI***



## MÜDRİK EL AĞSAQQALI



Həyatda xeyirxahlıq edənlər, kimsəsizlərə arxa duranlar insanların qəlbində həmişə yaşayırlar. Belələri nəsillərə nümunə olur, illər bir-birini əvəz etsə də, həmin insanlar dünyasını dəyişib əbədiyyətə qovuşsalar da hər zaman adları iftixarla çəkilir və ehtiramla yad edilir. Yaxşı əməl sahibləri bu gün daha canlıdırlar. Bu gün onlar həyatda olmasalar da, adları hər birimizin qəlbində əbədi həkk olunub. Həyat xeyirxah insanları hamıya tanıdır, elin-obanın gözündə ən uca zirvələrə qaldırır. Belə el ağsaqqalarından biri də Hacan dayı olmuşdur.

Hacan müəllim mənəvi cəhətdən saf, əqidəcə möhkəm, sanballı və müdirik el ağsaqqalı olmuşdur. Gənc yaşlarından yüksək rəhbər vəzifələr tutmasına baxmayaraq həmişə xalqın içərisində olmuş, vəzifə səlahiyyətlərindən el-oba, insanlarının xeyrinə istifadə etməyə çalışmışdır. Bu gün Göyçə mahalı və Qərbi Azərbaycanda onun adı xeyirxahlıq və ağsaqqallıq simvoluna çevrilmişdir. İnsan ömrünün sanbalı və layiqli göstəricisi zamanla deyil, onun qurub-yaratdıqları, etdiyi yaxşılıqların, ürəklərdə saldığı izlərin ölçüsüylə müəyyənləşir. Hacan müəllim xeyir-şər adamı, el ağsaqqalı olub. O, bütün el-obanın işinə yaramaqdan, müşküllərinə çarə tapmaqdan həzz alıb, hər bir işə can-başla, ürəklə yanaşmağı bacarıb.

İnsanlara himayədarlıq və xeyirxahlığı həyat məqsədi etmiş Hacan dayının ürəyində bir həsrət -Vətən həsrəti qaldı. Doğma Toxlucadan, Göyçədən uzaq düşməsini, el-obasının əziyyətlərə düçar olmasını çox ağır keçirirdi. Çox güman ki, bu ağır mənəvi sıxıntı da onun aramızdan çox tez getməsinə səbəb oldu. Lakin, Hacan dayı xoşbəxt insanlardandır. Onun ocağında ağsaqqalın özü kimi yaxşı övladları tərbiyə alıb, indi isə nəvə-nəticələri böyüyür. Ağıllı, qeyrətli övladların valideyinləri isə həmişə uzun ömürlü olur.

Bu gün o, həyatda olmasa da adı hər birimizin qəlbində əbədi həkk olunub, elin-obanın gözündə ən uca zirvəyə qalxmışdır. Hacan adı zirvə simvoludur.

***Etibar MƏMMƏDOV***



*Soldan:Zemfira xanım, Etibar bəy, Eldar bəy, Azadə xanım, arxada qızları Əfruz və Günay*



## UNUDULMAZ GÜNLƏR

Hacan mənim bibim oğlu idi. Həm də atalarımız əmi uşaqları olublar. Hacan ailədə üç bacının bir qardaşı idi. Biz onunla çox mehriban idik. Mən Hacandan bir neçə yaş böyük olmağıma baxmayaraq dostluğumuz tuturdu və mən onu olduqca çox istəyirdim. Demək olar ki, onu çox istəməyən yox idi. Elə bil ki, insanların sevgisini Allah-təala ona bəxş eləmişdi. Hacan hələ uşaqlıqdan çox təmkinli, səbrli, az



*Siyavuş İsmayılov ailə üzvləri ilə birlikdə*

danışan idi. Biz həmişə onun könlünü almağa, danışdırıb, gülməyə çalışardıq. O, söhbət edəndə də, danışıb-güləndə də mənalı deyib-gülərdi. Günümüz Göyçə gölün sahilində və "Əyriayaq çayının üçtündə keçərdi. Bir gün yenə Hacanı dindirib güldürmək üçün dedim:

-Hacan, bir buna bax, cibimə ilan girib. Onu kim çxarsa

balıq tutanda ona bir balıq verəcəm.

Hacan özünəməxsus bir təmkinlə gülümsünüb dedi:

-Bir balığa görə kim əlini sənin cibinə salar!

Hacan uşaqlıqda tez-tez xəstələnirdi. Ona görə də qohumlar onu çox istəyirdilər. Mən 1950-ci ildə Bakı şəhərinə köçdüm, bir qədər aralı düşdük. Buna baxmayaraq mən hər dəfə kəndə gedəndə günümüzü bir yerdə keçirər, ürəyimizi boşaldınca söhbət edərdik.

Tale elə gətirdi ki, Hacan da Bakı şəhərinə köçdü. 1989-1990-cı illərdə Sabunçu xəstəxanasında yatırdım. Bel sütunum zədələnmişdi. Hacan hər gün yanıma gələr, keçən günlərdən söhbət açar, mənə təsəlli verərdi. Mənimlə söhbət edəndə gözləri dolardı. Soruşardım ki, nə olub?

Deyərdi -heç!

Mənə həmişə deyərdi: “Sən də bir gün görmədin”.

Hacan Bilgəh sanatoriyasında dincəlirdi. Mən onun yanına tez-tez gedirdim. Dəniz qırağında oturub saatlarla söhbət edərdik. Ötüb-keçən şirin xatirələrlə ürəyimizi boşaldardıq.

Hacan böyük insan, yaxşı qohum, etibarlı dost idi. Hamının yadında təmkinli, səbrli, namuslu, qeyrətli bir şəxsiyyət kimi qaldı.

Hacan mənim üçün bir qohum kimi yox, qardaşdan çox istədiyim bir qardaş olub.

Onun unudulmaz xatirəsi mənim ürəyimdə əbədi bir heykələ çevrilmişdir!

***Siyavuş İSMAYILOV***



## QOHUMLARIN SEVİMLİSİ

1945- ci il idi. Atam və Qənbər əmi müharibədən hələ gəlməmişdilər. Mən və Hacan balaca idik. Vəziyyət olduqca ağır idi. Hər şey müharibəyə göndərilirdi.



*Hacan və İsmail*

Hacanla mən tütün düzümü vaxtı bibimə, kartof yığımında babam Məşədi Məmmədə kömək edirdik. Balaca olmağımıza baxmayaraq çayda balıq tutub evə gətirirdik. Çöldən yığdığımız quşəppəyi, quzuqulağı, qımı və başqa bitkilərdən evə gətirirdik. Onlardan bizə yemək hazırlayırdılar.

Hacanla mənim uşaqlıq illərimiz çox maraqlı keçib. Biz birlikdə inəkləri və qoyun-quzunu otarmağa aparırdıq. Uşaqlarla birlikdə “dirə döymə, “ənzəli, “qanlı qaya, “top yalağa salma, “çiling ağac və sair uşaq oyunları oynayırdıq.

Qohumların sevimlisi olan Hacan çox mehriban uşaq idi. Sinif uşaqlarının hamısı onu çox istəyirdi. O, həm də dərslərini çox yaxşı oxuyurdu.

Yuxarı məhəllənin uşaqları ilə biz heç vaxt yola getmirdik. Ancaq Hacan yanımızda olanda bu, dostluğa çevrilirdi. Onlar Hacana görə bizə dəymir, hörmət edirdilər.

Bir dəfə Aftandil adlı dostumuzu döymüşdülər. Hacan bu işə qarışanda yuxarı məhəllənin uşaqları onu görən kimi qorxdular və üzr istədilər.

Atam və Qənbər əmim müharibədən qayıdandan sonra vəziyyətimiz yaxşılaşmışdı. 1956- cı ildə ailəmiz Ağsu rayonuna köçmüşdü. Atam Ağsuda işləyirdi. Hacan gəlib 10-cu sinifi Ağsuda oxudu.

Mən əsgərliyə getdim. Hacan isə İrəvanda texnikuma qəbul olundu. Bundan sonra Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirdi. Kənddə zootexnik işlədi. Həmin dövrdə Toxlucanın durna gözlü bulaqları üstə çoxlu xoş günlər, şadlıqlar keçirmişik.

O, Yanıqpəyədə və Toxlucada sovxoz direktoru, rayon mərkəzində vəzifədə işləyən vaxtlar da görüşürdük. Hacan uşaqlıqda olduğu kimi yenə də səmimi və diqqətcil idi.

Hacan 1988- ci ildə Bakıya köçəndən sonra biz bir-birimizin evinə gedib-gəlirdik. Uşaqlarımız da bir-birinə mehriban idilər.

Hacan dostluqda da çox möhkəm və etibarlı idi. Heç vaxt Göyçəni, Toxlucanı unuda bilmirdi. Daim bu həsrətlə yaşayırdı. Bu həsrətlə də dünyasını dəyişdi.

*Allah ona rəhmət eləsin!*

***İsmail İSMAYILOV***



## YÜKSƏK ƏYARLI İNSAN



Hacan Qənbər oğlu ilə ünsiyyətimiz əsasən 1988-ci ildən bəri (məlum hadisələrlə əlaqədar onlar Bakıya köçdükdən sonra) başlanmışdır. O mənim yadımda mədəni, əxlaqlı, səmimi, təmiz, dürüst, mehriban bir insan kimi qalmışdır. Ümumiyyətlə, əgər insan keyfiyyətlərini qiymətləndirən əyar olsa idi, mən əminliklə deyə bilərdim ki, Hacan Qənbər oğluna ən yüksək əyarlı insan qiymətini vermək olardı.

***Eldar MƏMMƏDOV***



*Sağdan: Eldar bəy qızları Qəmər, Lalə, Günay, oğlu Rövşən və həyat yoldaşı Azadə xanımla*

## BÖYÜK İNSAN, GÖZƏL QARDAŞ



Atam əsgərliyə gedəndə mənim altı, qardaşım Hacanın isə iki yaşı vardı. Anam işə gedəndə körpə Hacana mən baxırdım. Beləcə günlər keçirirdik. Bir yandan müharibədə olan atamın həsrəti, o biri yandan çətinliklərlə dolu güngüzəran. Yaxşı yadımdadır, xəbər yayılmışdı ki, Oruc oğlu Qənbər cəbhədə böyük qəhrəmanlıq göstərərək düşmənin üç tankını sıradan çıxarıb. Bir qədər sonra atamdan aldığımız məktubda da o özü bu haqda yazmışdı. Sonralar məlum oldu ki, erməni millətindən olan komandirlər onun adına hazırlanan sənədlərə maneçilik törədib, başqasının adına yazdırıblar. Atam müharibədən qayıtdı, fərəhli günlərimiz qaydasına düşdü.

Hacan məktəbə gedən gündən yaxşı oxuyurdu. O, ikinci sinfi bitirəndən sonra beşinci sinifdə oxudu. Həmin dövrdə Toxluca kənd orta məktəbinin direktoru tarix elmlər doktoru, professor Həmid Əliyev idi. O, hər dəfə Hacana tərif qramotası verəndə deyərdi: "Hacan məktəbimizin ən tərbiyəli, ən yaxşı oxuyan şagirdlərindən biridir!

Hacan orta məktəbi bitirəndən sonra İrəvanda kənd təsərrüfatı texnikumunda oxudu. Həmin dövrdə o, ermənilərlə bir neçə dəfə davaya düşmüşdü. Hər dəfə də xain erməni dığalarına yaxşıca dərs vermişdi. Onun hünərli bir oğlan olduğunu texnikimun direktoru işləyən Qazıyev həmişə tərifləyər və "ot kökü üstə bitər" deyirdi.

Anam evdə tək idi. Ona görə Hacanı evləndirmək qərarına gəldik. Ona Ağəli Əsədovun qızı Minayəni aldıq. Allaha şükür, onun iki oğlu, beş qızı dünyaya gəldi. Hacan Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirdi. Bir sıra vəzifələrdə çalışdı. Hər yerdə özünə və ailəsinə başucalığı gətirdi. Xüsusilə, Yanıqpəyə və Toxluca sovxozlarında direktor işləyərkən Hacanın bacarığı, mədəniyyəti, insanlığı daha geniş miqyasda yayıldı. Hər şeydən əvvəl Hacan bir yaxşılıq, səxavətlik, mərdlik, ləyaqətlik, namusluq mücəssiməsi kimi elin-obanın istəklisinə çevrildi. O, ailə, qohum-əqraba sevgisindən əlavə qonşu kəndlərin, eləcə də bütün Göyçənin və Qaraqoyunlunun sevgisini qazandı.

Yüksək səviyyəli təsərrüfat rəhbəri kimi tanınan Hacanı raykom katibi işdən buraxmaq istəmirdi...

Hacanı biz bacılar canımızdan çox istəyirdik. Çünki, o bizim yeganə qardaşımız, ünlü bir nəslin təmsilcisi, dəyanət və insanlıq simvolu idi. Maraqlı odur ki, Hacan özü də bacılarını son dərəcə çox istəyirdi. O, bir dəfə də olsun bacılarının xətrinə dəyməz, əksinə onların qəhrini çəkər, nazı ilə oynayardı.

Hacan kimi qardaş itirmişəm. "İtirmişəm" kəlməsini deyərkən içimi bıçaq kimi doğrayan bir göynərti, bir yanğı tüstümü təpəmdən çıxarır. Onun vaxtsız ölümü mənim mənəvi dünyama elə bir zərbə oldu ki, o zərbədən zədələnən ürəyim qiyamətə kimi sağalmaz.

Hacan mənim şir qardaşımıydı. Kaş ki, onun ölümü biz

bacılara gələydi. Çünki Hacan mənim və bacılarımın həm atası, həm anası idi. Heyləmək olar... Bu da bizim taleyimizə yazılmış bir Tanrı payı imiş.

*Yanına gəlim, qardaş.*
*Dərdini bölüm, qardaş*
*Bir gecə yuxuma gəl,*
*Sevinim, gülüm, qardaş.*

*Allah sənə rəhmət eləsin, Göyçənin gözəl oğlu, mənim əziz Hacanım!*

***Məryəm QƏNBƏR QIZI.***





## BACILAR YAMAN AĞLAR



Hər gün çinar boylu, qara qaşlı, şahin baxışlı, gur saçlı Hacan gözlərimin önündədir. Ağ, gülümsər çöhrəli üzü, təbəssüm dolu dodaqları və bütün görüntüsü ilə Hacan mənimlədir. Qəlbimdə əzəmətli heykəli, qanımda, canımda məhəbbətilə yaşayır.

Hacan Orucov! - Bu ad mənə qardaş doğmalığı qədər əziz və mötəbərdir. Bu adı hər yerdə, həmişə insanların dilindən eşidirəm. Xoş sözlərlə cilalanmış Hacan adı qəlbimdən bir gizilti ilə keçib, sonradan bir qürur doğurur. Hacansızlığı qəlbimə dağ çəksə də onun ucadan səslənən adı, ehtiramla anılan xatirəsi məndə sonsuz bir iftixara çevrilir. Hamıya məlum olan səbəb odur ki, Hacan Orucov, mənim sevimli qardaşım, həm də elin-obanın istəklisi kimi mənən ürəklərdə yaşayır.

Hər dəfə Hacanı düşündükcə və onun adını eşitdikcə xatirələr məni uzaq illərə çəkib aparır. Biz qardaş-bacı kimi bir evdə böyümüşük. O, üç bacının yeganə qardaşı idi. Bacıları onu gözlərinin nuru hesab etsələr də Hacan bacılarına daha çox qayğı göstərərdi. O, anadan gəlmə fitri bir qabilliyətə, ləyaqətə, sevgiyə mənsub idi. Düşünməmiş ağzından söz

çıxarmaz, dediyi hər sözdən gül ətri gələrdi.

Hacan ata-anamıza, qohum-əqrabaya, qonşuya çox yüksək mədəniyyətlə, ehtiramla yanaşan insan idi.

Hamı Hacanı ağıl-kamal mücəssiməsi kimi tanıyırdı. Bu, doğurdan da belə idi.

O, hər şeyin yolunu gözləyən idi. Lakin söz götürən deyildi. Dalaşmağı sevməzdi. Ancaq savaşa məhkum edilərdisə oda-alova dönərdi. O, xüsusilə ermənilərə qarşı amansız idi. Dəfələrlə qudurğan erməniləri şil-küt eləmişdi. Bir dəfə İrəvanda oxuyan dövrdə 7 nəfər erməni Baba Seyidovla onun üstünə gəlib, Hacangili döymək istəyiblər. Lakin Hacanın əlinini suyunu içəndən sonra kor-peşiman aralanıb gözdən itmişdilər. Yaxşı yadımdadı: sovxoz direktoru işlədiyi illərdə bəzən deyirdilər ki, filankəs səhlankardır, onu çıxarıb işlək bir adamla əvəz etmək lazımdır. O, belə söhbətlərə dərhal cavab verməzdi. Özünə məxsus bir təmkinlə, səbrlə öz işinə qapılardı. Həmin söhbətin üstünə bir də qayıdanda deyərdi:

- Həmin adamı işdən çıxardıq, bəs onun ailəsi .

İşdən çox onun ailəsi məni düşündürür.

Qardaşım Hacan Orucov çox vətənsevər, millətsevər istiqanlı adam idi. O, ermənilərin millətimizin başına gətirdiyi müsübətləri sendirə bilmirdi. Bu ağrını ürəyinə salır, bəzən qəzəblənirdi. Xususilə düşmən tapdağında qalmış qədim yurd yerlərimiz, ulularımızın məzarları, dağılmış məscid və abidələrimiz onu çox incidirdi. Bu ağrı - acılar, bu hadisələr Hacanın qəfildən aramızdan getməsinə səbəb oldu. Mərd bir kişi ömrü, igid ömrü yaşayan Hacan bütün eli - obanı yandırıb tökdü. Ən çox, övladlarının və bacılarının ürəyinə dağ çəkdi. Bu dağın adı "Hacan dağı" oldu.



*Ürəkdən yanan ağlar,*
*Dərdimi qanan ağlar.*
*Vaxtsız köçmüş qardaşı*
*Bacılar yaman ağlar.*

Ürəyimdə sözlərim çoxdu. Hacan kimi qardaş itirmiş bir bacıyam! Daha yaza bilmirəm, qəhər məni boğdu... Oxuyanlar məni bağışlasın!

*Qəbrin nurla dolsun, əziz qardaşım!*

***Pərvin (Flora) QƏNBƏR QIZI***

## ÖMRÜMÜ QARDAŞIMA VERƏRDİM



Qardaşım Hacan mənim üçün çox əziz idi.Mən evin kiçik uşağı idim. Anam-atam bizi çox mehriban böyütmüşdü. Qardaşım məni çox istəyirdi. O, mənim adımı Ərəbzəngi qoymuşdu. Pərvin bacım məndən böyük olmağına baxmayaraq qardaşım bizi güləşdirərdi, mən ona qalib gələrdim. O, da əlini-əlinə vurub çoxlu gülərdi. Deyərdi ki, mənim Ərəbzəngi bacım qoçaqdır. Məni məktəbə aparıb-gətirərdi. Evdə dərslərimlə müntəzəm məşğul olardı. Bizim məktəbə tez-tez teatr tamaşası göstərmək üçün Ağbulaqdan, Ardanışdan, Şorcadan və başqa kəndlərdən məktəblilər gələrdilər. Hacan məni də aparıb yanında oturdardı. Bizim məktəbdə tez-tez konsert verərdilər. Budaqov Məmməd tar çalar, gölkəndli Musa müəllim nağara vurardı. Mən də Hacanın yanında oturub sevinə-sevinə qulaq asardım.

Qardaşım çox mehriban, tərbiyəli, hamını sevən bir insan idi. Atamı-anamı çox sevər, heç vaxt sözlərindən çıxmazdı. Anam Hacanın ətrafında pərvanə kimi fırlanar, ona ürəkdən qulluq edərdi. Hacan İrəvanda oxuyanda kənçilərimiz Aftandil, Əli və Məhərrəm ilə birlikdə qalırdı. Anam Hacanın yanına tez-tez gedər və çoxlu azuqə



aparardı. Yaxşı yadımdadır, atam anamı o vaxt üstü açıq böyük maşınlar olurdu, onunla yola salardı.

Hacan anamı İrəvanda gəzdirər və ona çoxlu pay alardı. Anam çox vaxt onun yanından sevincək qayıdardı. Deyərdi ki, mənim balam çox ağıllıdır. Hacan tətilə gələndə atama kömək edərdi.

Bir dəfə atam bərk xəstələnmişdi. Müharibənin acı yaraları onu tərk eləməmişdi. Bu vaxtlar atam sovxoz anbardarı işləyirdi. Hacan özü gəlib onun işlərini gördü. Atamın xəstəliyi qurtarana qədər anbarın bütün işlərini o apardı.

Mən uşaqikən bərk xəstələnmişdim. Hacan 12 gün gecə-gündüz mənim yanımda oturub, mənə qulluq etdi. Qardaşım çox ailə canlı idi. Onun ürəyi çox yumşaq idi. Hacanın öz kəndimizdən başqa qonşu kəndlərdə də çoxlu dostları var idi. O, dostları ilə evə gələndə, anam əldən-ayaqdan gedərdi, onları yaxşı yola salardı.

Hacan İrəvanda oxuduğu vaxt bir dəfə məni yanına alıb ora apardı. O, məni İrəvanda Göy məscidə, üstüörtülü bazara, heyvanxanaya və başqa gəzməli yerlərə aparıb gəzdirdi, istədiyim hər şeyi mənə aldı. Qardaşımın böyüklüyünü mən uşaqikən görürdüm. Həmişə böyük insanların, yaxşı adamların ömür payı qısa olur.

Mən hər gün onun dəsmal və corabını yuyub-ütüləyib ona verərdim. Hacanın evlənməyini mən çox istəyirdim. Bir gün gəlib evdə dedim ki, məktəbdə göyçək bir qız görmüşəm, onu Hacana alın. Sonra dedilər ki, bu qız Əsədov Ağəlinin qızı Minayədir.

Beləcə uşaqıq illəri mehriban-mehriban gəlib keçdi. O

da evləndi, mən də ailə həyatı qurdum. Hacan mənim uşaqlarımı çox istəyər, həmşə onlarla maraqlanardı.

Hacanın bu dünyadan köçməsi biz bacılara ağır bir zərbə oldu .Onun yoxluğu bizim üçün böyük dərddir. Ömrü kiməsə vermək olsaydı, mən ömrümü qardaşıma verərdim. Əfsus ki, belə deyil...

Qardaşım getdi, ancaq onun yerində özü kimi ağıllı, dərrakəli Oruc və Mais var. Onun ağıllı və namuslu balaları var. Allah onların canını sağ eləsin!

*Allah qardaşıma rəhmət eləsin! Qəbri nurla dolsun!*

***Həqiqət QƏNBƏR QIZI.***



## BELƏ ŞƏXSİYYƏTLƏR AZ-AZ OLUR



Hacandan sonra xatirələrlə yaşayıram. İndi ömrün o gözəl günləri mənim üçün xatirələrə köçüb. Hacanlı günləri yad etdikcə o mənə ən şirin arzuları xatırladır. O bəxtəvər, o xoşbəxt günlərin hər saatı, hər günü bir-bir gəlib göz önümdən kino lenti kimi keçir. Hacan olduqca müqəddəs, saf və qətiyyətli bir insan idi. Mən onunla 1960- cı ilin avqust ayının 28-də ailə həyatı qurmuşam. Həmin günün xoşbəxtliyi, eləcə də 35 illik ailə həyatımızın şəhdi - şirəsi olan övladlarımızın dünyaya gəlişi ömürlük təsəlli payına çevrilib. Hacanın baxışlarında bir dünya, bir aləm varıydı. Onun nə demək istədiyini baxışlarından oxumaq mümkün idi. Sevgisi də, qəzəbi də şəvə kimi qara gözlərindən oxunurdu. Hacan nə qədər zəhmli insan olsa da onun sifətində həmişə xoş bir təbəssüm, dodaqlarında xəfif bir gülüş gəzirdi.

Hacanın valideynlərinə, ailəsinə, uşaqlarına olan qaynar məhəbbəti el-oba, camaat arasında da özünü göstərirdi. Çalışırdı ki, ailədə qanıqaralıq olmasın. Eləcə də cəhd edirdi ki, işlədiyi sahədə xoş rəftar yaransın. Hacan övladları üçün nə istəsən edərdi. Xüsusilə ata-anasına çox qayğı göstərərdi. Mənim özümə heç vaxt xətrimə dəyən söz işlətməzdi. Hamının öz yerini bilərdi. Bacılarına, qohum-

əqrəbaya diqqətini yayındırmazdı. Ümumiyyətlə o, olduqca mehriban və səmimi bir insan idi.

Hacan çox danışmağı sevməzdi, ancaq mənalı danışardı. Olduqca təmkinli və səbirli olan bu insan həm də sözü yerində deyər, yeri gələndə güclü yumorla cavab verərdi.

Hacan çox bacarıqlı, qabiliyyətli, eyni zamanda məsuliyyətli bir işçi idi. Hansı işə gedirsə-getsin tezliklə həmin sahədə dönüş yaradar, öz bacarığı ilə diqqəti cəlb edərdi. Gənclik illərində onu Toxluca qoyunçuluq sovxozuna işə götürmüşdülər. Qısa vaxt ərzində bacarığı, qabiliyyəti ilə seçilirdi. Bir qədər bu sahədə işlədikdən sonra o, subay mala ferma müdiri vəzifəsinə təyin olundu. İstər rəhbərlik, istərsə də sıravi əmək adamları onun xətrini çox istəyirdi. Hacan insanları dinləməyi, onlara kömək etməyi özünə borc bilirdi.

Mənim atam Ağəli Əsədov kənddə sovxoz direktoru işləyirdi. Həmin dövrdə Hacan ferma müdiri vəzifəsində çalışırdı. Elə olmuşdu ki, işə bir-iki dəfə gec getmişdi. Əslində hər gün səhər saat 8-də işin başında olardı. Onun işə gecikməsi atamın diqqətindən yayınmır. Bir dəfə atam camaatın içində zarafatyana deyir:

-Hacan, sənin direktorun başqa adam olsa sən işə saat neçədə gələrdin?

Hacan özünə məxsus təmkinlə, tələsmədən deyir ki, saat 8-də. Hamı gülüşür.

Hacan Yanıqpəyə sovxzozunda direktor işləyirdi. Günlərin birində onu bir xeyir işə dəvət edirlər. Süfrəyə hər cür nemət düzüləndən sonra Hacan bir stəkan çay istəyir. Qulluq edənlər bir stəkan çay verib gedirlər. Hacan çayı içmək istəyəndə görür ki, qənd yoxdur, yaddan çıxıb. Çay soyuyur, təzədən süzürlər. Yenə də qənd gətirmirlər. Bu, bir neçə dəfə təkrar olunur. Bu vəziyyəti görən Qara dayı deyir, ay direktor, dərdin alım, çayını niyə içmirsən, çay soyuyur. Hacan özünəməxsus bir şuxluqla azca gülümsəyib deyir: "şəkər olsun ki, çay da soyumasın".

Hamı süfrəyə göz gəzdirir. Görürlər ki, doğrudan da süfrədə qənd yoxdur.

Allah Qara dayıya rəhmət eləsin. Bu gün artıq o da həyatda yoxdur.

Oğlum Oruc ali məktəbə qəbul olunandan sonra Gəncədən İnstitut müəllimləri bizə qonaq gəlmişdilər. Hacan həmişə olduğu kimi yenə də çox sevinc içində idi. Çünki, evə qonaq gələndə onun əl-ayağı yerə dəyməzdi. O, həmişə deyərdi: "Qonaqsız ev suyu soğulmuş dəyirman kimidi".

Orucun müəllimlərinin gəlişi onun ürəyindən idi. Müəllimlər Toxlucanı gəzəndən sonra çox bəyənmişdilər. Yaşıl yamaclar, dörd tərəfdən uzanıb gələn irili- xırdalı dərələr, uca dağlar və yastı təpələrlə əhatə olunmuş axarlı-baxarlı Toxluca kəndinə içindən axıb keçən çay bir ana kimi layla çalırdı. Belə bir mənzərə təbii ki, şəhərdən gəlmiş bu möhtəbər qonaqlara mənəvi zövq verməyə bilməzdi.

Müəllimlərdən biri Hacana dedi ki, Minayə bacı səhər saat 8 üçün xəngəl bişirə bilərmi?

- Əlbəttə bişirər,- deyə Hacan cavab verdi.-Ürəyiniz nə istəsə o, eləyə bilər,- deyib Hacan üzümə baxdı.

Mən baş üstə dedim,- mənim üçün onu hazırlamaq heç də çətin iş deyil. Təki qonaqlar saat 8-də yuxudan dura bilsinlər.

Hacan səhər tezdən, həmin vaxt qonaqları süfrə başına dəvət etdi. Hər şey hazır idi. Xəngəl qonaqların çox xoşuna

gəlmişdi.

Gözlərindən oxunan xoş bir razılıq hissi ilə Hacan üzümə baxıb gülümsündü.

Hacanın 7 övladı var. Mən Tanrıma şükürlər diləyirəm ki, həmin övladların tərbiyəsinə, qayğısına, təhsilinə, ailə həyatına Hacanla birlikdə zəhmət çəkmişəm. Zəhmətimiz isə öz gözəl bəhrəsini verib.

Hacan həmişə deyərdi ki, yaxşı tərbiyə alan övladı valideyinin varı-dövlətidir. Çünki onu dünya malı aldada bilməzdi. O, var- dövlətə susayan insan deyildi. Söz düşəndə deyirdi ki, var-dövlət mənim uşaqlarım, ailəmdir.

Allah-təla Hacanın yurdunda qalan, onun adını uca tutan övladlarının canını sağ eləsin. Əgər varlıq və yoxluq, həyat və ölüm böyük yaradanın əbədi qanunudursa, nə etmək olar.

Hacan haqda çox söz demək, çox yazmaq olar. Hacan kimi mərd, ağıllı, dəyanətli, səxavətli bir həyat yoldaşını itirmək mənim üçün çox ağırdır. Həyatda belə şəxsiyyətlər az-az olur.

*Allah onun ruhunu şad eləsin!*

***Minayə AĞƏLİ QIZI ORUCOVA***



## ATAM MƏNİM - MÜƏLLİMİM MƏNİM

**Ata müqəddəsdir! Mən hələ də özümə bu sualı verirəm: - O, mənə ata kimi daha əzizdir, yoxsa müəllim kimi?**

**Uzun müddət vəzifədə işləyib pula, var-dövlətə, şan-şöhrətə aldanmamaq, ona qul olmamaq, öz namusu, qeyrəti və vicdani ilə yaşamaq hər kişinin işi deyil.**



*Minayə xanım, Oruc, Məqsudə, Leyla, Minayə və Hacan.*

Kəndimizə direktor təyin edildikdən bir müddət sonra bir dəfə mənə belə bir söz dedi:- "bu kənddə əliəyrilik, oğurluq edən, pis dolanan, ac qalan olarsa onda onun əsl günahkarı mən olaram və ona görə də tutulacaq bir nəfər adam olarsa o da mən olmalıyam, çünki bu kəndin rəhbəri mənəm. Əgər erməni bu kənddən bir nəfəri tutsa bizim kökümüzə söyərlər.

Ermənistan Kənd Təsərrüfatı Nazirliyinin təchizat şöbə-

sinin müdiri sovxozun qarajına gəlib, baxış keçirib və sürücülərə qarşı nalayiq hərəkətlər edib. Həmin gün atam İrəvanda olub. Səhəri gün o, yenə gəlib və həmin vaxt atam da qarajda olub. Sürücələr ona şikayət ediblər ki, bu erməni dığası dünən bizə qarşı kobudluq etdi.

Atam hirsələnərək sürücülərə deyir:

- Bəs siz niyə dinmədiniz?

Sonra şöbə müdirini vurub yıxır və təpikləyir. Erməni öz maşınına (onda tək-tək adam palıdı QAZ-24 volqa sürərdi) oturub uzaqdan onu hədələməyə başlayır.

Atam deyir:

- Siz ancaq buna layiqsiniz. İstəyirsən İrəvanda yer təyin elə, gəlim orada danışaq.

O, cox dözümlü və səbirli bir adam idi. Yanıqpəyədə direktor işləyən vaxt bir dəfə nədənsə bərk hirslənmiş Oruc müəllim (Allah hər ikisinə rəhmət eləsin) onun kabinetinə girib hirsini gizləyə bilmir, bir xeyli danışır və nəhayət sözünü tamama yetirir.

Atam sakit və təmkinlə dillənir:

- Qurtardınmı, Oruc müəllim?

- Qurtardım, -deyə o, cavab verir.

- Onda icazə ver, mən öz işimlə məşğul olum!

Bir belə qara-qışqırıqdan sonra Oruc müəllim sakit halda çölə çıxır. Soruşurlar ki, nə oldu, nə cavab aldın?

O, başını aşağı salıb "heç nə" -deyə peşmancasına cavab verir.

Artıq nəvəsi olan atamın babamin yanında siqaret çəkdiyini heç vaxt görmədim.

Qeyri adi hafizəyə, dünyagörüşə, elmə-biliyə malik, heç bir ədalətsizliyə biganə qalmayan, hər bir şəxsə yalnız



yaxşılıq etməyə çalışan, öz elini, obasını, vətənini canından cox sevən bir adamın 57 yaşında dünyasını dəyişməyi onun övladları, qohum-əqrabası, dost-tanışları üçün son dərəcə ağır olsa da, neyləmək olar. İnsan özü də bir şamdır, nə qədər gur yanarsa, bir elə tez əriyəcək.

**1915-1918-ci illərdə** ermənilərə qan uddurmuş, cəmisi 39 il yaşamış və cox böyük qəhrəmanlıqlar göstərmiş, sorağı Qərbi Azərbaycandan cox-cox uzaqlara gedib cıxmış Hüsənli tayfasının övladı şəhid Topal Orucun nəvəsi, müharibə illərində yüzlərlə adamı aclıqdan qoruyan, cəmisi 4 il oxumağına baxmayaraq türk tarixini və coğrafiyasını (Anadolusundan - Osmanlısınadək) qeyri adi səviyyədə bilən, unikal yaddaşa malik, dosta sədaqəti, qeyrəti, namusu ilə seçilən Qənbər kişinin oğlu başqa cür ola bilməzdi.

- Gördüyünü yadda saxlamaq, yadda saxladığından nəticə çıxarmaq, nəticə çıxardığına əməl etmək bu tayfa üçün bir qan yaddaşıdır.

*Bizlərə verdiyin məhəbbət, elm, sədaqət, qeyrət, dünyagörüş və qoyub getdiyin hörmət üçün sənə və sənin kimi Hüsənli tayfasının digər ağsaqqallarına minnətdarıq, atam mənim, müəllimim mənim!*

*Allah Sizlərə rəhmət eləsin və bizlərə (ömür verən Allahdır) Sizlərin nail olduğu hörməti qismət etsin!*

***Oruc HÜSƏNLİ***

## MƏNƏVİ DÜNYAMIN GÜNƏŞİ

Hər bir ləyaqətli övlad kimi mən də atamın xatirəsini əziz tutmuşam və ömrüm boyu da tutacağam. Hər övlada öz atası əziz olduğu kimi atam Hacan Orucov da mənə olduqca əziz və müqəddəsdir. Mən əlimə qələm alıb atam haqda yazmaq istərkən hər şeydən öncə onun camaat, el-oba arasında olan hörmətini, nüfuzunu düşünürəm. Eyni



*Soldan: Mais, Zülfiyyə, Toğrul, Tural*

zamanda ailədə, qohum-qonşu arasındakı səmimiyyətinə, ləyaqətinə, qayğısına nəzər salıram.

Atam Hacan Orucovun bacarıq və qabiliyyətini, mədəniyyətini göz önümə gətirib fəxr edirəm.

Elin-obanın yüksək səviyyədə qəbul etdiyi bir insan haqda, yəni atam Hacan Qənbər oğlu Orucov haqda ürək



sözlərimi alınaçıqlığı ilə demək istəyirəm.

Hər şey ailədən başlandığına görə əvvəla onu deyim ki, atam evdə çox mehriban, anama və uşaqlarına qarşı diqqətli, alicənab bir ailə başçısıydı. O, uşaqlarının hamısın eyni səviyyədə sevər, əzizlərdi. Eyni zamanda Qənbər babama və Qosdan nənəmə daha çox qayğı göstərər, onların hər an qulluğunda durmağı özünə borc bilərdi. Bacılarının xətrini çox istər, daim onlarla nəfəs alardı.

Onun ailədəki davranışı bu gün mənim üçün, eləcə də qardaş-bacılarım üçün bir məktəbdir. Allah-təla atamı halal iş, halal zəhmət, halal çörək üçün yaratmışdı. O, hansı vəzifədə işləməyindən asılı olmayaraq üzərinə düşən vəzifəni yerinə yetirmək üçün və eləcə də insanlara xidmət üçün əlindən gələni əsirgəmirdi. Üstünə iş üçün gələn hər kəsin sözünü yerə salmaz, çətin də olsa ona müsbət cavab verməyə çalışardı.

Atam məşhur bir tayfanın ləyaqətli davamçısı və nümayəndəsi idi. O, bu məsuliyyəti dərindən dərk elədiyini bilirdi. Anlaşılmaz bir işin hardasa tayfasının adına ziyan gətirəcəyindən ehtiyat edərdi. Ona görə də sovxoz direktoru kimi çətin bir vəzifədə hamının könlünü almaq, ruhunu oxşamaq heç də asan məsələ deyildi. Xalq arasındakı hörməti atama olan inamı yüksək səviyyəyə çatdırmışdı. Ona inanan insanlar heç vaxt narazı qalmazdılar.

Atam çox həssas, hər kəsin ürəyini üzündən oxuyan mötəbər bir şəxs idi. Bəzən bizim demək istədiyimiz sözü bizdən əvvəl özü açıqlayırdı.

Atam milli mənəviyyata bağlı olduğuna görə qardaşım Oruca da, mənə də Vətəni, milləti candan artıq sevməyi

tövsiyə edirdi. O, həmişə deyərdi ki, dosta dost, düşmənə düşmən gözü ilə baxmaq lazımdır.

Qardaş-bacılarımın hamısı kimi mən də atamın adı-sanı, şərəf-şanı ilə fəxr edirəm. O, ağıllı-kamallı olduğu qədər də namuslu, qeyrətli, təəssübkeş bir Vətən oğlu idi.

Dünyaya gələn hər bir insan bir gün köçməlidir. Atam Hacan Qənbər oğlu da fani dünyadan əbədi dünyaya köç etdi. Təsəllim odur ki, özündən sonra bizlərə baş ücalığı gətirən müqəddəs, saf, təmiz bir ad -Hacan adı qoyub getdi. Bu ad mənim üçün dünyanın hər naz-nemətindən dəfələrlə üstündür. Mənim mənəvi dünyamın günəşidir atam!

*Ruhun şad olsun, əziz atam!*

***Mais HACAN OĞLU***



## MƏNİM ATAM

Hər bir insanı həyata bağlayan İlahidən gələn bir varlıq, bir qüvvə olur. Bu elə bir varlıq, elə bir qüvvədir ki, aldığın nəfəsi də bəlkə bu qüvvə ilə bağlayırsan. Bizim ailəni də həyata bağlayan İlahi bir varlıq atam Hacan Qənbər oğlu Orucov olub.

Həyatda gördüklərimin, eşitdiklərimin, bildiklərimin ən



*Xaləddin, Səmayə (Rəna), Elmir, Elmira, Minayə, Tural*

safı, təmizi, ülvisi idi. O, öz şux qaməti, gözəl siması ağır-yana hərəkəti ilə seçilərdi. Həmişə deyərdi ki, bir qarışqanı yarada bilmirsənsə heç vaxt onu taptalama. Onun kədəri də, sevinci də gözlərində idi. Çox sakit təbiətli bir insan olduğu üçün dilində deyə bilmədiyi sözləri həmişə onun gözləri deyərdi. Ailədə çox mehriban, sakit, qayğıkeş ailə başçısı olduğu kimi, həddindən artıq səliqəli bir insan idi. Allah-təalanın insana bəxş etdiyi ən gözəl xüsusiyyətlər

onun üzərində cəmləşdirilmişdi.

Atam babamın dediyinə həmişə diqqətlə qulaq asar və axırda mehriban- mehriban ona baxıb gülümsəyərdi. O, həmişə işdə olduğuna görə evə nahara gec gələrdi və babama təklif etməmiş süfrədə oturmazdı. Onun atasına olan məhəbbəti övladlarına keçmişdi. Bizim də hər bir işimizi babam görərdi, babam həll edərdi. Nənəm Qostan Məşədi Məmməd qızı həmişə deyərdi ki, aldığım nəfəs Hacandır. Onsuz mənə həyat yoxdur. Nənəm gözəl, xanım-xatın bir qadın idi. O, qəşəng geyinməyi çox sevərdi. Ona görə də atam hara getsə onun üçün nə isə alardı. İşdən gec gələndə nənəm rahatlıq tapmaz, tez-tez deyərdi: "balam sağ-salamat gəlib çıxsın". O, gələndə nənəm onu uşaq kimi danlayar, həm də sevələyə-sevələyə onun ətrafına dolanardı. Atam da mehriban-mehriban deyərdi: - Mən heç kimi incitmirəm ki, məni də incidələr.

Atam öz bacılarını çox sevərdi. Onlarla söhbət edəndə şirin-şirin uşaqlıq illərindən söz açardı. Nənəmdən sonra böyük bacısı Məryəm bibimlə daha çox ünsiyyətdə olar və dərdləşərdilər. Onların saatlarla davam edən şirin söhbətlərinə mən həsəd aparardım.

O, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar etməyi bacaran bir insan idi. Anam Minayə Ağəli qızı ziyalı ailəsində anadan olub. Ana babam Ağəli Abduləli oğlu ağır, samballı bir kişi idi. Ana nənəm Bahar Xəlil qızı dünyagörmüş ağıllı və müdrik bir qadındır. Atam həmişə bu ailəyə hörmət edib qayğı göstərərdi.

Bizim ailə on bir nəfərdən ibarət idi. Bu ailədə hər kəs öz bacardığı qədər atama qulluq edirdi. Anam ağıllı və bacarıqlı bir qadın idi. O, yeddi övladına bacardığı qədər



yaxşı tərbiyə verməyə çalışardı. Atama qarşı çox diqqətli olduğu üçün bizi də ona qarşı çox diqqətli və mehriban böyütmüşdü. Ailəmiz böyük olduğuna, anamın işinin başdan aşdığına baxmayaraq, axşamdan atamın əyin-başını bir daha səliqəyə salıb yatağının yanına qoyardı. Səhər obaşdan durub ona qulluq edər və səliqə ilə yola salardı. Atam çox kövrək idi. Onun hamıya ürəyi yanar, rəhmətə gedən insan üçün göz yaşı axıdardı.

Onun Yanıqpəyə kəndinə kolxoz sədri getdiyi gün anam içəridə hazırlıq görürdü. Atam çox kövrəlmişdi, özünü saxlaya bilməyib həyətə çıxdı və maşının yan tərəfinə keçib orada göz yaşlarını sildi. (Mənim fikrim onda olduğu üçün onun narahatlığı gözlərimin önündən getmir). O, heç vaxt ailəsindən kənarda uzun müddət yaşamamışdı. Bəlkə də onu narahat edən bu idi. Babam onu yanına çağırıb dedi ki, bizdən narahat olma, get işin uğurlu olsun. Babam evdə hər işi özü görərdi, ona qıymazdı. Bunu o özü yaxşı bilirdi. Onlar kiçik yaşlı uşaqları, yəni bacım Arzu və Elzanı, qardaşım Oruc və Maisi özləri ilə apardılar. Bacım Almaz, Solmaz və mən babamla nənəmin yanında qaldıq. Biz yeddi uşaq olduğumuza baxmayaraq atam heç vaxt bizim xətrimizə dəyməmişdi. O, həmişə bizimlə sakit və mülayim davranardı. Nəvələrini çox mehribanlıqla dinləyər və dindirərdi. Leyla anadan olan gün onun sevinci iki qat olmuşdu. Həmişə bu körpə uşağın hərəkətlərindən böyük sevinclə danışardı.

Atam və babam bizi "mama" deyə çağırardı. Böyüklərdən aldığımız, yəni onların bizə verdiyi əxlaq və tərbiyəyə görə həmişə onlara borclu və minnətdarıq. Mən nə vaxt onlara getsəm o, mənə işim haqqında çoxlu suallar verər və

maraqla qulaq asardı. Həmişə deyərdi ki, mühasibatlıqda işləmək qadın üçün ən gözəl sənətdir. Çalış o sənəti dərindən öyrən. Bu sənətdə ruslar və ermənilər daha çox olublar, nəinki bizim azəri qızları.

Məni həyatda hər bir işə müsbət mənada alışdıran atamın sözləri, nəsihətləri olub desəm daha düzgün olardı. Mən həmişə onunla qürur duymuşam və onun başını uca tutmuşam. Atamın həyatda yoxluğu nə qədər ağır və acı olsa da onun xatirələri şirin və yaddan çıxmazdı.

Atam haqqında olan xatirələr onun biz övladları üçün dəyərli və tükənməzdir. Onun vəfatından bu günə qədər hər bir an onun haqqında danışılır və düşünülür. O, bu həyatdan gözü tox, könlü şad gedib.

*Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.*

***Rəna HACAN QIZI***



## MƏN ONA ÇOX OXŞAMIŞAM

Atam mənim üçün çox dəyərli bir insan idi. Onun haqqında danışmaqla qurtarmaq olmaz.

O, rayona gedəndə bazarlıq edərkən çalışırdı ki, satıcıların hamısından meyvə alsın. Deyərdi ki, qoy hamı alver edib sevinsin.



*Fazil, Almaz , Amid, Anar*

Anam həmişə deyərdi ki, sən balaca olanda bir dəfə bərk xəstələndiyin zaman o, sənin başının üstündə durub ağlayırdı. Atam bizi heç vaxt danlamazdı. Hamının de-

diyinə görə həm xasiyyətcə, həm də zahiri görünüşcə mən ona daha çox oxşamışam. Atamın voleybol oynamağı mənim yaxşı yadımda qalıb. Anam bizi adətən tez yatırardı. Atam işdən gələn kimi bizi soruşardı. O, bilirdi ki, anam bizə yaxşı qulluq edir. Mən çox sakit olduğum üçün məni daha çox istəyirdi. Buna səbəb bəlkə də mənim anama daha çox oxşarlığım olub. Çünki o, anamı da çox istərdi. Atam bilirdi ki, anam həyatda ən ağıllı və səliqəli bir qadındır.

Belə bir atanı itirmək çox agır olsa da mənə təsəlli verən odur ki, belə bir atanın övladı olmuşam. Mən bununla fəxr edir və qürur duyuram. Allah ona rəhmət eləsin.

*Almaz (SÜRƏYYA) HACAN QIZI*



## ONA QAYĞI GÖSTƏRƏNDƏ FƏRƏHLƏNİRDİM

Hamı kimi biz də öz valideynlərimizi çox istəmişik. Atam yanımda olanda mən özümü dünyanın ən xoşbəxt adamı hesab edirdim. O, mənim üçün ən böyük insan olub. Atam öz əxlaq və tərbiyəsinə görə elin-obanın dərin hörmətini qazanmışdı. O, özündən sonra elə bir iz qoyub ki, bu hamımız üçün böyük bir məktəb olub. Mən ailədə ərköyün bir qız olmuşam. Yaşım az olmağına baxmayaraq həmişə böyüklər kimi düşünmüşəm. Atam mənim sir yoldaşım olub. Biz həmişə saatlarla söhbət edər və dərdləşərdik. Onun qulluğunda durmaq, ona qaygı göstərmək mənim üçün sevinc idi. Atam işdən gələnə qədər mənim gözlərimə yuxu getməz, tez-tez qalxıb pəncərədən baxardım. Hətta maşın səsi eşidən kimi pəncərənin yanında durub o, evə keçənə qədər gözləyərdim.



*Oqtay, Solmaz, Ülvi, Elnur*

Atamla bağlı çox xatirələrim var. Nənəm həmişə namaz qıldıqdan sonra atama belə dua edərdi: "Allah, sən mənim bir balamı öz qanadın altında saxla, sən də təksən, balam da təkdir!"

Nənəmin bu duasını eşidəndə çox sevinərdim, nənəmin sözlərini mən də təkrar edərdim. Biz hec zaman atamı tək hesab etməzdik, çünki babam həmişə ona həm ata, həm də qardaş olub. Atam qədər babam da bizim qayğımızı çəkib ki, oğlu özünü tək hesab etməsin.

Atam Gəncədə oxuyan zaman biz uşaq idik, oradan bizə muncuq alıb gətirərdi. Biz də tez onu qonşunun qızlarına göstərib öyünərdik:"bax atam alıb."

Qış idi, bir gün atam Oruca İrəvandan bir xizək alıb gətirdi. Evə gələndə gecə saat 9-10 olardı. Oruc sevincindən gecə saat 2-dək xizək sürdü.

**1985-ci ildə** atam xəstələnmişdi. Bakıya həkimə gəlmişdi. Atam kəndə qayıdanda mən də onunla gedəsi oldum. Atam yanımda olanda o qədər sevinərdim ki, hər şey yadımdan çıxardı. Mən uşağın paltarlarını da sevincimdən qatarda qoyub getmişdim.

İsti yay günü idi. Atam işdən evə gəlib dedi, "mama", bir sərin su olsa içərdik. "Bu sözü mən eşidəndə tez cürdəyi götürüb quzeydəki bulaqdan su gətirdim. Bu bulağın suyu çox soyuq olardı. Mən hər gün atam üçün oradan su gətirərdim. Bir gün mən su gətirən zaman atam işdən evə gəlmişdi. O, məni görüb gülümsündü və mənə 2 dənə daraq verib dedi: "mama", bunları sənə almışam". Atam hər balaca işə qiymət verən insan idi. Atamın ən



sevincli gününün biri də Orucun qızı olanda idi. Hər gün Leylanın yeriməyini və danışmağını gözləyirdi. Bir gün işdən evə gələndə dedi: Solmaz, televizoru aç görək xəbərlərdə nə verilir. Leyla daha həm yeriyir, həm də danışır. Mən evə gələndə qoymur televizora baxım. Əlimdən tutub ya həyətə, ya da yataq otağına aparıb uzandırır. Özü də belə deyir: baba, sən də uzan. Bundan sonra sinəmin üçtünə çıxıb məni qıdıqlayır, öpür, atılıb-düşür, qoymur qalxım. Böyük bacımın oğlu Elmir çox vaxt bizdə qaldığı üçün xasiyyəti də, davranışı da atama oxşayır. Atam çox yaxşı voleybol oynayardı. O, voleybol oynadığı zaman mən gedib ona baxardım.

Evdə üçüncü qız olmağıma baxmayaraq hamısından uca boy idim.

Atam həmişə belə deyirdi: Solmaz Mirəsdə nənəmə oxşayır. Hərəkəti də, davranışı da elə bil onun özüdü.

Bəli, mən atamı həm ata kimi, həm də yaxın dost kimi sevmişəm. O, heç vaxt nə qardaşlarımın, nə də bacılarımın xətrinə dəyməzdi.

Mən evdə heç kəsə qıymazdım, çox işin dalınca özüm gedərdim. Babam Qənbər kişinin çoxlu arısı var idi. Babam yay aylarında arını dağ ətəyinə, yəni "Kərəmbiçən" deyilən yerə aparırdı. Mən babamla getməyə qardaşım Orucu qoymaz və özüm gedərdim. Biz çadır qurub babamla orada qalardıq. Atam deyərdi ki, mən ancaq Solmaza etibar edirəm. Solmaz atamın yanında olanda mən rahat oluram. Bu vaxt mənim 11-12 yaşım ancaq olardı. O, vaxt mən elə fikirləşirdim ki, babama mən daha yaxşı qulluq edərəm.

Çünki biz babamızı atamız qədər çox istəyirdik. Atam iş adamı olduğu üçün bizim tərbiyəmizlə anam məşğul olub, babam isə həmişə qayğımızı çəkib.

Atam Suraxanı rayonunun Qaraçuxur qəsəbəsi Mənzil Kommunal Təsərrüfat Birliyinin özəlləşdirmə şöbəsinin müdiri işləyirdi. Həmin vaxt biz Qaraçuxurda yaşayırdıq. Demək olar ki, onun iş yeri evimizə yaxın idi. Atam o zaman Bakıxanov qəsəbəsində yaşayırdı. O, çox vaxt günorta naharına bizə gəlirdi. Onunla olan ən xoş anlarımdan biri idi. Nahar vaxtı o, şirin-şirin söhbət edər, deyib gülərdi. Nəvələri ilə xeyli oynayıb sonra gedərdi. Ancaq inanılmaz bir acı gün bizi də sarsıtdı. Mən xoşbəxtəm ki, mənim belə bir atam olub. İndi biz ata nəvazişi, ata məhəbbətini, ata nəsihətini qardaşım Oruc və Maisdən alırıq.

***Solmaz HACAN QIZI***



## MƏN ONA HƏMİŞƏ DİQQƏTLİ OLMUŞAM

Mən atamın yanında çox qaldığım üçün onunla olan xatirələrim daha çoxdur. Atam mənim ən yaxın dostum olub. Mən evdə babamı ata əvəzi, atamı isə ürək dostum, sirr



*Xudayar, Arzu, Səbinə, Cavid*

qardaşım bilmişəm. Atam mənim nazımla çox oynayardı. O, həmişə mənə deyərdi ki, sənin əllərin qızıldır. Mən evdə çox çalışanda razı olmaz, mənə qıymazdı. Onun səliqə-səhmanı ilə anam məşğul olmağına baxmayaraq, mən həmişə ona diqqətli olmuşam. O, xəstələnən zaman həmişə məni çağırardı. Mənə elə gəlirdi ki, mən ona qulluq edəndə daha çox ürəyindən olurdu. Bir dəfə anam Bakıya qardaşım Orucun yanına getmişdi. Bu vaxt babam yataq xəstəliyinə düşdü. Atam babamın bu halına dözə bilmirdi. O, babamı çox sevər və istəyərdi. Mən bütün

günü babamın qulluğunda durardım. Ona qayğı göstərər, yanından getməzdim. Gecələr çox az yatardım ki, atam narahat olmasın. O, çox vaxt yanımdan getməzdi və deyərdi ki, Arzu, yaxşı ki, sən varsan. O, bütün günü mənimlə birlikdə babamın qulluğunda dururdu və otaqdan çıxan kimi bir tərəfə çəkilib gözlərini silərdi. Atam işdən gələn kimi soruşurdu: Arzu, dədəm yemək yeyə bildimi? Mən məcbur olub yalandan deyərdim ki, bu gün yaxşı yedi. Bu zaman onun gözləri gülərdi, uşaq kimi sevinərdi. Atamın bu halına ürəyim parça-parça olardı. Atamdan sonra başa düşdüm ki, atam üçün atasını itirmək nə qədər acıdır. Mən atam haqqında nə qədər danışsam da doymaram. Ancaq vaxtsız əcəl onu bizdən tez aldı.

*Allah rəhmət eləsin!*

***Arzu HACAN QIZI***



## HƏYATIMIN ŞİRİN ANLARI



Həyatımın ən şirin anları atamla keçirdiyim günlərdir. Mən evin ən son uşağı olduğum üçün həmişə əzizlənmişəm. Mən nə istəmişəmsə atam mənim üçün onu edib. Mən atamla mağazaya gedəndə sevinərdim. Çünki nə istəyirdimsə o, heç vaxt etiraz etmirdi. Atam çox ürəyi yumşaq, uşaqları sevən bir adam idi. O, həmişə mənə deyərdi: "mama" sən qoçaqsan, hər işi bacarırsan. Mən onun sözlərindən fərəhlənib yaxşı olmağa çalışırdım. Atam kənddə sovxoz direktoru işləyəndə mən uşaq idim, ona baxıb fərəhlənərdim.



*Əbülhəsən və Elza uşaqları ilə birlikdə*

Həmişə deyirdim ki, mən də atam kimi direktor olacağam. O, ağayana, ağır təbiətli bir vəzifə adamı idi. Mən texnikumda oxuyanda dərsdən qaçıb kinoya getmişdik. Sabahısı dərsə gələndə müəllim bizi dərsə buraxmadı ki, valideynləriniz gəlsin. Tələbə yoldaşlarımın çoxu rayon uşaqları olduqları üçün narahat oldular. Mən axırda məcbur olub atama düzünü dedim və bildirdim ki, tələbə yoldaşlarımın valideynləri adından da iştirak et. Atam sözümü yerə salmayıb məktəbə gəlib rəhbərlik ilə görüşdü. O, mənim və tələbə yoldaşlarımın adından üzr istədi və bir daha təkrar olunmayacağını bildirdi. Atam orada belə bir cümlə işlətdi ki, siz bu uşaqları "4" qiymətlə qəbul etmisiniz, indi isə "3" qiymətlə yola salmaq sizin üçün çətin olmaz. Bu uşaqları incitməyin. Atam böyüyü də, kiçiyi də müdafiə etməyi sevərdi. Ona görə də atamdan çox örnək götürərdik ki, ona layiq övlad olaq. Mən fəxr edirəm ki, belə bir insanın övladı olmuşam. Belə bir atanı itirmək çox çətin olsa da, onun xoş xatirələri bizim üçün dəyərli və əzizdir. Bu dəyəri həmişə dəyərləndirmək onun övladlarının müqəddəs borcudur.

***Elza HACAN QIZI***



## YARIMÇIQ QALMIŞ ÖMÜR



Həyat insana bir dəfə verilir və bu həyatı kimin necə yaşayacağı heç kəsə bəlli deyil. Həyatda elə şəxslər var ki, onlar özlərinin keçdiyi ömür yolunda qısa bir yol adlasa da həyatda öz layiqli izlərini buraxırlar. Belə bir şəxs olan Hacan Orucov da öz qısa ömür yolunda xalqının, el-obasının, dostlarının və bir sözlə onu tanıyan-tanımayan hər kəsin ürəyinə yol tapmış, orada əbədi yaşayır və yaşayacaqdı.

H.Orucov elinə, obasına daha möhkəm bağlı bir şəxs, bir insan idi. O, Toxluca kəndində sovxoz direktoru işlədiyi dövrdə kənd əhalisinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün hər cür şəraitin yaranmasını təmin etmişdi.

**1988-ci ildə** ermənilərin törətdiyi vəhşiliklərə dözə bilmirdi. O, Bakı şəhərində məskunlaşsa da doğma torpağının həsrətinə, o torpaqda uyuyan ata-babalarımızın qəbirlərinin kimsəsiz qalmasına heç vaxt dözə bilmirdi. Daimi Vətən həsrəti ilə yanan H.Orucov ürəyində gəzdirdiyi ağır yüklə həyatdan köçdü. Bu itki bu günə qədər tək övldlarının deyil, Hacanı sevənlərin qəlbində əbədi olaraq dərin bir iz buraxmışdır.

*Allah rəhmət eləsin!*

*Sən xalqını sevə-sevə yaşadın,*
*Göyçə adlı bir mahalda, ay Hacan.*
*Qəm yükünü ürəyində daşıdın,*
*O qəm yükü üzdü səni, ay Hacan.*
*Yanar qoydun bizləri sən, ay Hacan.*

*İncimədin bir kimsənin sözündən,*
*Heç çıxmadın hirsləndə özündən.*
*Bilinmədi hirsin-hikkən üzündən,*
*Sən ömrünü puç eylədin, ay Hacan.*
*Yanar qoydun bizləri sən, ay Hacan.*

*Dağ başını duman aldı, çən aldı,*
*Lalə, nərgiz boynun əydi, saraldı.*
*Şimşək çaxdı, bulud yaman ağladı,*
*Sən ömrünü puç eylədin, ay Hacan.*
*Yanar qoydun bizləri sən, ay Hacan.*

*Gülə-gülə üz çevirdin dünyadan,*
*Şikayətin heç olmadı zamandan.*
*Bir ox kimi tez ayrıldın kamandan,*
*Qayıtmadın öz yerinə, ay Hacan.*
*Yanar qoydun bizləri sən, ay Hacan.*

*Övladların həsrət qaldı üzünə,*
*Canlarını qurban dedi gözünə.*
*Xaləddin də ehtiyacdı sözünə*
*Niyə bizi atıb getdin, ay Hacan.*
*Yanar qoydun bizləri sən, ay Hacan.*

***Xaləddin MƏMMƏDOV***



## ONUN KÜRƏKƏNİ OLMAĞIMLA FƏXR EDİRƏM



Mən Hacan dayını ilk dəfə 1978-ci ildə yaxından gördüm. Kənddə Məhərrəm dayı ilə Sərvəzin işlədikləri mağazadan nə isə alırdım.

Bir də eşitdim ki, orada olan adamlar "Orucov gəlir" -deyə pıçıldaşırlar. Məndə maraq yarandı ki, Orucov kimdir? O, mağazaya daxil olanda hamının onu necə səmimi hörmətlə qarşılamaları məni çox heyrətləndirdi.

Sonralar bildim ki, bu hörmət onun vəzifəsinə deyil, şəxsiyyətinə olan hörmət imiş.

Bir ifadəni mən çox tez-tez təkrar edirəm: "Həyatda elə adamlar var ki, onların yaşamaq hüquqları, elə adamlar da var ki, onların ölmək hüquqları yoxdur".

Çox böyük ürək yanğısı ilə Hacan dayının ikinci kateqoriyaya aid olmasını həmişə xatırlayıram.

Artıq 26 ildir ki, mən də onun ailəsinin üzvüyəm. Həmişə, hər yerdə belə bir kişinin, onun xanımı Minaya xalanın kürəkəni olmağımla fəxr etdiyimi söyləmişəm. Bu isə təsadüfi olmamışdır. Çünki ilk gündən təməli Hacan dayı tərəfindən qoyulmuş, bu gün də davam etdirilən bir ənəni bu uzun müddət ərzində mən yaşadıram. Fazil heç zaman nə Orucdan, nə də Maisdən seçilmədi!

Ailə qurduğum bu illər ərzində mən heç bir zaman qısqanc-

lıq hissi yaşamadım. Çoxlarını bu təəccübləndirsə də, onun səbəbini həmişə belə izah edirəm : Hacan dayının və Minaya xalanın qızına inanmamaq (mənim aləmimdə qısqanclıq inamsızlıqdan yaranır) ən azı ağılsızlıq əlaməti dir.

Bu ailədə mən dəfələrlə çox gözəl bir tərbiyənin təcəssümünü gördüm: ata evə daxil olanda bütün ailə üzvləri ayağa qalxardı, onun dincəlməsi üçün maksimum şərait yaranardı, xanımı tərəfindən ona böyük qayğı vardı, uşaqları onu tanrı qədər sevərdilər, valideynləri tərəfindən əvəzolunmaz sevimli övlad idi.

Daha bir fakt - adətən rəhbər vəzifədə işləyən adamın ailəsi (xüsusən də atası, xanımı) onun işlərinə müdaxilə edir lər, ancaq bütün kənd əhlinin də dediyi kimi, rəhmətlik Qənbər kişi bir dəfə də olsa onun rəhbər işinə qarışmadı.

Təəssüf ki, artıq 12 ildir ki, Hacan dayı aramızda yoxdur. Qoy bu sözlər heç də qəribə səslənməsin: bu illər ərzində ruhən o həmişə bizimlə olmuş, övladları, xüsusilə də xanımı Minaya xala tərəfindən böyük hörmətlə yad olunmuşdur.

Hacan dayı hafizəmdə alicənablıq simvolu kimi qalmış- dır -səsindəki təmkin(məncə haylı-küylü yüksək səs intellek tin aşağı olmasına dəlalət edir), hərəkətlərindəki kişi ağırlığı, başqalarının işlərinə qarışmamaq, hamıya kömək et mək, valideynə böyük hörmət, övladlara sonsuz məhəbbət..

Əziz oxucu! Mənim tərəfimdən yazılmış iki səhifəlik bu yazını - illər boyu demək istədiyim səmimi etiraflar, ürək sözləri, minnətdarlıq hissi, statusu ilə həmişə fəxr etdiyi bir kürəkənin içindən gələn kəlamlar kimi qəbul edin.

*Qoy onun ruhu həmişə şad olsun!*

***Fazil İSMAYILOV***



## O, ŞƏXSİYYƏT İDİ



Müdriklər deyiblər ki, həyat insana bir dəfə verilir. Gərək elə yaşayasan ki, sonra peşmançılıq hissi keçirməyəsən. Bu müqəddəs tövsiyə gözəl insan, xalqını ürəkdən sevən Hacan Qənbər oğlu Orucovun mənalı həyat yoluna şamil edilmişdir. Ömrü boyu onun əsil inam yeri halal zəhməti və gərgin əməyi olub.

Həddən artıq sadə, qayğıkeş, olduqca həssas, kövrək qəlbli Hacan dayı haqqında söz demək, xatirə yazmaq çətin, məsuliyyətli və şərəfli bir işdir. Çünki o yaşadığı dövrlərdə təkcə Göyçə mahalında deyil, Qaraqoyunlu dərəsində də böyük hörmətə malik olmuşdur.

Hacan dayı bacarıqlı və yüksək təşkilatçılıq qabiliyyətinə malik olduğuna görə onu 1975- ci ildə Yanıqpəyə kəndinə sovxoz direktoru təyin etmişdilər. Mənim də Hacan dayı ilə ilk tanışlığım həmin ilə təsadüf edir. Həmin ilin yay ayı idi, atamla mən kəndimizdə yolun kənarında dayanmışdıq. Həmin vaxt yanımızda "UAZ" markalı maşın dayandı və gülərüz bir kişi düşdü, atamla səmimi görüşdülər. O, atamla şirin-şirin söhbət edir, ara bir isə gülümsəyirdi. Bir qədər söhbət etdikdən sonra maşına əyləşib getdi. Bu vaxt mən atamdan həmin gülərüz insanın kim olduğunu soruşdum, mənə dedi ki, Yanıqpəyə kəndinə təyin olunmuş sovxoz direktoru Hacan Orucovdur. Sonra isə onların ata-baba dostluğu haqqında mənə bəzi bilgiləri danışdı. Həmin vaxt atam Əmirxeyir kənd məktəbində müəllim işləyirdi.

Sonradan atamı Əmirxeyir kəndinə sovxoz direktoru təyin etdilər. O vaxtdan atamla Hacan dayı arasında olan dostluq, qardaşlıq əlaqəsi daha da genişləndi. O vaxtlar mən belə düşünürdüm ki, onlar bir-birini görməsələr dura bilməzdilər. Beləcə iki ailənin daimi yaxınlıq təməli qoyuldu. Hətta 1978-ci ildə Hacan dayının bacarığını, işgüzarlığını və təşkilatçılığını nəzərə alıb onu rayonda böyük təsərrüfatı olan Toxluca kəndinə sovxoz direktoru təyin etdilər. Bundan sonra da iki ailənin yaxınlığı davam etdi. Hacan dayı həmişə qonaqlı-qaralı açıq sifətli bir insan kimi tanınmışdı.

**1982-ci ilin** yay ayı idi. Toxluca kəndinə Hacan dayıgilə getmişdim. Həyətə çatanda evdən Nərimanlı aşıq Fətullahın saz çalıb oxuduğunu eşitdim. Həmin vaxt Hacan dayının sevincinin həddi - hüdudu yox idi. Bu şadyanalıq, yeyib-içmək oğlu Orucun Gəncə Kənd Təsərrüfatı İnustutuna daxil olması münasibətilə təşkil olunmuşdu.

İki ailənin yaxınlığı nəticəsi axırda qohumluğa çevrildi. Mən Hacan dayının qızı Solmazla ailə həyatı qurdum və bundan sonra bu ailənin bir üzvü oldum.

**1988-ci ildə** erməni işğalçılarının vəhşilikləri nəticəsində doğma yurdunu tərk edərək Hacan dayının ailəsi Bakıya pənah gətirdi.

Hacan dayı Göyçənin işğalına, camaatın doğma kəndindən didərgin düşməsinə dözməyib 1995-ci ildə dünyasını dəyişdi.

*Allah rəhmət eləsin!*

***Oqtay AĞAMALIYEV***



## ADINI DAİM UCA TUTACAĞIQ



Hər şeydən əvvəl Hacan dayı dostum Orucun atası kimi yadımda qalıb. Mən uşaqlıqdan onlara gedib-gəldiyimdən onun necə insanpərvər, elini-obasını sevən bir insan olduğunun şahidi olmuşam. O, yalnız öz kəndimizin yox, bütün Göyçə mahalının fəxri olmuşdu.

Tale elə gətirdi ki, mən Hacan dayının qızı Elza ilə ailə qurdum. Ancaq təəssüf ki, belə bir babanı, belə bir insanı görmək oğlum Malik və qızım Nisəyə qismət olmadı. Onun nəvələri həmişə babaları haqqında suallar verir və aldıqları cavablara maraqla qulaq asırlar. Övladlar o zaman xoşbəxt olurlar ki, onlar valideynləri, babaları, uluları haqqında həmişə xoş sözlər eşidirlər. Dünyada yaxşı ad qoyub gedən Hacan dayı bütün övladları, nəvə-nəticələri üçün, eləcə də qohum-əqrəba və el-oba üçün həmişə məhəbbətlə, iftixarla yad ediləcəkdir

Buna misal olaraq deməliyəm ki, heç kəsdən göstəriş almadan qızım Nisə bu yaxınlarda gül toxumu gətirib ki, aparıb babamın məzarı üstündə əkəcəyəm. Belə bir insanın adını uca tutmaq bizim borcumuzdur.

***Əbdülhəsən MƏHƏRRƏMOV***

## ONU BÖYÜK QARDAŞIM BİLƏRDİM



İstərdim mənim üçün çox çətin olsa da, Hacan dayım haqqında qısa şəkildə yaddaşımda qalanlardan sizlərə çatdırım.

Hacan dayının dünyasını dəyişdiyindən 12 ildən çox vaxt keçməsinə baxmayaraq, mənim və ailəmizin qəlbində o bir şəxsiyyət kimi əbədi yaşayır.

O, həddən çox sadə, səbirli və sakit xarakterli bir insan idi. Mən onun özündən böyüklə və ya kiçiklə, hətta balaca nəvələrlə belə yüksək tonla danışdığını eşitmədim. Toxluca, Yanıqpəyə və Rayon İcraiyyə Komitəsində müxtəlif vəzifələrdə işlədiyi vaxtlar o, hamının hörmətini qazanmış, insanlara imkanı daxilində əl tutmuşdur. Özünü insanlara tutduğu vəzifəsinə görə yox, insani əməllərinə görə sevdirmişdi.

Mən bu sözləri ona görə deyirəm ki, onu tanıyan hər bir şəxs mənimlə eyni fikirdədir.

Anam və xalalarım məni özlərinə Hacandan sonra kiçik qardaş kimi qəbul ediblər. Mən bu qardaşlığı 1988-ci ilin iyunundan qəbul etmişəm və fəxr edirəm ki, Hacan dayı həm də mənim böyük qardaşımdır. Buna nə qədər nail olacağam, bilmirəm, Allah bilər.

Mən Bakıda yaşadığıma baxmayaraq ildə 1-2 dəfə Toxlucaya gedərdim. Mən onu həmişə təmkinli, özünə inamlı, istiqanlı görmüşəm. Axırıncı dəfə mən Toxlucaya 1988-ci ilin yayında, Hacan dayı xəstə olan vaxt (anam və qardaşım İlyasla) getmişdim. Bir neçə gün onlarda qaldıq, özünü yaxşı hiss edirdi. Hər gün mənimlə əvvəlki illərdən fərqli olaraq, müxtəlif mövzuda çoxlu söhbət edirdi. Mən hiss edirdim ki, o. özünü tənha sayır və məni özünə qardaş kimi qəbul edir. Rəhmətlik Qənbər babamın yoxluğu və özünün xəstəliyi onu bu hisslərə qapılmağa gətirib çıxarmışdı. 1988-ci ilin sonunda məlum hadisələrdən sonra Bakıda qapı bir qonşu olduq. O, qaçqınlıq taleyi yaşadığına görə mənəvi sarsıntı keçirirdi. Bu da ona pis təsir edirdi. Mən bacardığım qədər çalışırdım ki, onu fikirləşməyə qoymayım, fikrini yayındırım. Buna nə qədər nail olurdum, demək çətindir. İllər keçdi, mənim heç vaxt yaddaşımdan çıxmayan 5 yanvar 1995-ci il gəldi, kaş gəlməyəydi! Özü həyatdan getdi, ancaq ruhu bizimlə yaşayır.

*Allah rəhmət eləsin.*

***Tahir BUDAQOV***

## BİZ ƏYİLMƏYƏCƏYİK



Dayımla bağlı xatirələri danışmaq mənim üçün çox çətindir. Çünki biz onu ilk günlərdən atamın tələbə yoldaşı, yaxın dostu, iş yoldaşı və dayımız olaraq görmüşük.

Mən dayımın atamla necə mehriban olduqlarını, işə bir yerdə gedib-gəldiklərini görürdüm. Əfsus ki, zalım fələk o xoş günləri bizə çox gördü. Mən 10 yaşımda atamı itirdim. Atamın vaxtsız ölümü tək əmimin və tək dayımın saçlarına dən saldı. Bu faciəli hadisə onları biri-birinə daha da sıx bağladı. O gündən biz 3 bacı atasız günlərimizi babamın, dayımın və əmimin sayəsində atalı kimi böyüdük. Dayım mehriban, dünyagörmüş, vətənpərvər, qeyrətli bir insan idi. Daha doğrusu, hərtərəfli şəxsiyyət idi. Toxluca kimi böyük bir kəndə rəhbərlik edən, 7 övlad böyüdən bir insanın istirahət vaxtı voleybol meydançasında necə çevik hərəkət etdiyinin şahidi olmuşam. O, hər yerdə uca boyu, şux yerişi ilə seçilirdi.

Dayım elinə qiymət verən bir insan idi. O, məzuniyyət vaxtı müxtəlif şəhərlərə gedərdi və qayıdanda yaxın qohumlarına hədiyyələr alardı. Xalam uşaqları, dayım uşaqları bir yerə yığışıb onun bizə nə gətirdiyini səbirsizliklə gözləyirdilər. Dayım çamadanını açıb deyərdi ki, kim yaxşı oxuyursa, hədiyyənin yaxşısı ona çatacaq, kimin gözəl xətti varsa qələmlərin ən bəzəklisi onundur (o həmişə getdiyi yerdən çoxlu qələm alardı).

Dayımın məqsədi hamımızı ali təhsilli görmək idi. Əfsus ki, zalım fələk ona aman vermədi. Dayımın ömrü çox qısa oldu, sanki bağbantək ağaclara qulluq etdi, amma barını yemədi. Biz qaniçən düşmənlər tərəfindən dədə-baba yurdumuzdan qovulduqdan onra Bakı şəhərində məskunlaşdıq.

Dayım "Qaçqınlar cəmiyyəti"ndə işə düzəldi. Vətəni əlindən alınmış, ata-baba yurdu viran qalmış dərdli insanlarla təmasda olduğu üçün o, özünə rahatlıq tapa bilmirdi. İstirahət günləri ata əvəzi saydığı babamın yanına gələr, dərdini onunla bölüşərdi. Babam vəfat etdikdən sonra əmimlə dayım gövdəsi baltalanmış ağacın budaqlarına bənzəyirdilər.

Babamın ölümündən 2 il keçməmiş dayımın qəflətən ölümü bizə ağır bir itki oldu. Onun ölümü tək qohumlar üçün deyil, onu tanıyanlar üçün də gözlənilməz bir zərbə oldu.

Söhbətdən kənara çıxıram.

Mən iş yoldaşım Məryəm xanımla (o, Gölkəndli Nağının qızıdır) həmişə söhbət edərdik, vaxtilə atamla və dayımla onun atası bir yerdə işləmişdilər. Nağı dayı rəhmətə getmişdi. Qızı atası haqqında danışıb dedi: Mən heç özümə gələ bilmədim, hey ağlayırdım. Anam dedi ki,

bala, ağlama, Hacan kimi insan da ölüb, bəs onun ailəsi neyləsin?

Dayımın kimliyini onunla işləyənlər, onu tanıyanlar bilir. Dayımın ölümündən 3 il keçmişdi. Biz qəbr üstə çıxmışdıq (qohum-əqraba ilə). Əmim baxışlarını dayımın məzarından ayırmaq istəmirdi, sanki mən də gəlirəm deyirdi. 3 gün keçdikdən sonra əmim xəstələndi və 40 günün xəstəsi oldu. Zalım fələk bizi yenidən imtahana çəkdi.

*Atalarımız "Polad sınar, ancaq əyilməz" deyiblər. Onların ruhu şad olsun deyə biz əyilməyəcəyik, onların bütün arzularını yerinə yetirəcəyik! Çünki biz Topal Orucun davamçılarıyıq!*

***Sədaqət ƏLİ QIZI ASLANOVA***



## GƏNC KİMİ QALDI



Mən gözümü açıb, özümü dərk edəndən dayımı hündür boylu, yaraşıqlı, sakit təbiətli bir gənc kimi görmüşəm.

Əfsuslar olsun ki, qocalmadı, yaddaşlarda əbədi cavan qalaraq dünyasını dəyişdi. O, gənc yaşlarından ömrünün axıranacan rəhbər vəzifələrdə çalışdı. Mən dayımla birlikdə işləməsəm də, onun işlədiyi kollektivdə heç vaxt ona qarşı mənfi fikir söyləndiyini eşitməmişəm.

Hacan dayımı az da olsa tanıyan hər bir adam ilk baxışdan və ilk tanışlıqdan sonra onun barəsində ancaq müsbət fikirlər söyləyə bilərdi. Ondan heç vaxt ağır və ya təhqiramiz sözlər eşitməmişəm. Allah-təalanın ona verdiyi daxili və zahiri müsbət xüsusiyyətlir bir-birini tamamlayırdı.

O, sakit xasiyyətli adam olsa da, onun mənalı baxışı istər-istəməz adamı özünə cəlb edirdi. Onu mən hətta özüm üçün ideal dayı, ailəsində əsil ata, işdə əsil rəhbər kimi görmüşəm. Mən dayımla həmişə fəxr etmişəm. Mən deyirəm ki, o bütün yaxın və uzaq qohumların dayısı idi. Mən dayımı çox sevirdim və onunla bağlı olan xatirələrim həmişə dayımı qəlbimdə yaşadacaq.

*Allah ona rəhmət eləsin!*

***Tariyel BUDAQOV***

## HƏMİŞƏ FƏXR ETMİŞİK

Bəzən deyirlər ki, Allah-təala çox vaxt istəkliləri onu istəyənlərin əlindən tez alır. Bu sözdə dərin bir hikmət və məna var. Doğrudan da əksəriyyət vaxt yaxşı insanlar az ömür sürürlər. Bu da ondan ibarətdir ki, bu qəbildən olan adamlar həmişə haqq-ədalət gözləyir, ədalətsizliklərə dözə bilmirlər. Bu dözümsüzlük dərdə çevrilib onların ürəyinə yüklənir. Bu yükü isə uzun müddət daşımaq çətin olur.



Hacan dayım belə insanlardan idi. Doğrudan da dövrün, zamanın, insanların çəkdiyi ağır sınaqlar onu çox incidirdi. Bütün bu keyfiyyətlərinə görə o, hamının istəklisi idi.

Dayımın uşaqları ilə biz həmyaşıd idik. Buna görə də biz həmişə bir yerdə olurduq. Eyni zamanda qonşu idik. Dayım haqda xatirələrim çoxdur. O, olduqca yaraşıqlı, sakit təbiətli, nəzakətli və mehriban bir insan idi. Bacısı uşaqlarına qarşı diqqətcil və səmimi idi. Anam Hacan dayımı çox istəyirdi. Bu istək bizə də keçmişdi. Dayımın övladları kimi biz də onunla həmişə fəxr etmişik və çalışmışıq ki, başını uca eyləyək. O, elin-obanın hörmətini qazanmış bir şəxsiyyət idi. Belə hörmətli şəxsiyyətin bacısı oğlu olmaq böyük fəxarətdir.

Heyif ki, o, arımızdan çox tez getdi. Onun ölümü məni də sarsıtdı.

*Allah ona rəhmət eləsin! Qəbri nurla dolsun!*

***Rauf NOVRUZOV***

## ÇALIŞIRAM Kİ, BABAMA OXŞAYIM



Mən uşaqlıq illərimin çoxunu babamın yanında keçirmişəm. Hacan babam haqqında mənim çoxlu xatirələrim var. O vaxt uşaq olmağıma baxmayaraq heç nə yadımdan çıxmayıb.



Mən onlara gedəndə birinci Qənbər babamla görüşür, sonra Hacan babamın yanına gəlirdim. Babamın sakit hərəkətləri mənim çox xoşuma gəlirdi.

Hacan babam işdə olduğu üçün, mən Qənbər babamla çox olurdum. Qənbər babam məni sevələyə-sevələyə özü ilə tövləyə, mal-qaraya qulluq etməyə aparırdı. O, mal-qara üçün apardığı otdan bir az da mənə verib deyərdi ki, bunu da sən apar ver. Balaca bir vedrəyə su töküb mənə verirdi ki, bunu apar buzova ver. Mən uşaq ağlı ilə çox sevinirdim. Mənim sevinməyim onun çox xoşuna gəlirdi. O, məni həmişə sevələyərdi. Mənə balaca bir şallaq düzəltmişdi. Bu vaxt mənim 3-4 yaşım ancaq olardı. Axşam quzu otlağdan qayıdanda onu evin arxasına, yəni dağın ətəyinə çıxarıb mənə tapşırardı. Mən böyük sevinclə, əlimdə şallaq quzuları otarırdım. Hacan babam işdən gələndən sonra gününün yarısını mənimlə keçirirdi. Mən uşaqlıqdan nağara vurmağı çox sevərdim. Bir gün mən otaqda stolun üstündə əllərimlə ritm vururdum.

nağara vurmağı çox sevərdim. Bir gün mən otaqda stolun üstündə əllərimlə ritm vururdum. Birdən babam içəri gəldi məni gördü və dedi ki, sənə nağara alımmı, lap yaxşı çalırsan. Sevincək dilləndim:

- Hə, istəyirəm.

Hacan babam Oruc dayımı çağırıb dedi ki, buna bir nağara alarsan. Oruc dayım mənə bir nağara alıb gətirdi. Bəlkə də həmin gün uşaqlığımın ən böyük sevincli günlərindən idi. Mən onlarda olanda Minayə nənəm səhər saat 5-də durub inəkləri və qoyunları sağardı. Məni babam elə öyrətmişdi ki, stəkan götürüb tövləyə nənəmin yanına gələrdim. Nənəm mənə köpüklü-köpüklü bir stəkan süd verərdi. Mən südü içib gəlib yatardım. Hacan babam səhər saat 7-də qalxardı və məni də qaldırardı. Bu vaxt Minayə nənəm südü maşında çəkib qaymaq düzəldirdi. Babam mənə çörək verib nənəmin yanında qaymaq yemək üçün oturdardı. Mən doyandan sonra gəlib yanında durardım və üzünə baxardım, o da əli ilə qarnımı yoxlayıb deyərdi ki, bir az boşluğu var, yeməlisən (sonradan başa düşdüm ki, onun nəzəri məndə olduğu üçün, nə vaxt az yeyirdimsə onda deyirmiş ki, bir az boşluğu var). Hacan babam çox yaraşıqlı bir insan idi. O, həmişə əllərini bir-birinin üstünə qoyub, o yan- bu yana gəzərdi. Bu mənim çox xoşuma gəlirdi. Mən də ona baxıb elə gəzərdim.

Atamgil Bakıya köçdükdən sonra mən onlarda qaldım. Qənbər babam məni Bakıya getməyə qoymadı. Hacan babam mənə bir dəst kostyum aldı və məni Toxluca kənd orta məktəbinə hazırlıq kursuna göndərdi. O əvvəlcədən məktəb direktorundan icazə almışdı. Mən hər gün sevinə-sevinə Elza xalamla məktəbə gedirdim.



**Hacan babam çox ailəcanlı bir insan idi. Onun qəlbi çox təmiz idi. Həyata baxışı çox müsbət idi. Həmişə çalışmışam ki, mən də ona oxşayım. O çox qonaqpərvər idi. Həmişə babamın yanında evə kimsə gəlirdi. Babam məni də yanına çağırıb qonaqlarla bir stol başında oturdardı. O çox mənalı bir ömür yaşadı. Əfsus ki, onun bu ömru qısa oldu.**

*Allah hər iki babama rəhmət eləsin!*

***Elmir XALƏDDİN OĞLU!***



III FƏSİL

***Hacan Orusov təkcə ailənin övladı yox, kəndin və eləcə də elin övladı idi. O, Şərqdə səxavət simvolu olan Hatəmə, daxili və zahiri gözəlliyinə görə Yusifə bənzəyirdi.***

***Behbud ƏLİYEV***



## GÜNƏŞ KİMİ PARLAQ VƏ SAF İNSAN



Hüsənlilər tayfasından olan Orucov Hacan Qənbər oğlunu mən çox yaxşi taniyiram. Eşitdiyimə görə Hüsənlilər tayfası cəsur, igid və mərd tayfa olubdur. Deyilənə görə erməni daşnakları bundan xəbər tuturlar ki, onlar ermənilərə qarşı vuruşurlar. Göyçə gölünün o tayında yaşayan erməni kəndləri belə məlumat alırlar ki, Hacanın babası Oruc Süleyman oğlu və Cığal Həsən İrəvana doğru səfərə çıxacaq. Ona görə də bu kəndlərdə olan ermənilər bir ay müddətində tamamilə qorxularından evdən çölə çıxa bilmirlər. Bunu Çənmərək rayonunda yaşayan erməni daşnaklarına xəbər verirlər. Ermənilər arasında belə şaiyə yayılır ki, bu tayfa Çənmərək bölgəsində olan erməniləri tamamilə yox edəcək. Ona görə də ermənilər Hüsənlilər tayfasından olan igidləri aradan götürmək üçün Nikolay hökumətindən kömək istəyirlər.

Bir gun Arzuman və daşnak partiyasindan bir dəstə adam kəndə daxil olurlar. Hacanın babası Oruc kişinin bundan xəbəri olmur. Bundan istifadə edən ermənilər belə qərara gəlirlər ki, evin bacasından od tökub evi odlasınlar. Bundan xəbər tutan Məşədi Həsən (Cığal Həsən) "Bostan" dərəsinə qalxıb onları yaxşı görür, Arzumanı və yoldaşlarını Oruc kişinin evinin üstündəcə güllələyib öl-

dürür.

Ancaq erməni daşnakları hökumət ilə əlbir olduğundan Hüsənli tayfasinin beş nəfər mərd igidini Çənmərəkdə tutmuşdular. O biri igidlərdən qorxduqları üçün onlara girişməmişdilər.

Ancaq düşmən başqa tələyə əl atır. Onlara başqa yerdə pusqu qururlar və hamısını güllələyirlər. Bu hadisə baş verən zaman Hacanın atası Qənbər kişinin 12 yaşi olub.

İllər ötur, Qənbər böyüyüb evlənir və 1941-ci ildə Böyuk Vətən muharibəsinə yollanır. Onun yoldaşı deyir ki, rus ordusu müsəlmanları qıran vaxtı Mircəfər Bağırov cəbhə xəttinə gedir və onlara göstəriş verən Xruşovun qardaşına azəri türkcəsində göstəriş verir. Xruşovun qardaşı azəri dilini bilmədiyinə görə heç nə başa düşmür. Mircəfər Bağırov həmin qeneralı güllələyir. Sonra o, azərbaycanlı divizyasını ayırır. Bu vaxt 50 nəfər əsgər Toxluca kəndindən olur. M.Bağırov əmri özü verir. Mazutov döyüşündə M.Bağırovun təşkil etdiyi azəri divizyası qələbə çalır. Hacanın atası Qənbər orden və medalla təltif olunur. Müharibədən sonra vətənə dönür və briqadir işləyir. Qənbər kişi uzun illər kolxozun böyük və ağir işlərində çalışır.

Kolxoz xeyli irəliləyir. Bunu deməkdə məqsədim budur ki, igiddən igid olar.

Qənbər kişinin oğlu Hacan orta məktəbi yaxşı oxuyur və ali məktəbə qəbul olur. O, ali məktəbi fərqlənmə diplomu ilə bitirir.

Onun kəndə qayıtdığı vaxt- 1956-cı ildə kolxoz sovxoz olur. Hacan zootexnik işləyir. Sovxozun 2000 baş iri buynuz malı, 12000 qoyunu olur. Hacan yaxşı işlədiyinə



görə yaxşi ad-san qazanır. Camaat içərisində böyük nufuza malik olur. Ona görə də onu geri qalmiş Yanıqpəyə kəndinə sovxoz direktoru vəzifəsinə göndərirlər.

Hacan Yaniqpəyə sovxozunda böyük işlər gördükdən sonra, Toxluca kəndində sovxoz direktoru işləyir.

Hacan Qənbər oğlu kənddə və rayonda o qədər nüfuz və hörmət qazanmışdır ki, camaat başqa rəhbərlərə də Hacan Orucovu örnək kimi misal çəkirdilər. Onun insani keyfiyyətlərinə hamı həsəd aparırdı. O, çox sakit təbiətli, mehriban, gözəl xasiyyətli bir insan idi. Bu həyatda onun kimi insan bəlkə də çox azdır.

**1988-ci il** noyabrin 27-də erməni daşnakları bizi silah gücünə öz torpaqlarımızdan çıxardılar. Allah bizi ölümdən saxladı. Hacan da Azərbaycana pənah gətirdikdən sonra yüksək adını burada da qorudu. Hamının hörmət və məhəbbət göstərdiyi bir insan oldu.

*Allah ona rəhmət eləsin və qiyaməti işıqlı olsun. Onun övladları da özu kimi təmiz və yaxşi ad qazanmışlar.*

***Hacı MƏHƏMMƏDƏLİ KƏRBƏLAYI MOLLA ƏLİ OĞLU***

# AĞAYANALIĞI İLƏ GÖZÜM ÖNÜNDƏ QALACAQ



Hacan müəllim haqqında xatirələrimin tarixi lap erkən, uşaqlıq illərimdən başlanır. Yaddaşımın dərinliklərində o, uşaqlıq və gənclik xatirələrimin heç vaxt silinməyəcək simalarından biri kimi qərar tutub desəm, yəqin ki, mübaliğə etmərəm. Gözümü bu dünyaya açıb gördüyüm çox az sayda yaxın, mərhəm adamlardan biri kimi tanımışam onu. Sonralar böyüyüb yaşa dolduqca bu mərhəmlik onun böyüklüyünə, şəxsiyyətinin bütövlüyünə və insanlığına ürəkdən gələn səmimi bir məhəbbət və ehtiramla əvəz olundu. Kənddə Hacan müəllimgillə biz qapıbir, "gor qonşusu", kökdən də qohum olmuşuq. Mənim ulu babam Araz cavanlığında ipəsapa yatmayan dəli-dolu bir oğlan imiş. Günlərin birində Basarkeçərdən baş götürüb gəlir Toxlucadakı qohumlarının - Hacan müəllimin ulu babalarının yanına. Onlar da onu öz uşaqları kimi qəbul edib, himayələrinə götürürlər, evləndirib oğul-uşaq sahibi edirlər. Görünür, Hacan müəllimdə mənim uzun illər boyu müşahidə etdiyim qohumcanlıq və təəssübkeşlik hissi ona elə ulu babalarından keçmiş və daha da möhkəmlənib bütövləşmiş nəcib insani keyfiyyətdir. Yaxşı deyiblər ki, ot kökü üstə bitər.

Onun hamının-böyüyün-ağsaqqalın, həmyaşıdlarının, hətta məhəllə uşaqlarının belə yanında xüsusi hörməti vardı. Yadımdadır, başımız uşaqlıq oyunlarına nə qədər qarışsa da, o, gəlib yanımızdan keçəndə hamı özünü yığışdırar, ortaya dərhal sakitlik çökərdi. Ona görə yox ki, ondan qorxardıq. Xeyr! Qonşu olduğumuz uzun illər ərzində mən bir dəfə də olsun onun istər öz uşaqlarından, istərsə də qonşu uşaqlarından kiminsə üstünə səsini qaldırdığını, qışqırdığını eşitmədim. Gözəl ailə başçısı idi. Ömür-gün yoldaşı Minayə xanımla birlikdə öz tərbiyələri, qanacaqları ilə seçilən, böyüyün-kiçiyin yerini bilən, adına layiq gözəl övladlar böyüdüb yetişdirdi

Çox sakit, ağır təbiətli adam idi. Yerli-yersiz danışmağı qətiyyən sevməzdi. Çox az danışardı. Bir dəfə qonşu qadınlardan biri Hacan müəllimin anası, rəhmətlik Qostan xaladan soruşur ki, ay Qostan xala, Hacan evdə heç danışırmı? O, da qayıdır ki, niyə, söz soruşanda cavab verir.

Amma az danışsa da, mənalı danışardı. Bir dəfə kənddə sovxoz direktoru işləyəndə idarənin həyətində yaşlı adamlardan biri ona yaxınlaşdı:

- Ay Orucov, sənnən o, günü xahiş eləmişdim. Mənim otumu nə vaxt verirsən?

Hacan müəllim gülümsündü:

- A kişi, sənin bu pencəyini bir balaca silkələsəm, tökülən pulla bu kəndi bir ay saxlamaq olar. Allaha şükür, sənə nə düşüb ki, bir maşın otdan ötrü minnət edirsən?

İdarənin həyətinə xeyli adam yığışmışdı. Hamı gülüşdü. Hamıdan bərk gülən də xahiş edən adam özü oldu. Kənddə hamı yaxşı bilirdi ki, o, çox imkanlı adamdır, heç nəyə də ehtiyacı yoxdur. Amma gözüaçıq və bir az da bic adam idi. Ha-

can müəllimin xasiyyətinə yaxşı bələd idi. Bilirdi ki, ağsaqqalın xahişini yerə salmaz. Buna görə də məqamdan istifadə etmək istəyirdi. Bu hadisənin sonra necə nəticələndiyindən xəbərim olmasa da, inanmıram ki, kişinin təmənnası cavabsız qalsın.

Hacan müəllim həyatda çox az adama nəsib olan şəxsiyyət bütövlüyünə malik olan bir insan idi. Onun uca boyu, yaraşıqlı qədd-qaməti, ağayanalığı, daxili mədəniyyəti və fitrətdən gələn sambalı ilə gözəl bir hormoniyada birləşirdi. Məsul vəzifədə çalışdığı illər ərzində kənd camaatından bir nəfər də olsun ondan nəzakətsiz davranış görüb, qaba söz eşitmədi. Olduqca sadə insan idi. Vəzifəli adamların çoxuna xas olan süni jestlərdən və özünü çəkməkdən zəhləsi gedərdi. Buna onun heç ehtiyacı da yox idi. Təbiətindəki ağayanalığı, fitrətdən gələn təbiiliyi və alicənablığı onsuz da onu başqalarından həmişə fərqlənirdi.

Yaxşı xatirimdədi, institutu bitirib kəndə təzə qayıtmışdım, müəllim işləyirdim. Bir dəfə məktəbə rayondan maarif şöbəsinin inspektoru gəlmişdi. Mən də, tərslikdən, həmin gün proqramı unudub evdə qoymuşdum. Təcili onu gətirmək lazım idi. Evdə telefon yox idi. Müəllimlərdən məsləhət gördülər ki, Hacan müəllimgilə zəng edim, bizim uşaqlardan biri proqramı gətirsin. Nə isə, götürdüm onlara zəng etdim. Ağlıma da gəlməzdi ki, günün bu vaxtı Hacan müəllim evdə olar. Dəstəyi özü götürdü. Çaşıb qaldım. İndi mən bu boyda kişiyə necə deyim ki, bəs bizimkilərə xəbər göndər, proqramı gətirsinlər. İş-işdən keçmişdi. Dilim topuq çala-çala bir təhər başa saldım ki, rayondan yoxlama var, proqramı yaddan çıxarıb evdə qoymuşam. Ahəstə və sakit səslə telefonda



dediyi sözlər indi də qulaqlarımda cingildəyir:

- Narahat olma, bu saat göndərərəm.

Heç 15 dəqiqə keçməmiş, Hacan müəllimin kiçik oğlu Mayis dəftəri gətirdi. Görünür, bizim uşaqlardan evdə heç kim olmamışdı.

Dünyada elə insanlar var ki, Allah onları sanki yalnız yaxşılıq üçün yaradıb. Belə adamlar istəsə də əllərindən pislik gəlməz. Hacan müəllim məhz belə nəcib insanlardan idi. Onun xeyirxahlığı, qohum-qonşuya heç bir təmənna ummadan əl-tutması Qaraqoyunlu dərəsindən tutmuş Göyçəyə qədər hər bir kəsə yaxşı məlumdu.

Mən ailə quranda o, kənddə sovxoz direktoru işləyirdi. Biləndə ki, toya hazırlaşırıq, heç kimdən xahiş-təklif gözləmədən bir ağsaqqal, qonşu və qohum kimi qabağa düşdü. Aşıq Alqayıtın dalınca 2 dəfə Basarkeçərə maşın sürüb, onu kəndə toya gətirdi. Yer, odun təşkil elədi. Axıracan gözü bütün işlərin üstündə oldu. Minayə xalaya həmişə deyərmiş ki, soruş gör, cavan ailədi, nə ehtiyacları var, korluq çəkməsinlər.

Hacan müəllim haqqında bu sətirləri qələmə almaq üçün stol arxasına keçəndə ömrünün ahıl çağına çatmasa da el ağsaqqalı kimi şərəfli bir adı xalq arasında ləyaqətlə daşımış bu müdrik insanın yaraşıqlı, nurani cöhrəsi, artıq çoxdan dən düşmüş arxaya daradığı gur saçları, təmiz və geniş qəlbinin aynası olan gözlərindən süzülən sakit və şəfqətli baxışları bir anlığa gözlərim qarşısında canlandı. Kövrəldim, gözlərim doldu. Onun təmkinli duruşunu bir də heç vaxt görməyəcəyimi, ahəstə səsini, aram-aram danışığını heç vaxt eşitməyəcəyimi düşünəndə yoxluğu mənə yaman ağır gəldi.

Bir dəfə də onun ölüm xəbərini eşidəndə bax beləcə sarsılmış, kövrəlib göz yaşlarımı saxlaya bilməmişdim. Bu acı xəbəri mən çox gec eşitdim. Camaat kənddən bir-iki il idi çıxmışdı, özünə təzə-təzə ev-eşik, şərait düzəldirdi. Bakı kimi böyük bir şəhərdə hərə bir tərəfə səpələnmişdi. Çoxlarının, elə mənim özümün də, evdə telefonum yox idi. Qohum-əqrəbadan, dost-tanışdan xəbər tutmaq, hal-əhval bilmək çətin idi.

Elə adamlar var ki, həyatda onların yoxluğunu doldurmaq, heç nə ilə əvəz etmək mümkün deyil. Hacan müəllim bu cür nadir insanlardan idi. Onun həyatdan getməsi təkcə bir ailənin, bir nəslin deyil, onu tanıyanların, eşidib bilənlərin hamısının, bütün el-obanın itkisi idi. Deyirlər dağa yaxın olanda onun böyüklüyünü, ucalığını hiss etmək çətin olur. Dağın əzəmətini duymaq üçün aralanıb, ona uzaqdan baxmaq lazımdır. Ötüb keçən illər Hacan müəllimin cismani varlığını onu tanıyıb-bilənlərdən uzaqlaşdırır. Lakin illər ötdükcə biz onun əzəmətini, şəxsiyyətinin böyüklüyünü daha dərindən duyur, dərk edirik. Onun yoxluğu qəlbimizi göynədir, yeri aramızda daha aydın görünür. Məni ağrıdan odur ki, onunla, şəxsən, çox az ünsiyyətdə olmuşam. Qabaq-qənşər oturub doyunca söhbətləşmək imkanım olmayıb. Təsəllim odur ki, qeyri-adi bir hiss sanki onun ruhunun mənim və ailəmin başının üstündə olduğunu bizə təlqin edir. Çox çətin anlar yaşayanda dəfələrlə yuxularımıza girib, bizi dardan qurtarıb. Çox keçmədən həyatda da müşküllərimiz həll olunub.

Deyirlər qara torpaq yaxşıları öz qoynuna tez çəkib aparır. Hikmətli sözlərdir. Hacan müəllim çox tez getdi aramızdan. Əgər ürəyimdən süzülüb gələn bu sətirlər onun ruhunu az da



olsa sevindirəcəksə, təsəllim bu olar ki, mən də onunçün cüzi də olsa, nə isə etmişəm.

*Allah ona rəhmət eləsin, qəbri nurla dolsun!*

***Zakir MƏMMƏDƏLİYEV,***
***professor.***



*Truskavets, 1981-ci il. Hacan Orucov solda*

# NAKAM ÖMRÜN ƏBƏDI VARLIĞI



Şəxsiyyətlər zaman-zaman yetişir, püxtələşir, önə çıxaraq örnək olur, hörmət və ehtiramla anılaraq yaddaşlarda yaşayır. Belə qismət və tale Ulu Tanrının istəyi, icazəsi, razılığı sayəsində nəsib ola bilər. Eyni zamanda nəsildən-nəsilə keçməklə formalaşan irsi xarakterlə mənimsənilən tərbiyənin, yaşanan şəraitin və mühitin təsiri sayəsində mümkün ola bilər. Bəzən insan fikirləşir ki, nə yaxşı ki, bu dünya yaxşı insanlardan xali deyil.

Özü də belə hissiyyatlar o hallarda baş verir ki, həmin vaxt insan duyğulu anlar yaşayır, yəni sevincli və bəzi hallarda isə nisgilli yaşantılarla qol-boyun olur. Həyatın məna və dəyəri, şirinliyi, ecazkarlığı o zaman daha təsirili, daha güclü olur.

Belə şəxsiyyətlərdən, yaxşı insanlardan, daima hörmət və ehtiramla qarşılanan, yad olunan, tamlığı, bütövlüyü ilə seçilənlərdən biri də Ulu Oğuz torpağı olan Göyçə mahalının Toxluca kəndinin dəyərli, elmli, bilikli, mənəvi ucalığı, böyüklüyü sayəsində özünə, balalarına, nəslinə, tayfasına, böyük bir elə, obaya əbədi səadət bəxş edən Hacan Qənbər oğlu Orucovdur.

Toxluca kəndi mötəbər, dəyərli, zəhmətkeş, qonaqpərvər insanlar ilə hər zaman yüksəlmiş, ucalmış və öz layiqli qiymətini almışdır. Belə şan-şöhrətin, ad-sanın qazanılmasında çox böyük xeyirxahlıqlar göstərən, qeyd etdiyimiz kimi dəyərli, hünərli, mənəvi və əxlaqi zənginliyi ilə başqalarına nümunə olanlar içərisində Hacan dayının xüsusi yeri var. Hacan dayı ilə mənim atam Məmmədov Ziraddin Əkbər oğlu orta məktəbdə bir sinifdə oxumuşlar. Tale, qismət elə gətirmişdir ki, mən də Hacan dayının böyük övladı Səmayə (Rəna) ilə on il bir sinifdə oxumuşam. İkinci önəmli və üst-üstə düşən faktorlardan, hadisələrdən biri də Hacan dayının yoldaşı Minayə xalanın mənim anam Moruq Musa qızı ilə bir sinifdə oxumalarıdır. Üçüncü hadisə kimi Hacan dayının üçüncü qızı Solmazın qardaşım Nazimlə oxumasını və s. oxşar yönləri, istiqamətləri göstərmək olar.

Hacan dayı ilə bağlı eşitdiklərim və özümün də gördüklərim, xeyli hadisələr, olaylar unudulmaz, əziz bir xatirəyə dönərək qəlbimin və ruhumun dərinliyinə, özəyinə təsir edə bilmişdir. Yaxşı yadımdadır, 1986-cı ildə iyun ayının 25-də kəndimizdən rayona getmişdim. Rayonda bəzi işlərim var idi. İşlərimi görüb qurtardıqdan sonra evə qayıtmaq istəyirdim ki, Hacan dayı və qızı, sinif yoldaşım Səmayə ilə rastlaşdım. (Onu da qeyd edim ki, Səmayə ilə səhv etmirəmsə II sinifdən X sinfə qədər uşaqlıq illərinin dəcəlliyi üzündən küsülü qalmışıq). Salamlaşıb görüşdük. Hal-əhval tutduq. Rəhmətlik məndən soruşdu ki, oğlum, kəndə gedirsənsə gəl birlikdə gedək. Mən onun maşınına əyləşərək kəndə gəldim. Yol boyu atamla olan isti münasibətlərindən, onun haqqında yaxşı fikirlərindən və düşüncələrindən danışdı. Eyni zamanda mənə dedi ki,

oğlum, yadında saxla, sənin atan rəhmətə getdiyi üçün anan qəm-kədər, hüzn içindədir. Sən isə elə etməlisən ki, o çox fikirləşib, dərd etməsin.

Onun bu cür qayğı və diqqət göstərməyi, qəlbimdə ona olan hörmət və ehtiramımı daha da artırdı. Sonralar da biz xeyirdə-şərdə görüşəndə hər zaman mənə təskinlik, öyüd-nəsihət verər, atam haqqında xoş sözlər deyər, anama yaxşı baxmağı, daha çox diqqət göstərməyimi tapşırardı.

Hacan dayı 1958-1988 illərdə Toxluca sovxozunda müxtəlif vəzifələrdə, daha sonra qonşu kənd olan Yanıqpəyə kəndində, sonradan yenə kəndimizdə nəhayət, rayon mərkəzində çalışmışdır. Çalışdığı və fəaliyyət göstərdiyi illərdə elimizin-obamızın dərin hörmət və ehtiramını qazanmış, ona tapşırılan dövlət işini də layiqincə yerinə yetirmişdir. Rəhbər olduğu illərdə bacardığı qədər insanlara yaxşılıqlar və köməkliklər etmişdir. Çox qəribədir ki, elimizin-obamızın insanlarının hamısı onun haqqında xoş sözlər deyir, minnətdarlıq hissi ilə xatırlayırlar. Belə bir xoşbəxtlik isə hər insana nəsib olmur.

Mən də öz ailəmizdə ağsaqqal və ağbirçəklərimdən Hacan dayı haqqında hər zaman xoş sözlər, dəyərli fikirlər, özünün insanlara etdiyi yaxşılıqlar haqqında eşitmişəm. Əmim Məşədi Ziyat hər zaman onu xeyirxahlıqla dolu məmnunluq hissiləri ilə xatırlayaraq belə deyir: "Ay bala, mən Hacanan xətrini qardaşlarımın xətri qədər əziz tutmuşam və onu çox istəmişəm. Ona görə ki, o, hər zaman insanlarla xoş ünsiyyət qurub, əl tutub, köməklik göstəribdir. O, sadə insandır. Ancaq adi adam deyil". Əmimin Hacan dayı haqqında bu cür ürək dolusu danışması, onu çox böyük hörmət və ehtiramla xatırlaması məndə bir daha ona



qarşı olan müsbət münasibəti daha da dərinləşdirmiş və gücləndirmişdir. Hacan dayı bir neçə il, kəndimizdə sovxoz direktoru işləmişdir. İşlədiyi illər ərzində bacardığı qədər insanlara köməklik göstərmiş, başsız ailələrə yardımlar etmiş və sözün əsil mənasında elinə-obasına yararlı bir insan olmuşdur. Fikirlərimin, düşüncələrimin nəticəsi olaraq belə qənaətə gəlirəm ki, Hacan dayının bu cür ləyaqətli, şərəfli, mərd, xeyirxah, böyük əxlaq və mənəviyyat sahibi olmasında kökünün, nəslinin, valideynlərinin böyük rolu ilə yanaşı, onun ömür-gün yoldaşı Minayə xalanın da az əməyi, az zəhməti olmamışdır. Hacan dayı haqqında lazımı qədər xoş sözlər söyləyəndə, eşidəndə sanki, Minayə xala haqqında məlumatlar əldə edilir, bilgilər verilir. Eyni zamanda əksinə. Ona görə də bu insanlar bir-birini lazımı qədər tamamlayır, biri digərini təmsil edə biliblər.

*Allah Hacan dayıya Rəhmət eləsin. Qəbri Nurla dolsun. Allah onu sevənləri və yaşadanlarını qorusun! Amin...!*

**_Firudin MƏMMƏDOV,_**
*Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının dosenti.*

## BAŞ UCALIĞI GƏTİRƏN ŞƏXS



Mənim doğma yurdum Göyçə mahalının Toxluca kəndidir. Qədim bir tarixi olan Toxluca kəndi dağlar qoynunda, dəniz səviyyəsindən 2000 m hündürlükdə, "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Göyçə gölünün sahilində yerləşir. Saf suyu, təmiz havası vardı, qışı qarlı-boranlı, yayı sərin keçirdi Toxlucanın.

Mən bu kənddə doğulmuşam, böyümüşəm, orta təhsilimi bu kənddə almışam. Bu kənddə müəlliim və məktəb direktoru işləmişəm. Həmişə də öz kəndimlə öyünmüşəm, onunla fəxr etmişəm. Bu səbəbdəndir ki, kəndimizin toylu-düyünlü günlərində iştirak edəndə və həmin toyda mənə söz veriləndə öz xeyir-duamdan sonra mütləq Nüsrət Kəsəmənlinin "Ulu bir kənd Toxluca" şerini deyirəm. Bu şeirdə kəndimin coğrafi mühiti, mənzərəsi, gözəlliyi, igid oğlanları ilə tanındığı vəsf edilmiş, öyülmüş və çox gözəl bədii boyalarla tərənnüm olunmuşdu.

*O dağlarda bir kənd qaldı,*
*Ulu bir kənd Toxluca.*
*Qarşı dağlar dura bilməz*
*Bir bəstəboy oğluca.*



*Gün doğana baxar*
*Xana-xana evləri*
*Bir-birinə qısılıbdır*
*ana-bala evləri.*
*Bahar vaxtı laləlÉ™nər,*
*batar Qana evləri.*
*O dağlarda bir kənd qaldı*
*Ulu bir kənd Toxluca.*
*Qarşı dağlar dura bilməz*
*Bir bəstəboy oğluca.*
*O dağların sinəsi üstə*
*Göyçək elim var mənim,*
*Göy gölümün əkiz tayı*
*Göyçə gölüm var mənim.*
*O dağlarda bir kənd qaldı*
*Ulu bir kənd Toxluca*
*Qarşı dağlar dura bilməz*
*Bir bəstəboy oğluca.*

Kəndimiz öz qəhrəmanlıq tarixi ilə Göyçə mahalında əvəzsiz bir yer tuturdu. Kəndimizin köklü sakinləri yalnız Azərbaycan türkləri olmuşdur. 1831-ci ildə 296 nəfər, 1873-cü ildə 466 nəfər, 1886- cı ildə 681 nəfər, 1897- ci ildə 935 nəfər, 1914- cü ildə 1373 nəfər, 1916- cı ildə 1403 nəfər, 1931- ci ildə 1723 nəfər, 1970- ci ildə 2415 nəfər, 1979- cu ildə 2632 nəfər, 1987- ci ildə 2985 nəfər yalnız Azərbaycan türkü yaşamışdır. Kəndimizin adı XVIII əsrin (1728) mənbəyi olan "İrəvan əyalətinin dəftəri"ndə, eləcə

də Qafqazın 5 verstlik xəritəsində çəkilmişdir. Yaşayış məntəqəsi kimi Toxulca kəndinin yaranması ilə bağlı müxtəlif fikirlər, rəvayətlər vardır. Kimisi kəndimizin adını Balı Sultanla bağlayır, kimisi toxluq bir ərazi olduğu üçün Toxluca adlandırıldığını söyləmişlər. Əsil elmi həqiqət başqadır.

Toxluca kəndinin adı Azərbaycan dilində dağlıq yer mənasını ifadə edən "dağlıqca" sözünün fonetik forması əsasında əmələ gəlmişdir. Toponimin birinci komponenti "tox" türk dillərində "dağ" mənasında işlənən "to", "toğ" sözlərinin fonetik variantıdır. Eyni zamanda qədim türk dilində tağ (tuğ) sözü bənd, sədd mənalarında işlənir. Toponimin ikinci komponenti Lu (əsli- luq) və sa. şəkilçilərindən ibarətdir. "Dağlıq ərazi" mənasını bildirir. Dediyim kimi kəndimiz qəhrəmanlıq tarixi ilə həmişə öyünmüşdür. Onun igid oğulları kəndimizə bir qayda olaraq hörmət gətirmiş, yurd sevən şəxslərin adını uca etmişdir. Doğma yurdumun Kalvay Kalı, Topal Oruc, Cığal Hasan, Məşədi Mir İsmayıl ağa, Qlava Bayram, Bayram Bayramov, Ağəli Əsədov və başqa bu kimi sayılıb-seçilən şəxsiyyətləri olmuşdur. Bunların hər biri kəndimizin adını ucaltmışdır.

Kəndimizdə adı hörmətlə çəklən bir şəxs də vardır: **Hacan Orucov.** Onun adı, şəxsiyyəti həmişə hörmətlə anılmışdır və indi də anılır. Mən Hacan Orucovu uşaqlıqdan tanımışam. Hacan kəndimizin sayılıb- seçilən nəsillərindən olan igid, qorxmaz, el- oba qədri bilən Topal Orucun nəvəsidir. Topal Oruc kəndimizin böyük tayfalarından biri olan Bayramlar tayfasından olan Qurban kişinin oğlanları



Bayram və Məhəmmədin, eləcə də onun uşaqlarının kirvələri olmuşdur. Göyçə mahalında, o cümlədən Toxlucada kirvə ən əziz qohumluq sayılırdı və indi də belədir.

Mən də kirvə kimi Hacana ərklə yanaşardım. Hacan uca boylu, iti baxışlı, ağır təbiətli bir şəxsiyyət idi. Davranışında ədəb- ərkən gözləyər, insanlara hörmətlə yanaşar, hamının xeyrinə-şərinə yarayardı. Tələsmək onun xarakterinə yad idi. Öz sakit baxışları, kəskin ağlı, güclü hafizəsi, ağır təbiəti də onu başqalarından fərqləndirərdi və hamıya sevdirərdi. Deyib- gülən qız- gəlinlər ondan xüsusilə abır- həya edərdi, utanıb- çəkinərdilər.

H.Orucov orta ixtisas təhsilini qədim İrəvan şəhərindəki Kənd Təsərrüfatı Texnikumunda, ali təhsilini İmam Hüseyn şəhəri və böyük Nizaminin vətəni olan Gəncədə Kənd Təsərrüfatı İnstitutunda (indiki Gəncə Kənd Təsərrüfatı Akademiyasında) almışdır. Kəndimizdə yetişən ilk ali təhsilli kənd təsərrüfatı mütəxəssislərindən biri idi. Öz davranışı, ağlı, fərasəti ilə el- obada həm gənclərin, həm də ahılların içərisində xüsusi hörmət sahibi idi. O, həm də sözü bütöv danışan, gənc ikən sanballı kişi kimi təkcə kəndimizin yox, demək olar ki, bütün Göyçə mahalının hörmətini qazanmışdı. Obanın qeyrətini çəkməkdə tayı-bərabəri yox idi. Təsərrüfatın hansı sahələrində çalışmasından asılı olmayaraq özünün şəxsi nüfuzu ilə seçilərdi. O, öz sözünün sahibi idi. O, olan yerdə yersiz danışan olmazdı. H.Orucov öz səyi, savadı, qətiyyəti sayəsində sovxoz direktoru kimi məsul vəzifəyə təyin olundu. Kəndin rəhbəri kimi təkcə kənd təsərrüfatının in-

kişafına yox, eyni zamanda təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına da fikir verirdi. Bu da onu daha çox sevdirirdi. H.Orucov sadəliyi ilə fərqlənən, seçilən bir insan idi. Heç bir vaxt özünü fərqləndirməzdi. Bütöv xarakteri, nüfuzlu baxışı ilə seçilən H.Orucov təkcə evinə, ailəsinə yox, həm də elinə, obasına hörmət gətirən ziyalılardandır. Atalar doğru deyib: **Ot kökü üstə bitər.** H.Orucovun kamallı, böyük kiçik yerini bilən oğulları var, bu oğullar da Hacan Orucov kimi özlərinə hörmət gətirəndilər. Qeyrətləri, canyananlığı ilə seçilirlər.

*Allah onlara yar olsun! Amin!*

***İbrahim BAYRAMOV***
***Filologiya elmləri doktoru***



## "YENİ ALMANİYA" QƏZETİ HACAN HAQQINDA



Göyçənin adlı-sanlı igidləri içərisində özünə məxsus yer tutan Hacan haqqında xatirə yazmaq o qədər də asan iş deyil. Bu igid xalqımızın qəhrəman oğlu Topal Orucun nəvəsi idi. Kimdir onun babası? Bu o babadır ki, 1918-ci ildə Göyçənin ən böyük kəndlərindən olan Toxlucaya hücum çəkmiş neçə yüz erməni daşnaklarının qarşısına təkbaşına çıxmış, onları yerindəcə susdurmuşdur. Məhz belə olmuşdur Hacanın kökü. Bu kök üstündə köklənən Hacan xalqının, Vətəni Göyçənin oğlu idi. Onun qəlbində həmişə Göyçə və göyçəlini dünyaya tanıtdırmaq fikri idi. O günləri yaxşı-yaxşı xatırlayıram. Həsən kişinin qızı Müşkünaz xanımın toyu idi. Kəndə 4 nəfər- iki qız, iki oğlan alman turisti gəlmişdi. Onlar Leypsiq Universitetinin tələbələri idilər. Hacan bu fürsəti əldən vermədi. Bir təsərrüfat rəhbəri kimi onları toya dəvət etdi. Alman tələbələri bizim xalqın adət-ənənələrini öz gözləri ilə gördülər. Mən alman dilini yaxşı bildiyimdən gah onların suallarına cavab verir, gah da onların toy haqqında təəssüratlarını xalqa tərcümə edirdim. Alman tələbələri bu toy axşamından böyük təəssüratla ayrıldılar. Dedilər ki, bu xalqın nə böyük ürəyi, nə geniş qəlbi və dünyaya sığmayan qonaqpərvərliyi var. Söz

verdilər ki, Almaniyaya qayıdarkən Göyçə və onun igid oğlu Hacan haqqında yazacaqlar. Hacan Azərbaycanın dilbər güşələrindən bir neçəsini qonaqlara tanıtdırmaq istədi. Belə də etdi. Səhər tezdən biz Qazax, Tovuz mahalına yollandıq. Bizi Qazaxda Hacanın dostlarından biri olan Nurəddin qarşıladı. Naharımız "Koroğlu" restoranında keçdi. Bir azdan Nurəddin kişi bizi evinə dəvət etdi. Həyətdə stollar açılmış, hər tərəf bayramsayağı bəzədilmişdi. Bizi aşıqlar qarşıladı. Qonaqlıq səhərə qədər davam etdi. Alman tələbələrinin sevincinin həddi-hüdudu yox idi. Ertəsi gün Tovuz camaatının qonağı olduq. Hər yerdə gülərüzlə qarşılanan almanlar öz təəccüblərini gizlədə bilmirdilər. Nəhayət, onlar bizi Almaniyaya dəvət etdilər. Dəvətlərini böyük məmnuniyyətlə qəbul etsək də gedə bilmədik.

Bir müddət keçdi. Hacanın ünvanına Almaniyadan bir məktub gəldi. Məktubun içində təşəkkür dolu sözlərlə yanaşı **"Neuls Deutschland"** "Yeni Almaniya" qəzetində çap olunmuş böyük bir məqalə vardı. Almanlar "Göyçə və onun adamları" haqqında, Hacan haqqında ürəkdolusu danışırdılar.

Xalqını və Vətənini yad ölkələrdə də tanıdan Hacan heyif ki, həyatımızdan tez getdi. Göyçə dərdi, Qarabağ ahunaləsinə dözə bilmədi bu insan. Ürəyi niskilli getdi dünyadan.

*Allah Hacana rəhmət eləsin, qəbri nurla dolsun!*

***Azad ƏLİ OĞLU NOVRUZOV,***
*Hacanın sovxoz direktorluğu dövründə kənd sovetinin sədri.*



## HACAN QƏNBƏR OĞLU MƏNALI BİR HƏYAT YAŞAMIŞDIR



Hacan müəllim yaşadığı el-obanın, onu tanıyanların hörmətini qazanmış bir insan idi. O, öz davranışı, danışığı ilə həmişə fərqlənirdi.

Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hər kəslə münasibət qurmağı bacarırdı. Doğru demişlər, insanı yaxşı tanımaq üçün onunla yoldaş olmaq lazımdır. Biz həm yoldaş olmuşuq, həm də dost. Onun dostluğu da özü kimi təmiz idi.

Hacan Orucov uzun müddət müxtəlif vəzifələrdə çalışmışdır. O, həm iş yoldaşlarına, həm də tabeçiliyində olan insanlara qarşı diqqətli idi. Onun dilindən, əməlindən inciyən olmamışdı. 1988-ci ildə mənfur ermənilər tərəfindən öz əzəli torpaqlarımız olan Göyçədən, el-obasından qovulmuş Hacan da Bakıya gəlmişdir. Bakıda da müxtəlif vəzifələrdə çalışmış və hər yerdə böyük hörmət qazanmışdır.

O, böyük bir kökün, nəslin övladı idi. Gözəl ailə başçısı idi. Özünə laiq övladlar böyütmüşdür. Amansız ölüm onu vaxtından tez aramızdan apardı. Hacanın əziz xatirəsi onu istəyən hər bir insanın qəlbində əbədi yaşayacaqdır.

***Məhərrəm QƏLƏNDƏROV,***
*əməkdar həkim*

## UNUDULMAZ ŞƏXSİYYƏT



Hacan Orucov mənim doğma kəndim Ağbulağa qonşu olan Toxluca kəndində dünyaya göz açmışdır. Ağbulaq kəndində orta məktəb olmadığına görə, mən 1953-1955-ci dərs ilində Toxluca kənd orta məktəbində Hacanla bir snifdə oxumuşam və orta məktəbi bərabər bitirmişik.

**1957-1960-cı illərdə** İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun ayrı-ayrı kurslarında birlikdə zootexnik ixtisası almışıq.

**1965-1970-ci illərdə** Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüffatı İnstitutunun zootexnik fakültəsində bərabər təhsil almışıq. Bizim səmimi dostluğumuz, qardaşlığımız beləcə başlayıb. Həmişə bir çox tədbirlərdə birlikdə olardıq.

Xatirimdədir, Göyçə mahalının Basarkeçər rayonunun Ağkilsə kəndində 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi keçirilirdi. Bakıdan, İrəvandan, Gəncədən, Qazax, Tovuz, Gədəbəy, Kəlbəcər və başqa rayonlardan çoxlu adamlar gəlmişdi. Ağkilsə kəndində insanların arasında hərəkət etmək mümkün deyildi.

Aşıq Ələsgərin büstünü Hacanla bərabər ziyarət etdik. Basarkeçərin "Aynalı" restoranında aşıqlardan İmran Həsənov, Əkbər Cəfərov, İsbəndiyar, Daşkəndli Hacı Bayramov, Alqayıt Xəlilov kimi görkəmli sənətkarlar oxuyurdular.

**1981-ci ildə** görkəmli Azərbaycan alimi Yaşar Qarayev Ağbulaq kəndinə Eldar və Hüseyn qardaşlarına qonaq gəlmişdi. İlin yaxşı fəsli idi.

"Dürlü bulağ"ın ətrafı gül-çiçəyə bürünmüşdü. Burada açılan süfrəyə Hacan Qənbər oğlu da dəvət olunmuşdu. Gözəl, yaddaqalan səmimi bir gün keçirdik. Hacan Yaşar müəllimin çox xoşuna gəlmişdi. Həmin gün Toxlucanın sahəsində olan "Turş" bulağı da ziyarət etdik.

Hacan Qənbər oğlu Orucov Krasnoselo rayonunun Yanıqpəyə kəndində kolxoz idarə heyətinin sədri vəzifəsində, Toxluca sovxozunda baş zootexnik, sovxozun direktoru vəzifəsində uzun müddət işləmişdir. Bu dövrlərdə də Hacanla həmişə əlaqəm olub. Toxluca camaatı Hacanın xətrini çox istəyirdi. Onun babaları ermənilərə qarşı amansız mübarizə aparmasına baxmayaraq, rayon rəhbərliyi ona böyük hörmət qoyurdu. İşdə çox bacarıqlı və səbirli kadr kimi tanınırdı.

**1988-ci ildə** ermənilər azərbaycanlıları ata-baba yurdundan deportasiya edən zaman Hacan da Bakıya köçdü. Bu gözəl, mərd insan bir neçə ildən sonra dünyasını dəyişdi. Dünya həmin gün öz gözəlliyinin bir parçasını itirdi.

***Zahid SADIQOV***
*Ağbulaq kolxozunun sədri*

## SƏDAQƏTLİ DOST



Qədim və Ulu Göyçə Azərbaycanın ürəyinin bir parçası, həm də yaralı yeridir.

Göyçə həmişə qonaqpərvərliyi ilə seçilib və dosta sədaqəti ilə fərqlənibdir. Ona görə də Göyçə mahalı təkcə göyçəliləri yox, o bölgə ilə bağlı şirin xatirələri olan bütün insanları kədərləndirir. Göyçə indi bir nisgilə çevrilib qəlbimizdə göynəyir.

Mənim Göyçədə yaşayan insanların bəziləri ilə səmimi dostluğum olub və onlarla olan şirin xatirələrim həmişə yaddaşımda yaşayır. Toxlucadan olan Hacan və İsgəndər mənim sədaqətli, etibarlı dostlarım olub. Hacanla mənim ilk tanışlığım 1971-ci ildən başlayıb. Həmin ildə mən **Axtamara** getmişdim. Mənimlə birlikdə qohumlardan Hacıyev Ələddin və başqa tanışlar, dostlar da orada idi. Biz **Axtamara** çatanda gördük ki, İsgəndərlə Hacan bir stolda əyləşib çörək yeyirlər. Bizi böyük səmimiyyət və ehtiramla stola dəvət etdilər. Biz xeyli yedik- içdik və söhbət etdik. Həmin gündən rəhmətlik Hacanla dostluğumuz və tanışlığımız davam etdirildi və dərinləşdi.

Bir dəfə isti yay günlərindən biri idi. Evdə oturmuşdum. Qonşunun uşağı mənə dedi ki, bir nəfər qonaq sizi çağırır. Mən kəndin mərkəzinə gələndə Hacanla İsgəndəri gördüm. Biz evə gəldik və məclisimiz xeyli davam etdi. Qonaqlar təklif etdilər ki, bir aşıq tapa bilərsənmi. Mən dedim ki məmnuniyyətlə.



Yadda qalan ən şirin xatirələrin biri də "Gözəldərə"də, "**Duzlu bulaq**"da olan qonaqlıq məclisidir. Həmin illərdə Abbas Mazanov Krasnoselo rayonunda İcraiyyə komitəsinin sədri işləyirdi. Abbas Mazanov bizi, yəni Abbas müəllimin tələbə yoldaşı Ziyad Orucovu **"Duzlu bulağ"**a qonaq dəvət etmişdi. Abbas müəllim bizi rayon mərkəzində qarşıladı. Mən təklif etdim ki, Hacanla İsgəndər də bizimlə olsa çox yaxşı olar. Telefon əlaqəsi yaradıb danışmalı olduq. Mənim əziz dostum Hacan dedi ki, Şorcaya dəyib gəlirik. Xeyli keçdikdən sonra İsgəndərlə Hacan gəldilər. Onlar tər-təzə qızıl xallı balıq da gətirmişdilər. Abbas müəllim dedi ki, mən Göyçəlilərin hamısını, Hacanla İsgəndəri daha çox istəyirəm. Ona görə ki, onlar mənim dostlarımla dostluq edirlər (o, bizi nəzərdə tuturdu).

İndi Hacan aramızda yoxdur. Ancaq onun yeri hər addımda görünür. Onunla bağlı olan şirin xatirələr dostlarının və tanışlarının qəlbində əbədi yaşayacaqdır, elə bir insanı itirmək hamı üçün kədərlidir. Onun ağıllı, səmimi, gözəl və şəxsiyyətli bir insan olduğunu heç bir kəs unuda bilməz. Allah ona rəhmət eləsin. Xoşbəxtlikdən bizim dostluğumuzu indi Bakı şəhərində uşaqlar davam etdirirlər.

Hacanın qızı Rəna xanım və kürəkəni Xaləddin müəllim mənim uşaqlarım Elşən və Eldənizlə qonşudurlar. Arzu edirəm ki, bu dostluq da axıra qədər davam etdirilsin.

***İmamqulu HACIYEV,***
*Gədəbəy rayonunun Şınıx bölgəsinin Hacılar kəndi*

## GENİŞ QƏLBLİ İNSAN



Hacan Orucovla bağlı kitab yazıldığını eşidəndə çox şad oldum. Aramızdan vaxtsız getmiş bu dəyərli insanın adını kitaba salmaq, əbədiləşdirmək doğrudan vacib işdir. Çünki sözün həqiqi mənasında Hacan müəllim yaxşı insan idi, daha doğrusu, insanların gözəli idi. Bu kitaba görə hörmətli şairimiz Eldar İsmayıla öz təşəkkürümü bildirirəm. O, belə bir kitabı ərsəyə ğətirməklə mənim də Hacan haqqında ürək sözlərimi deməyə imkanı yaradıb.

Hacan Orucov təkcə sovxoz direktoru kimi yox, bir şəxsiyyət kimi də əvəzsiz bir eloğlu idi. O, elin-obanın böyük hörmətini qazanmışdı. Hacan ağır təbiətli, saxtakarlığı, süni şöhrəti sevməyən, namuslu, qeyrətli ər kişi idi.

Əlbəttə, Hacan Orucov haqqında mənim də bildiklərim çoxdur. Onların hamısını demək imkanım olmasa da, onunla bağlı bir xatirəmi sizinlə bölüşmək istəyirəm.

Hacan Orucovun sovxoz direktoru işlədiyi dövrdə mən sovxozun mexanizasiya briqadiri işləyirdim. Bir gün xəbər gəldi ki, mexanizatorlardan biri öz işini görərkən texnikanı aşırmışdır. Biz hadisə yerinə çatanda gördük ki, texnika tamamilə yararsız hala düşüb, necə deyərlər, sıradan çıxıb.



Bu hadisəni gizləmək, daldalamaq mümkün deyildi. Çünki ehtiyat hissələrini tapıb gətirmək üçün xeyli vəsait lazım idi. Həm də bu işi başa çatdırmaq üçün 20-30 gün vaxt lazım idi. Qəza törətmiş mexanizator mənə dedi ki, baş vermiş hadisəni Hacan Orucova sən özün de, qoy vaxt versin mən öz xərcimlə texnikanı yığıb ayaq üstə qaldırım.

Başqa cür imkan yox idi. Mən fikirləşdim ki, elə Hacan müəllimə beləcə də deyim. Nəhayət, mən Hacan Orucovun yanında olub hadisəni təfsilatı ilə ona danışdım. O, özünəməxsus təmkinlə, səbrlə məni dinlədikdən sonra dedi:

- Özünə bir şey olmayıb ki?
- Xeyr, bir şey olmayıb, -dedim.

Üzündə bir təbəssüm oynadı:

- Allaha şükür olsun! Xatasız- bəlasız ötüşüb, yaxşı olub. Texnika dəmirdi, qırılıb dağılsa da düzələr. Kasıb adamdı, onun nəyi var ki, biz bu xərci onun üstünə ataq. Səhər gedərsən rayona, nə ehtiyat hissələri lazımdırsa sovxozun hesabına alıb gətirərsən. Ancaq ehtiyat hissələrini təkcə onun adına deyil, həm də başqa mexanizatorların üstünə yazarsan. Ancaq bu işi bir həftəyə başa çatdırarsan.

Mən Hacan Orucovun dediyi kimi elədim. Bir həftəyə texnikanı ayağa qaldırdıq. Bütün mexanizatorlar, hamı Hacan müəllimə öz təşəkkürlərini, razılıqlarını bildirdilər.

Geniş qəlbli, böyük ürəkli, təmkinli, səbrli, ləyaqətli Hacan Orucov haqqında belə misalları çox çəkmək olar. Məsələ ondadır ki, hər kəs bu müdrik insanın kimliyi haqda bilgi əldə etsin.

*Allah Hacan müəllimə rəhmət eləsin!*

***Hacı HƏSƏN ASLANOV***

# ƏSİL VƏTƏNDAŞ İDİ



Mən Hacan Orucovu yaxşı təsərrüfat rəhbəri və xeyirxah bir insan kimi xatırlayıram. O, hamı ilə - böyüklə, kiçiklə mehriban rəftar edərdi. Çalışardı ki, hamıya kömək etsin. Hacan müəllim bir müddət Yanıqpəyə kəndində sovxoz direktoru işlədi. Həmin müddət mən də rayonun baş mühasibi vəzifəsində işləyirdim. Bütün kəndlərin illik balansını mən qəbul edirdim, çətinliyi olanlara köməklik göstərirdim. O cümlədən Yanıqpəyə kəndinin balansını bağlamağa yardım edərkən kəndin mühasibi Hacan Orucovun mənimlə eyni kənddən olduğuna görə yox, sözün həqiqi mənasında ondan razılıqla danışardı. Onun işlərini, camaata göstərdiyi yaxşılıqları ürəkdən tərifləyərdi. Mən də onun haqqında eşitdiklərimdən çox sevinər və onunla fəxr edərdim.

Müəyyən müddətdən sonra Hacan Orucov Toxluca sovxozuna direktor təyin edildi. Mən də həmin müddət rayon Kənd Təsərrüfatı Birliyində mühasib işləyirdim. Hacan müəllimin xalq arasında qazandığı hörmətinə görə Toxluca sovxozuna lazım olan kənd təsərrüfatı



texnikasının alınmasında hər cür kömək göstərdim. Buna görə də o, məni görəndə həmişə razılıq edərdi. Bu razılığın müqabilində mən də ona deyərdim ki, bu sizin öz hörmətinizdir. Siz hər zaman böyük hörmətə layiq insansınız.

Hacan Orucov işlədiyi bütün sahələrdə özünə hörmət qazanardı, xalqın xeyir-duasını alardı. Ona görə ki, o, el-obaya sədaqətli bir insan idi. Ümumiyyətlə, Hacan xeyirxah, mərd, səxavətli, vətənini, millətini son dərəcə sevən şəxsiyyət idi.

*İbrahim QƏHRƏMANOV*

## TARİXİ ŞƏXSİYYƏTLƏR UNUDULMUR



Tarixi şəxsiyyətlər öz həyat fəaliyyətləri ilə insanların məhəbbətini qazandıqları kimi, gözəl insani xüsusiyyətləri ilə müasirlərinin xatirələrində yaşayır, silinməz izlər buraxırlar. Belə xatirələr böyük və dahi insanların şəxsiyyəti, həyatı, ictimai mövqeyi haqqında geniş məlumat verir. Bu nöqteyi-nəzərdən Göyçə mahalının qeyrətli oğlu Hacan Orucov haqqında söz demək, xatirələr yazmaq böyük əhəmiyyətə malikdir. Xatirələr nəinki onun tərcümeyi-halının bir çox məlum olmayan məqamları haqqında, eləcə də onun Vətənə olan sevgisi, insanpərvərliyi, humanistliyi, səxavətliliyi və s. xüsusiyyətləri haqqında zəngin təsəvvür yaradır. Mən Hacan Orucovun keçən əsrin 70-80-ci illərdəki həyat və fəaliyyətinin müəyyən bir qismini beyin süzgəcimdən keçirəndə bir daha hiss edirəm ki, o böyük insan şərəfli bir həyat yolu keçmişdir.

Hacan Orucov uca boylu, olduqca yaraşıqlı, dalğın baxışlı, mənalı və zəhmli bir şəxsiyyət idi.

Onun təbiətindəki böyüklüyü, insanpərvərliyi, əqidə möhkəmliyini, dosta, qohuma və millətinə hədsiz məhəbbətini, dostluqda sədaqət və etibarını,



həqiqətpərəstliyini xüsusi qeyd etmək istərdim.

Hacan Orucovun gənclərə qayğı ilə yanaşdığı, onlara əməli, məsləhəti və nəsihətləri ilə kömək etdiyi barədə çoxlu misallar çəkmək olar. Belə ki, o, Toxluca sovxozuna direktor təyin edildikdən sonra kəndin savadlı gənclərindən bir neçəsini sovxozun idarəetmə aparatında yuxarı vəzifə pilləsinə irəli çəkmişdi.

*Mərhəmətli idi.*

*Az danışıb, çox dinləməyi xoşlayırdı.*

*Həlim xasiyyətli idi.*

*Açıq ürəkli və cəsarətli idi.*

*Qatı türkçü idi.*

**1980-ci illərin** əvvəllərində sərnişin vaqonunda azərbaycanlılarla ermənilərin möhkəm davası düşmüşdü. Həmin savaşın nəticəsi olaraq kəndlilərimizi ermənilər həbsxanalara atıb məhv etdirmək istəyirdilər. Rəhmətlik Hacan müəllim öz şəxsi əlaqələrindən istifadə edib ermənilərə yaxşı dərs vermiş azərbaycanlıların həbs edilməsinə imkan vermədi.

Mən onu bu ərəfədə çox narahat görürdüm. Elə hey deyirdi ki, uşaqları ermənilərin cənginə keçirmək olmaz. Onun milli heysiyyatı yol vermirdi ki, bu savaşda erməniləri əzən Azərbaycan balaları əziyyət çəksinlər.

Orucov həm də İrəvanda texnikumu bitirmişdi. O, texnikumda təhsil aldığı illərdə İrəvan şəhərində hansısa ali məktəbin erməni tələbələri ilə davaları düşmüşdü. Atamın dediyinə görə, həmin davada Hacan müəllim kəndçimiz Baba Seyidovla arxa-arxaya verərək onlarla ermənini şil-küt etmişdilər. Bu hadisə

İrəvanda böyük hay-küyə səbəb olmuşdu.

O, gənclik illərindən yüksək vəzifələrdə çalışmışdır. Onun idarəetmə üsulu həmişə demokratik fikirləri və təklifləri ilə daha çox yadda qalmışdır. O, çox gözütox, ağayana dövlət aparatında çalışan məmurlardan biri idi. Hacan müəllim bütün sadə və kasıb insanlarla daha çox ünsiyyətdə olmağı xoşlayır və bu qəbildən olan insanlara öz köməkliyini heç zaman əsirgəmirdi. O, elin-obanın bütün xeyir və şər məclislərinin daim iştirakçısı idi. Göyçə mahalının bütün kəndlərində onu çox yaxşı tanıyır və ona çox hörmət və ehtiramla yanaşırdılar.

Olduqca qonaqpərvər bir insan idi. Onların evindən heç vaxt qonaq əskik olmazdı. Həyət-baca daim qonaq-qaralı olurdu. Hətta kəndimizdə nabələd insanların hamısını o mütləq evinə dəvət edərdi. Heç olmasa bu insanlar onun süfrəsində mütləq çörək kəsməli idilər.

Yaxşı yadımdadı, səksəninci illərin əvvəlləri olardı. Hamı danışırdı ki, şair Hüseyn Arif Hacan müəllimin qonağıdır. Hüseyn Arif həmin dövrlərdə Eldar İsmayılla dostluq edirdi. Vaxtaşırı Ağbulağa gəlirdi. Bu səfərlərindən birində Hacan müəllim Hüseyn Arifi Eldar İsmayılla birlikdə qonaq dəvət etmişdi.

Çox yaxşı yoldaşlığı vardı. Mən ondan yaşca çox kiçik olsam da, 1988-ci ilin oktyabr ayında birlikdə Basarkeçər rayonunun Daşkənd kəndinə toya getmişdik. Mən həmin günləri xatırlayanda bir daha hiss edirəm ki, Hacan müəllim nə qədər müsbət keyfiyyətlərə malik bir şəxsiyyət idi. Hətta biz birlikdə qonşu kənddən gəlin gətirməyə də getdik. Qayıdarkən



yolda, Daşkəndə çatmamış bütün maşınlar saxladı. Qara zurnanın sədaları altında hamı rəqs edirdi. Dayandığımız yer çox hündür və səfalı bir yer idi. Mən də rəqs etməyə başladım və Hacan müəllimi rəqsə dəvət etdim. Baxmayaraq ki, mən onun toylarda heç vaxt oynadığını görməmişdim. Rəhmətlik həm də çox ağır təbiətli insan idi. Bəlkə də o ömründə birinci və axırıncı dəfə idi ki, oynayırdı. Mənim dəvətimi qəbul etdi və mənimlə çox qısa müddətə rəqs etdi. Mən sonradan başa düşdüm ki, o hətta mənim qəlbimi sındırmamaq üçün dəvətimi qəbul edibmiş.

Bu insanın gözəlliyi onda idi ki, o həyatı boyu kimsənin xətrinə dəyməmişdi. Məhz bu xüsusiyyətlərinə görə onun yoxluğu bütün hamı kimi məni də yandırıb yaxır.

O, insanla tez ünsiyyət qurmağı bacarırdı. Harada olurdusa, mütləq həmin yerdə onun çoxlu dostları olurdu. Yaxşı yadımdadır ki, onun istirahətdə olduğu şəhərdən-Truskavetsdən çoxlu qonaqları gəlmişdi.

Hacan müəllim dostluğa çox sadiq adam idi. Onun fərdi keyfiyyətləri və şəxsi münasibətləri bu gün də dostları tərəfindən həmişə yad edilir, xatırlanır.

Hacan müəllim haqqı-ədaləti çox sevərdi və ədalətin öz yerini tapması üçün daim mübarizə aparırdı. 1984-cü ildə mən tələbə olarkən sovxoz rəhbərliyi məni şərləyib tutdurmaq və beləliklə də ali məktəbdən qovdurmaq istəyirdilər. Bu ərəfədə Hacan müəllim çox prinsipial mövqe tutdu və şəxsi əlaqələri hesabına məni həm həbs olunmaqdan, həm də ali məktəbdən qovulmaqdan xilas etdi. Belə bir xilaskar insan mənim

ürəyimdə əbədi yaşıyacaq, mən, ailəm və uşaqlarımla birgə bu günə qədər həyatda nə qazanmışamsa hamısı üçün məhz Hacan Orucova borcluyam və ömrüm boyu ona minnətdaram.

Hacan müəllimin bütöv bir şəxsiyyət kimi formalaşmasında onun hansı kök və nəsildən olmasının da kifayət qədər rolu vardır. Belə ki, Hacan Orucov daim Sovet hakimiyyətinə və erməni daşnaklarına qarşı mübarizə aparan, həmişə çətin ayaqda millətimizin xilaskarı rolunda çıxış edən Topal Orucun nəvəsidir.

Mən bu sətirləri yazarkən, nədənsə Aqşin Babayevin "Kişilər az yaşadı" kitabını xatırladım. Bəlkə də bu həyatı reallıqdır. Əgər doğrudan da belədirsə kişilərin az yaşamasına bəlkə də dözmək olardı...

Lakin bütöv şəxsiyyət, səmimi insan, mehriban dost, əziz qohum və cəsarətli rəhbər olan Hacan Orucov öz əziz xatirəsi ilə mənim qəlbimdə əbədi yaşayacaqdır.

*Allah ona qəni-qəni rəhmət eləsin!*

***Məhərrəm HƏSƏNOV***





*Pyatiqorsk. Ön cərgədə, sağda Məmməd Əliyev (Əmirxeyir), arxada, sağda Hacan Orucov və Hüseyn Qələndərov*

## AĞIR TƏBİƏTLİ, MİLLİ RUHLU KİŞİ



Soyuq dekabr ayının son günləri idi. Səhər tezdən işə hazırlaşırdım ki, oğlum Şaiq çölə çıxaraq qayıdıb dedi ki, sizi müəllim çağırır. Çölə çıxdım, çağıran adamla görüşdük. Bu qəsəbədə (Qara Çuxurda) hamının müəllim kimi tanıdığı və müəllim deyə çağırdıqları, əslən Qərbi Azərbaycanın Krasnoselo rayonunun Toxulca kəndindən olan Xaləddin Hüseyn oğlu Məmmədov idi. Evə dəvət etdim, tələsirəm deyərək qəbul etmədi. O, gəlişinin səbəbini açıqlayaraq məndən xahiş etdi ki, gözəl, qayğıkeş, yüksək səviyyəli, vətənpərvər və millətini canından artıq sevən Orucov Hacan Qənbər oğlu haqqında öz xatirələrimi yazım.

Həqiqətən biz Qərbi Azərbaycanlılar orada yaşayarkən biri-birimizdən, tanıdıq-tanımadıq, xəbər tutar, qeyrətli insanlarımızın nailiyyətlərinə sevinər və onunla fəxr edərdik. Belə insanlardan biri də Hacan müəllim idi. Hacan müəllimin dəyərli mütəxəssis olduğunu və Krasnoselo rayonunun Yanıqpəyə kəndində kolxoz sədri, Toxulca sovxozunun direktoru və sair vəzifələrdə çalışdığı haqda qiyabi məlumatım olsa da, onunla Qərbi Azərbaycanda görüşmək mənə nəsib olmamışdı. Görüşümüz 1988-ci ilin ən məşəqqətli günlərindən olan noyabr ayının 19-da oldu.



Mən Bakıya noyabr ayının 17-də gəldim. Bir gün sonra eşitdim ki, hər yerdə olduğu kimi Sabunçu (keçmiş Lenin) rayonunda da bir dəstə könüllü yurdundan, yuvasından didərgin düşmüş, həyatın ən ağır məşəqqətlərinə düçar olmuş, bütün varidatını itirmiş bu zavallı insanlara kömək durmaq üçün hər cür əziyyətlərə qatlaşır, onların hər cür məsələlərinin həlli üçün rayon rəhbərliyi ilə danışıqlar aparır. Onu da qeyd edim ki, o vaxt rəhbərlikdə çoxlu erməni kadrları olduğu halda, xeyli milli ruhda təəssübkeş azərbaycanlı olduğu kimi, rəhbərlikdə olanlar arasında biqeyrətlər də az deyildi. Çünki o vaxt hakimiyyətin başında Əbdürrəhman Vəzirov kimi şəxs dururdu ki, bu günkü bəlalarımızın çoxusu elə o vaxt səpilən toxumun cücərməsindən bəhrələnir. Ə.Vəzirov hər dəfə televiziya ilə çıxış edib xalqa "muştuluq" verirdi ki, ermənilər yenidən Bakıya qayıdır. Bu sözdən Bakıda yaşayan ermənilər daha da həyasızlaşırdı. Qərbi Azərbaycanlıların dəyişdirmə yolu ilə əldə etdikləri evlərin qiymətlərini artıraraq zavallı insanların əllərində olan qəpik- quruşu alır və onlara olmazın əziyyətlər verirdilər. Belə bir vaxtda xalqın Hacan müəllim kimi qeyrətli oğullarına tələbi daha çox artırdı. Mən həmin dəstəyə qoşulanda onlar artıq xeyli iş görmüşdülər. Onlardan yadımda qalanları, Orucov Hacan Qənbəroğlu (Krasnoselo rayonu), Əsgərov Keyqubad Ələkbəroğlu (Ağbaba rayonu), İnsanov Əlı (Noyenberyan rayonu, Ləmbəli kəndi), Məhərrəmov Məmmədəli (Zəngibasar), Osman adlı cavan oğlan (Ağbaba, şair). Dəstə 15 nəfərdən ibarət idi. Onların 3 nəfəri qadın, qalanları isə kişilər idi.

Bu dəstə yüzlərlə qaçqının mənzil və sair işlərinin dü-

zəlməsinə yardımçı olmuşlar. Bu işlərdə Hacan müəllimin xeyirxahlığı və əməyi danılmazdır.

Ümumiyyətlə, bir məsələni də qeyd etməliyəm ki, Xaləddin müəllim mənə bu xatirəni yazmağı təklif edəndən sonra mən xeyli vaxt özümə gələ bilmədim. Axı, biz bu qaçqınlıq dövründə nələri və kimləri itirmədik ki, illərlə min bir əziyyətlə yığdığımız var-dövləti, doğma yurdumuzu, ulularımızın qəbirlərini, inanc yerlərimizi, tarixi abidələrimizi, bir sözlə, indiki Ermənistan adlanan bir dövlətin bütün ərazisini, dağ-daşlarının min bir nemətli bağçalarnı və sair...

Fəlakətimizə ürəyi tab gətirməyən, vaxtından tez köçən Hafiz Baxışı, Fərman Kərimzadəni, Səfiyar Musayevi, Rəşid İbrahimovu, Hacan Orucovu və başqalarını itirdik. Bu siyahını daha çox uzatmaq olar. Adları qeyd olunan bu qeyrətli Vətən oğulları, Vətən itkisinin acı məşəqqətlərinə dözə bilmədilər. Bu gün Qərbi Azərbaycanlıların itkisi çoxdur, bu heç də maddi cəhətdən deyil, məhz mənəvi cəhətdəndir.

Kim idi Hacan Qənbər oğlu Orucov?

Hacan müəllim çox abırlı, heç vaxt uca səslə danışmayan, sakit təbiətli ziyalı şəxsiyyət idi. O, insanlarla danışdıqca çox utancaq bir görkəm alar, heç vaxt əsəbləşməz, çox asta səslə öz fikirlərini söyləyərdi. Məhz bu xüsusiyyətlərinə görə Hacan müəllim onu tanıyanlar arasında böyük hörmətə layiq bir şəxsiyyət idi. Hacan müəllim həm də gözəl ailə başçısı idi. O, 2 oğul, 5 qız atası idi. Onun həyat yoldaşı azəri qadınlarına xas olan yaxşı nə varsa özündə cəmləşdirən Minayə xanım Ağəli qızı idi. Onlar birlikdə övladlarına tərbiyə və təhsil vermiş, xalqına, millətinə



layiq bir insan kimi böyütmüşlər. Hacan müəllim uşaqlarının vətənpərvər böyüməsində həyat yoldaşı Minayə xanımın əməyini yeri gələndə qeyd edər, "vallah mən işdən baş aça bilmirəm, səhər tezdən evdən çıxıb işə gedirəm, gecədən xeyli keçmiş evə qayıdıram. Uşaqlarla anaları daha çox məşğul olur" deyərdi. Hacan müəllimlə yaxınlığımız 1988-ci ildən 1995- ci ilə qədər -yəni Hacan müəllimin həyata əbədi göz yumduğu günə qədər davam etmişdir.

Bu müddət ərzində onun nə qədər böyük ürək sahibi olduğunun mən dəfələrlə şahidi olmuşam. Biz Hacan müəllimlə birgə yalnız Qərbi Azərbaycanlıların işi ilə məşğul olmamışıq, eyni zamanda satqın və xəyanətkar ermənilərin Bakıdan çıxarılmasında birgə fəaliyyət göstərmişik. Gördüyümüz çoxsaylı işlərdən birini qeyd etmək istəyirəm.

**1989-cu ildə** mən Leninneftdə, indiki Balaxanı neftdə aqronom işləyirdim. Burada idarənin rəis müavini işləyən, əslən Qazımməməd rayonundan olan Dilbar Dadaş oğlu Qədimov adlı bir şəxs var idi. O, təpədən dırnağına kimi millətçi olmaqla bərabər ermənilərə qarşı sonsuz nifrəti olan bir adam idi. Dilbar müəllimin işlədiyi indiki Balaxanı neftin sol tərəfində idarəyə bitişik bir "alaqapı" deyilən qəsəbəyə giriş qapısı var idi. Qapının üstündə iri həriflərlə "Ulitsa Şaumyan, pasyolok Amiryan" sözləri divara çox möhkəm həkk olunmuşdu. Bu rayonda qaçqınların pulla aldığı evlərin əksər çoxluğu indiki Balaxanıneft idarəsinin balansında idi. Həmin mənzil məsələsinə Dilbar müəllim rəhbərlik etdiyi üçün bizim onunla tez- tez görüşümüz olurdu. Bu görüşlər əsasında Dilbar müəllim bu yazı haqqında öz narazılığını bildirmişdi. Bir gün yenə görüş vaxtı Dilbar

müəllim həmin məsələ barəsində söhbət açaraq həmin yazının götürülməsini Hacan Orucova və mənə həvalə etdi. Dilbar müəllimin qaçqınlara mənzil məsələsində və işə düzəlmələrində böyük əməyi olduğunu bildiyimizə görə biz bu işi yerinə yetirməyə can-başla girişirdik. O vaxt Xalq Cəbhəsi nəzdində Zəngəzur cəmiyyəti yaranmışdı. Bu cəmiyyətdə xeyli sayda Azərbaycanın mərd və qeyrətli oğlanları toplaşmışdı. Hacan müəllimlə mən də bu cəmiyyətin üzvü idik.

Hacan müəllimlə mən öz aramızda belə bir iş bölgüsü apardıq. Texniki cəhətdən, yəni lazım olan inventar və alətin təminatını o yaratmalı, işçi qüvvəsini mən təmin etməli idim. Hacan müəllim əvvəl oraya yaxın olan rayon xəstəxanasının baş həkimi ilə görüşüb lazım olan alətlərin saxlanması üçün yer almış, sonra o vaxtkı Leninneftin 3 saylı MİS-nin rəisi, əslən İsmayıllı rayonundan olan Adil Ağadadaş oğlu Abdullayevdən çoxsaylı bel, külüng, ağır dəmir toxmaq, daş kəsən balta və sair almış, maşınla gətirib xəstəxananın gözətçi otağına yığmışdı. Bu alətlərin verilməsi Dilbar Qədimovun tapşırığı ilə MİS tərəfindən yerinə yetirilmişdi. Biz Zəngəzur cəmiyyətinin üzvlərindən yalnız Qərbi Azərbaycanlılar deyil, Azərbaycanın bütün bölgələrindən olan qeyrətli oğlanlardan 17 nəfər səhər tezdən avtobusla həmin əraziyə gəldik və işə başlamazdan əvvəl yüngülvari iş bölgüsü apardıq. Çünki həmin yerin 40-50 metirliyində rayon İcraiyyə Komitəsinin və milis idarəsinin binaları yerləşirdi. Burada Hacan müəllim girişdə dayanmalı, gələn milis işçilərini yaxına buraxmamalı idi. Həqiqətən elə də oldu. Bir neçə milis nəfəri işə mane olmaq istəsə də, Hacan müəllim onları çox



sakit, özünəməxsus bir tərzdə başa salıb, geri qaytarır, demək olar ki, iş manesiz gedirdi.

Bu vaxt Leninneftin rəisi Yaqub Şirinova Lenin rayon Partiya Komitəsinin ikinci katibi zəng vurub deyir ki, birinci katib bu gün burada yoxdur, xahiş edirəm bu məsələni bir günlük dayandır. Yaqub Şirinov isə "əşi, gecə söküblər, heç bilməmişik" cavabı verir. Demək kimliyindən asılı olmayaraq bu adların silinməsini hamı ürəkdən istəyirdi. Ancaq hələ də ürəklərdə Sovet hökumətinin qorxusu var idi. Artıq gündüz saat 2 olardı, çox çətinliklə olsa da alaqapı sökülüb qurtardı, uşaqlar işlətdikləri alətləri xəstəxananın həyətinə apararkən 10-12 yaşlarında bir oğlan uşağı tələsik velosipedlə bizə yaxınlaşıb "dayı hara gedirsiniz, içəridə, yəni qəsəbədə Şaumyanın eşşəkdən yekə bir heykəli var" deyərək qəsəbənin içərisinə doğru getməyimizə bələdçilik etdi. Həqiqətən heykəl çox böyük idi. Çox möhkəm materialdan hazırlandığı üçün əlimizdə olan alətlə onu dağıtmaq mümkün deyildi. Bu vaxt DT-75 traktoru göründü. Hacanın fəallığı ilə yoldaşlar həmin traktoru gətirib heykəli yerindən çıxarıb yararsız hala saldılar. Bundan əvvəl Xətai rayonunda da Şaumyanın heykəlinin götürülməsi işində Hacan Orucovun iştirakının şahidi olmuşam.

Bəli, yaxşılar heç vaxt unudulmur. Onların əziz xatirələri zaman-zaman nəsillərdən nəsillərə ötürülərək xalqın qəlbində yaşayır. Bu gün Hacan Orucov aramızda yoxdur, onun gözəl əməllərinin nəticəsi olaraq "Ulitsa Şaumyan, pasyolok Amiryan" da yoxdur və heç vaxt olmayacaq.

Ulitsa Şaumyan Seyid Hüseyin küçəsi olub.

Şaumyanın eşşəkdən yekə heykəlinin yerində isə Azərpoct dövlət idarəsinin 3 saylı poct idarəsinin 34 saylı filialının gözəl binası yerləşir və Azərbaycan xalqına layiqincə xidmət göstərir.

Hacan Qəmbər oğlu Orucovun övladları özləri artıq övlad böyüdüb ata-ana olublar. Hər birinin öz ailəsi, öz evi var.

Hacan müəllimin ömür-gün yoldaşı bu gün yaşayır. Onun ən çox sevdiyi Hacan müəllimin dünyasını dəyişəndən sonra dünyaya gəlmiş ikinci Hacan Oruc oğlu Orucovdur. Yaxşı insanlar cismən həyatı tərk edirlər. Onların gözəl əməlləri hər vaxt onu tanıyanların qəlbində yaşayır.

Ruhun şad olsun Hacan müəllim. Qəbrin nurla dolsun, torpağın yüngül olsun!

Mən əminəm ki, sənin övladların sənin adını hər vaxt uca tutacaq, xalq arasında olan hörmətini artıracaqlar.

*Abbas İBRAHİM OĞLU SƏFƏROV,*
*Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri*



## MƏNLİKLİ İNSAN



Əsil xalq adamı olmaq üçün, insani məsuliyyət hissini qoruyub saxlamağı bacarmalıdır. Onda o əsil xalq adamı adlanır. Hacan Qənbər oğlu Orucov həmin insanlardan biri idi.

Bizim qabaqkı tanışlıq və dostluğumuz hər ikimizin ürəyindən idi. İş elə gətirdi ki, 1975-76-cı illərdə sabiq Krasnoselo rayonunun Əmirxeyir kəndində mən, Yanıqpəyə kəndində Hacan Orucov kolxoz sədri işləyirdik. Bu iki kolxoz bir-birinə həmsərhəd idi. Allah eli şən eləsin, Qaraqoyunlu mahalı çox gözəl, cənnət məkan mahaldır. Bir yanı Göyçə mahalı, bir yanı Murğuz dağı, bir yanı Çayqarışan körpüsü, Şinkar bulağı. Yəni "Karvansara". İcevan rayonu Qaraqoyunlu mahalının bütün kəndləri yamyaşıl meşəli, hər dərəsi, hər təpəsi soyuq bulaqlıdır.

Bu cənnət diyar məkana şeir yazanlar çoxdu. Lap əvvəlini şair Eldar İsmayıl başlayıb. Mən də bir coğrafi poema yazmışam. Ondan bir neçə bəndi nümunə üçün yazıram.

*Dorh yalınnan yuxarı qalx,*
*Yol gözləyir Soyuqbulaq.*
*Çökək yurddan dön geri bax,*
*Şən eylə sən, ağrın alım.*

*Çalmalıdan sağa-sola,*
*Nəzər yetir bala-bala,*
*En aşağı kalafalığa,*
*Nur çilə sən, ağrın alım.*

Qaraqoyunlu mahalının insanları qeyrətli, qonaqpərvər, cəngavər və əsil elm adamlarıdır.

Gündəlik olmasa da Hacan Orucov xanımı Minaya Ağəli qızı və kiçik oğlu Mayislə Əmirxeyrə, mənim yanıma gəlirdi. Mən rəhmətlik Qıyas Əliyevin evində arvadım Gülarə xanım və kiçik oğlum Camalla birlikdə qalırdıq.

Söhbətlərimiz və fikirlərimiz üst-üstə düşürdü. Hər görüşdə soruşardı ki, təzə nəyin var. Dedim oxuyuram, qulaq as. Dedi ki, amma yaxşı təhlil elə ha. Aşağıdakı "Qoruya biləm" rədifli şeri oxudum.

### *QORUYA BİLƏM*

*Elə ağlım ola, elə kamalım,*
*Özümü özümnən qoruya biləm.*
*Səbrim səbr ola, ismətim ismət,*
*Sözümü sözümnən qoruya biləm.*

*Boylanıb baxdıqca dövrə, zamana,*
*Uymayam şöhrətə, uymayam şana.*
*Nəfsimə güc gələm lənət şeytana,*
*Gözümü gözümnən qoruya biləm.*

*Hamıya xoş gələ verdiyim salam,*
*İnsanlar qəlbində insan tək qalam.*



*İnşallah arzumdu, maşallah olam,*
*İzimi izimnən qoruya biləm.*

*Sidqinən bağlanam haqqı xudaya,*
*Borcumu borc biləm ata, anaya,*
*Şükürlər eyləyəm qismətə, paya,*
*Üzümü üzümnən qoruya biləm.*

*Səsimə səs verə səsi sevənlər,*
*Allahu Məhəmməd, Əli deyənlər,*
*Zəki İslam çoxdu özün öyənlər,*
*Dizimi dizimnən qoruya biləm.*

Şeiri oxuyub qurtarandan sonra üzünə baxdım.

Nə baxırsan denən ölək qurtaraq, bu nədi əyə yazıbsan? Qoruya biləm, qoruya biləm, dağlardan yaz, gözəlliklərdən yaz, ağıllı bir şey yaz. Yanına gələn kimi başlayırsan imannan, "Quran"nan. Bu qorxu bəsdi, bircə buradan salamat üzü ağ qurtaraq gedək. Onda nə yazırsan yaz. Hələ Bəşir kişi sənə və Gülarə bacıya nə deyib, sən Allah olduğu kimi danış. Əgər düzünü deməsən özüm söyləyim. Dedim söylə.

- Onda Gülarə bacımdan başlayım. Bir gün Bəşir qonşunuz sizə gəlir, Gülarə xanım qonağa armudu stəkanda yox, güllü, bəzəkli çaşqada çay gətirir. Bəşir kişi yönünü o yana tutub ortalığa deyir: Bu nədi ay sədir, almağa bir arvad tapmadın, qonağa çay gətirmək də bilmir. Qiyas əmi deyir a qonşu, gəlinin xətrinə dəyər, elə söz danışma. Bəşir kişi də deyir cəhənnəmə, gora dəysin. Qaraqoyunluda arvad yoxdu? Gülarə yengə evdən çıxır, qonaq gedənə kimi evə gir-

mir. Birini də deyim, səfim olsa düzəlt. Dedim bu bəs oldu, dedi yox. Yaxşısı o biridi deyib sözə başladı.

Bax, o ağacın üstündə oturub şirin- şirin söhbət edəndə dediyini deyirəm. Eşit gör sənə nə deyib. Sən deyibsən Bəşir əmi, səhər tezdən saat 4-5-də durur, qışqırırsan, səsinə əlavə səslər qarışır, yatmağa qoymursan. Sənə deyir ki, əyə danışığını qansana, səni Sovet hökuməti, Kommunist Partiyası bu kolxozu tikmək, düzəltmək, camaata çörək vermək üçün rəhbər göndərib. Sən də yatmaq yeri gəzirsən. Göyçədən yönü bəri səksən qəbristanlıq keçibsən, birində yatardın də. Dedim hələ çoxunu bilmirsən. Dedi birini də yaddan çıxarma. Mayısla, Camal 5 yaşlarından yaxşı at, eşşək minmək öyrənirlər, elə bir qazanc da budu.

Bir sözlə, Hacan Orucov o qədər də zarafatı sevən adam deyildi. Ancaq çox səmimi, az danışan, dəqiq dinləyən, ismətli, ağayana kişi idi.

***Hacı ZƏKİ İSLAM***



## CƏSARƏT SİMVOLU



Mən, Hacan Qənbər oğlu Orucovu 1957-58-ci illərdən tanıyırdım. O illərdə mən Toxluca kənd orta məktəbində müəllim işləyirdim. Bir gün eşitdim ki, Hacana toy etməyə hazırlaşırlar. Mən də həmin toyda iştirak etməyə maraqlı idim.Hacan haqqında çoxlu yaxşı sözlər eşitmişdim. İstəyirdim onunla yaxından tanış olum. Onunla tanış olub söhbətləşmək elə də asan deyildi. O, sakit təbiətli, çox danışmağı, zarafatı sevməyən ciddi bir gənc idi. Bir dəfə Toxluca məktəbinin qabağında bir neçə müəllim və məktəbin direktoru İsa Əhmədov söhbət edirdik. Hacan o biri tərəfdən gəlirdi. Müəllimlərdən biri dedi ki, Hacan atasına nisbətən boyca balaca görünür. Qənbər əmi ucaboylu, enli kürək, şux qamətli bir insan idi. Söhbətə müdaxilə edən İsa Əhmədov dedi ki, Hacan çox cəsarətli oğlandır. Onda olan qətiyyət, qorxmazlıq bizim Toxlucada heç kimdə ola bilməz.

Belə ki, bir dəfə Sevan şəhərində yük avtomobilinin üstündə dayanmışdıq. Bir neçə erməni bizə "turka" deyib rişxənd etməyə başladı. Hacan heç kəsə baxmadan onların üstünə atıldı və kəllə ilə ermənilərin bir neçəsinin ağzınıburnunu qana boyadı, biz sürücümüzün köməyilə zorla onu

maşına qoyub qaça bildik. Mən onun nə qədər cəsarətli olduğunu onda gördüm.

Gözümlə gördüyüm daha bir hadisə: Toxluca sovxozu deyilən aşağı kənddə 1958-59- cu illərdə Hacanın dayısı Aydaş müəllim (o uzun müddət müəllim, məktəb direktoru, maarif şöbəsinin inspektoru vəzifələrində işləmişdi. Hamının ona böyük hörməti vardı) kafedə işləyirdi. O zaman Toxluca sovxozunun aqronomu işləyən Koçaryan Mexaq və zootexnik işləyən Vartanyan Qarağinlə Aydaş müəllim arasında nisyə mal üstündə söhbət oldu. Ermənilər Aydaş müəllimə qarşı çox yüngül təhqiramiz söz işlətdilər. Hacanın atılmağı ilə hər iki ermənininin ağız-burnu bir-birinə qarışdı. Özündən qat-qat güclü görünən iki ermənini bir an içərisində əl tərpətməyə qoymayan Hacanı ağsaqqalar zorla sakitləşdirə bildilər.

O, həmişə təmkinli, sakit hərəkətləri ilə hamının diqqətini cəlb edirdi. Hacanla ünsiyyətdə olanlar onunla yalnız ciddi danışmağın lazım olduğunu bilirdilər. Yanıqpəyəlilər ona həmişə Orucov deyə müraciət edərdilər. Toxluca sovxozunda işləyəndə də, rayon mərkəzində işləyəndə də özünün ləyaqəti, düzgünlüyü, işgüzarlığı, məsuliyyəti ilə seçilirdi.

O, hər zaman qəhrəman bir nəslin törəməsi olduğunu unutmurdu. Sözün əsil mənasında Topal Orucun nəvəsi, kəndin qocaman və ən hörmətə layiq ağsaqqallarından olan Orucoğlu Qənbərin oğlu idi.Qənbər əmi Böyük Vətən müharibəsi iştirakçısı idi. O, Böyük Vətən müharibəsində göstərdiyi şücaətə görə bir neçə medallarla və ikinci dərəcəli Vətən müharibəsi Ordeni ilə təltif edilmişdi. Mənim Hacanla tanışlığımın səbəbkarı da elə o olmuşdu.



Dərsdə idim, mənə dedilər ki, Qənbər əmi səni axtarır. Mən məktəbin həyətinə çıxdım. O, mənimlə çox səmimi görüşdü və dedi: Oğlumsan, cavansan, bəlkə də bilmirsən. Bizim ata- babalarımız çox səmimi olublar, biz həm kirvə, həm də bir evli kimi olmuşuq. Ona görə də mən səni xanımımla birlikdə yeganə oğlum Hacanın toy məclisinə dəvət edirəm. Balaca kağızda yazılmış dəvətnaməni mənə uzatdı. O, çox zəhmli adam idi. Mən dəvətnaməni götürüb, təşəkkür etdim. Həyat yoldaşımla birlikdə toya getdim. Bizə çox qiymətli bir pay da qoydular. Həmin anlardan sonra mən Hacanla daha yaxın oldum. Tez-tez görüşdük. Bir- birimizə hörmətlə yanaşdıq.

Sonradan atam mənə nağılladı ki, bəli Qənbər əmin çox doğru deyir. Sənin baban Əsəd oğlu Məhəmmədlə Oruc kişi kirvə olublar. Baban Ocaqqulu Məşədi Məmmədlə siğə qardaş yazılıb. Bir- birinə gümüş xəncər bağışlayıblar.

Məşədi Məmməd baba ilə mənim babam Ocaqqulunun siğə qardaş olmaları haqqında Aydaş müəllim də öz xatirələrini mənə danışardı. O, deyərdi ki, mən (Aydaş müəllim) Çaykənddə oxuyanda Hasan Xanlarda (Hasanxan oğlu) qalırdım. Gülməmməd, Məşədi Məmmədin, Oruc kişinin yaxın qardaşları olublar. Atamın təkidilə Bəryabadda Ocaxqulu əmimgilə dönəndə o həmişə məni yolun kənarındakı bağa aparar, mənə seçmə almalardan yığıb ərmağan qoyar, təkidlə həmişə məni evdən paysız buraxmazdı, mənə qardaş oğlu deyə müraciət edirdi. Bağbana tapşırdı ki, həmişə mənim qardaşım oğlu bağa gələndə ən seçmə almalardan ona pay verərsən.

Bir sözlə, Hacan bizim Göyçə və Qaraqoyunlu mahallarında ən məşhur, ən cəsur, ən qeyrətli tayfa kimi məşhur

olan, öz cəngavərlikləri ilə ermənilərı daim qorxu altında saxlayan bir tayfanın oğlu idi.

Uzun müddət Krasnoselo rayonunda maliyyə şöbə müdiri işləyən, Hacandan ən azı 10 yaş böyük olan Şəkər İvanoviç Martirosyan həmişə ondan (Hacandan) çəkinərdi. Çünki Hüsənli igidlərinin həlak olmasında atası İvanın əli olmuşdu. O, mənə dəfələrlə deyərdi ki, Hacanla mən nə qədər şirin danışmaq istəyirəm, zarafat edirəm, o, bir dəfə də olsun gülmür, qaş-qabağı açılmır. O, qisas ala bilər deyə Hacandan çəkinir və Boryanları müqəssir sayırdı.

Belə ki, Hüsənli igidləri Hüsənli Qasımın, Həmidin dəstənin başçısı Topal Orucun və başqalarının qətlamında Tutucur (Qoturbulaq) kəndindən olan Martirosyan Levonun və Martirosyan İvanın xüsusi rolu olmuşdu (onlar inqilab komitəsinin üzvü olmuşdular).

Toxlucalılarla Qoturbulaqlıların bir-birilə torpaq iddiası olmuşdur. Toxluca igidləri həmişə Boryan Arakelin (Boryan Karienin atası) toxlucalılardan torpaq qoparmaq iddiasına qarşı çıxmışlar. Bu işdə Topal Oruc həmişə mübariz olmuş, ermənilərə Toxluca torpaqlarının verilməyəcəyini təkid etmişdir.

Martirosyan Şəkərin danışdığına görə, Toxluca camaatına qarşı düşmən mövqedə duran Boryan qardaşlarının (Baqrat və Armenak Boryanlar, onlar 26-lardan idilər, Boryan Arakelin qardaşı oğlanları) Bakıdan xəbər göndərirlər ki, artıq Nikolay hökuməti yıxıldı, Toxluca camaatından qisas almağın vaxtıdır. Bu xəbəri alan Qoturbulaqlılar dövlət nümayəndələri adı ilə bir dəfə Toxlucada Hüsənlilərin evlərini mühasirəyə alırlar. Hüsənlilər səhər tezdən yuxudan duranda onların mühasirəyə alındıqlarını görürlər.



Vəziyyəti belə görən Cığal Həsən, oğlu Hüseyn, qardaşı İmamqulu və başqalarını götürüb Qara Vəlinin evinin üstündən sürünüb mövqe tuturlar. Hüsənlinin işarələrini gözləyirlər. Elə bu zaman Topal Oruc qadın paltarı geyinib suya getmək adı ilə bayıra çıxır. Sənəklərini görən ermənilər çaşır və tez ayılır, onlardan biri "o Topal Orucdur" -deyə bağırır. Topal Oruc tez sənəyi atıb daşın arxasında mövqe tutur. Elə bu anda Cığal Həsənin dəstəsi də atəş açır, ermənilərin dəstəsi əl qaldırıb qaçır. Bu məğlubiyyətdən sonra ermənilər hiyləyə əl atmalı olurlar. Cil kəndində sapı özümüzdən olan baltalardan birini hiylə ilə ələ keçirərək Hüsənli qətləmini törədirlər. Hacan rəhmətlik bunları bilir və həmişə ermənilərə qarşı barışmaz mövqe nümayiş etdirirdi.

Çox təəssüflər olsun ki, Hacanın qəlbindən keçən qisas vaxtı yetişmədən o, dünyasını çox erkən dəyişdi. O çox sədaqətli dost, mehriban yoldaş, namuslu bir insan idi. Onun cismən aramızda olmamasına baxmayaraq o, şanlı bir nəslin qəhrəman oğlu kimi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Əminəm ki, onun qəhrəman babasının adını daşıyan oğlu Oruc Hüsənli tayfasının adını daşıyan bütün övladları Etibar Məmmədovun başçılığı ilə öz babalarının qisasını bütün Azərbaycan xalqı ilə birlikdə xəyanətkar ermənilərdən alacaqlar.

***Məmməd ALI OĞLU QURBANOV,***
*Krasnoselo, Bəryabad kəndi, müəllim*

## O, QƏLBİMİZDƏ YAŞAYIR



Nə çətinliyim olsa o mənə kömək edərdi. Mən onu tələbəlik illərindən tanıyıram. Hacan tələbəlik illərindən yoldaşlığa sədaqətli, mehriban bir şəxsiyyət idi. Gəncə Kənd Təsərrüfatı İnistitutunda oxuyarkən dostluq və yoldaşlıq edirdik. Orucov Hacan institutun zootexnik fakültəsini qurtarıb, öz doğma kəndi Toxlucaya qayıdıb kiçik vəzifələrdən sovxoz direktoru vəzifəsinə kimi yüksəldi. Toxluca təsərrüfatı ən böyük sovxozlardan biri idi. O, öz işinin öhdəsindən layiqli gəldiyinə görə bütün rayon aktivlərinin hörmətini qazanmışdı. O zaman mən də Cölkənd kəndində sovxoz direktoru vəzifəsində işləyirdim. Onunla həmişə yoldaşlıq edirdim. Son zamanlar Orucov Hacanı Qaraqoyunlu dərəsinin Yanıqpəyə kəndinə sovxoz direktoru göndərdilər. O zaman həmin sovxoz geridə qalmışdı. Onu tezliklə qabaqcıl sovxozlar sırasına gətirib çatdırdı və işlədiyi az müddətdə Qaraqoyunlu dərəsinin camaatının böyük hörmətini qazandı.

Orucov Hacan harada işləməsinə baxmayaraq həmişə bütün camaatın hörmətini qazanmış bir insan idi. Mən camaat arasında bir nəfərin də onun pisliyi haqqında danışdığını eşitmədim.

1988-ci ildə ermənilər azərbaycanlıları qovub zorla öz ata-baba torpaqlarından çıxardan zaman Orucov Hacan da bizim kimi qovulub qaçqın düşdü. Biz bir-birimizin ünvanını öyrənib hərdən görüşür, söhbət edirdik. Görüş zamanı ermənilərin bu haqsızlıqlarından danışıb çox kədərlənirdik. Onun nə qədər dərindən kədərləndiyini mən görürdüm. O, həmişə mənə deyirdi ki, bu hadisələr mənim ürəyimi çox ağrıdır və məni rahat buraxmır. Mən görürdüm ki, o çox vicdanlı və qeyrətli bir şəxsiyyətdir.

Hacan elə bir şəxsiyyət idi ki, onun haqqında çox danışmaq olar. O, bu həyatdan vaxtsız getdi. Onun vaxtsız ölümü hamını sarsıtdı. Hacan Orucov hamının qəlbində yaşayır.

*Allah ona rəhmət eləsin!*

***Qarasim ABDULLAYEV,***
*Gölkənd sovxozunun keçmiş direktoru*

# HACAN ORUCOV HAQQINDA XATİRƏLƏRİM



Əsirlikdə inləyən ulu yurdlar- Göyçə, Qaraqoyunlu. Min illərdir kürək-kürəyə söykənmiş iki sirdaş, iki həmdəm kimi bir-birinə sarılmış Qərbi Azərbaycan mahalları. Üzərində acı yellər əsdi. Dağılmaz ellər dağıldı. O ellərdən acılı-şirinli xatirələr qaldı.

"Qiblə təpə"nin şiş qurbangahından şimali-qərbə baxanda bu yerlər cilvəli gözələ bənzəyir, Göyçə gölü ovuc içi kimi görsənir. Min illər idi ki, Göyçə gölünün ətrafında dövrələmə oğuz elləri özlərinə yurd salmışdılar.

"Qiblə təpə"dən cənubi şərqə baxanda isə, "Tərsə çay" boyunca səpələnmiş, Soyuqbulaq və Murğuz dağlarının qoynuna sığınmış 13 kənddən ibarət Qaraqoyunlu mahalını görmək mümkün idi.

Göyçə və Qaraqoyunlu elləri çoxlu sayda ziyalılar, mərd insanlar, rəhbərlər yetişdirmişlər. O cümlədən bu insanlardan biri də Göyçə mahalında dünyaya göz açmış Orucov Hacan idi. Rayonda ayrı-ayrı sahələrdə çalışan Hacan kişi 1975-ci ildə Yanıqpəyə-Qaraqoyunlu mahalının 85 evlik, 540 nəfər əhalidən ibarət gözəl mənzərəli meşələrdə əhatə olunmuş "Qalaca təpə"nin qənşərində sıra ilə



düzülmüş kirəmidli, eyvanlı evlərdən ibarət dağ kəndinə sədr təyin edildi. Yanıqpəyə kolxozu rayonda iri təsərrüfatlardan biri hesab olunurdu. Kənd əhalisi və təsərrüfatla yaxından tanış olan Hacan Orucovun ilk işi kolxoz təsərrüfatını, o dövr üçün daha səmərəli, əmək adamları üçün daha faydalı olan sovxoz təsərrüfat formasına keçirmək oldu. Kənd əhalisi ilə yaxın tanışlığı olmasa da, qısa zaman içində yüksək rəhbərlik təcrübəsi, təmkini ilə kənd camaatının etibarını, hörmətini qazana bildi. Atam Talıbov Rəşid Hasanpaşa oğlu 1964-1970-ci illərdə kəndimizdə kolxoz sədri işləmişdi.

Orucov bizim kəndə direktor təyin olunanda atam müəllim işləyirdi. Diqqətcil insan olan Hacan kəndin rəhbəri işləmiş atama xüsusi ehtiramla yanaşar, hörmətini saxlayardı. Bu da onda paxılllıq, qısqanclıq kimi hisslərin olmamasından xəbər verirdi. O, 1978-ci ilin oktyabr ayına kimi Yanıqpəyə sovxozunda direktor kimi çalışdı. Bu illər ərzində, kənd camaatının hörmət və məhəbbətini qazandı ki, bu da hər insana nəsib olmur. Həmin dövrdə sovxozun baş mühasibi işləmiş Məliş Hətəmov, təsərrüfat briqadiri Məhəmməd Nuruoğlu, iqtisadçı Nazim Mustafayev, anbardar Qara Süleymanov, briqadir Zakir Mustafayev, maldarlıq briqadiri Cəmşid Binnət oğlu, çobanlar-Çopan, İslam, Cəlal, Seyid, İsmayıl, Cahan kişi və s, müəllimlər Balı Sərdarov, Həmid Sərdarov, şair İlyas Talıbov, Əliş Hətəmov, Tağı Əhmədov və kənd əhalisi bu insanı həmişə xoş xatirələrlə anırdılar. Onun müsbət insani və rəhbər keyfiyyətlərindən ağız dolusu danışırdılar.

Hacan müəllimin səriştəli rəhbərliyi nəticəsində təsərrüfat daha da inkişaf etdi. Camaatın rifah halı yüksəldi,

əmək haqları artdı. Kənddə abadlaşdırma işləri görüldü. Hər ilin yazında sovxozun hesabına aşıqlı, musiqili el şənlikləri təşkil edirdi.

Təəssüflər olsun ki, ermənilərin xəyanətkarlığı nəticəsində o xoş xatirəli günlər, doğma yurdlar indi bizlərdən aralı düşüb. Qismətinə köçkünlük, qaçqınlıq yazılmış bir çox qeyrətli həmvətənlərimiz kimi, Hacan kişi də yurd həsrətinə, Göyçə, Qaraqoyunlu, cəmi Qərbi Azərbaycan itkisinə dözə bilməyib, aramızdan çox vaxtsız getdi. Allah yurdlarından zorakılıqla qovulmuş, yurdlarından kənarda, qəriblikdə vəfat etmiş soydaşlarımıza rəhmət eləsin! Sağ qalan həmvətənlərimizə yurdlarına qayıdışlarını nəsib eyləsin. O ulu yurdlarından yenə də gülüş, musiqi, şənlik sədaları gəlsin, xoş xatirələr yaşansın!

***Rizvan RƏŞİD OĞLU TALIBOV,***
*"Qərbi Azərbaycana (Ermənistana) Qayıdış Birliyi"nin sədri, "Haqq və Ədalət" qəzetinin baş redaktoru*



## XATİRƏSİ QƏLBİMİZDƏ YAŞAYACAQ



**1990-cı ildə** Azərbaycan Qaçqınlar Cəmiyyətində ideologiya şöbəsində baş təlimatcı işləyirdim. Bura tez- tez, daha doğrusu şöbə müdirimiz Eldar İsmayılın yanına xoş təbəssümlü, olduqca səmimi, düzgün əməli ilə seçilən bir nəfər gəlib gedirdi. Eldar müəllim həmişə onun haqqında ürəkdolusu danışardı.

-Bilirsiniz, nə qədər təmiz, düz adamdı,- deyərdi- Qərbi Azərbaycanda Çənbərək rayonunun Toxluca kəndində sovxoz direktoru işləyirdi. Kənd sakinlərinin hamısı onu ürəkdən sevirdi. Dost-tanış üçün də başqa insan idi.

Hacan müəllimlə tanışlığımız beləcə başladı. Doğrusu, bu tanışlığa çox məmnun oldum. Bu insanda hörmətli yazıçı-şair Eldar İsmayılın təsvir etmədiyi daha yüksək insani keyfiyyətləri gördüm. Yüksək mədəniyyət, əxlaq sahibi idi. Olduqca səmimi, düz, mənalı və məntiqli danışığı vardı. Böyük tarixi şəxsiyyətlərə məxsus alicənablığı da öz yerində. Yoldaşlıq, dostluq üçün əsil nümunə olacaq insan idi. Onunla söhbət edəndə özümdən asılı olmayaraq ondan nə isə götürməyə, öyrənməyə çalışırdım. Bu adam mənim üçün az qala qeyri- adi bir insana çevrilmişdi.

**1991- ci ilin** payız ayları idi. Xətai rayonunda qaçqınlara

yardım paylamağa getmişdim. AQC- nın həmin rayon üzrə sədri Bəylər müəllim idi. İş yoldaşım Məhəmməd Vəliyevlə bir neçə adama pul vermişdik ki, 4 nəfər çox çətin vəziyyətdə olan qaçqın bizə müraciət edib, onlara yardım göstərməyimizi istədilər. Başqa adamların pulunu verə bilməzdik. Odur ki, cibimizdə olan şəxsi pulumuzu həmin adamlara verdik. Bütün bunlar Hacan müəllimin insani keyfiyyətləri sayəsində oldu.

Eldar İsmayılın rəhbərliyi ilə "Ulu Göyçə" qəzeti buraxırdıq. Redaksiyanın əməkdaşları Rafiq Fərəcov, Nəsib Qaramanlı, Hüseyin İsmayılov (redaktor) və mən Qərbi Azərbaycanla, xüsusilə Göyçə ilə bağlı yazılar hazırlayırdıq. Həmin yazılarda Hacan müəllimin adı tez-tez çəkilir, o, qaçqınlara kömək edənlər içərisində bəlkə də ön sırada dururdu. Sonralar Hacan müəllimin, qəfil ölümü bizi sarsıtdı. Onun ölümü ağır dost itgisi idi.

*Allah sənə rəhmət eləsin Hacan müəllim. Qəbrin nurla dolsun. Xatirən qəlbimizdə daim yaşayacaq!*

***Saşa ƏLİYEV,***
*ATU-nun Əsaslı kitabxanasının direktorunun elmi işlər üzrə müavini, Azərbaycan Jurnalistlər Birliyinin üzvi*



## HACAN MÜƏLLİM HAMIYA ƏZİZ İDİ

Mən Orucov Hacan Qənbər oğlunu 1977-ci ildən, Yanıqpəyə kəndində sovxoz direktoru işlədiyi vaxtdan tanımışam. Hacan müəllimlə ilk tanışlığımızdan gördum ki, o çox layiqli, mehriban və təmiz bir insandır.

Onun rəhbərliyi, təşkilatçılığı hamı kimi məni də maraqlandırırdı və get-gedə bizi bir-birimizə yaxınlaşdırırdı. Bu müdrik insan dəfələrlə mənim qonağım olub və mən həmişə onunla ehtiyatla söhbət etmişəm. Çalışırdım ki, həmişə onunla birlikdə olum, tez-tez görüşüm. Onun alicənablığı, insaniyyəti mənim çox xoşuma gəlirdi. Mən həmişə Yanıqpəyə camaatı ilə ünsiyyətdə olmuşam və Hacan müəllimi soruşmuşam.

Butun kənd camaatı ondan razılıq edirdi. Hamı deyirdi ki, Hacan muəllim gələndən bəri bizim dolanmamiz yaxşı olub. Bunu eşidəndə ona qarşı hörmətim daha da artırdı. Hacan muəllim bizim kəndin də xeyir və şərində həmişə iştirak edirdi. Onun haqqında daha çox danışmaq və yazmaq olar. Bu insanı itirmək faciədir. Onun həyatdan tez getməsi hami kimi məni də sarsıtdı, kədərləndirdi. Allah ona rəhmət etsin!

***İbrahim MUSTAFAYEV,***
*Çaykənd sovxozunun baş mühasibi*

## BACARIQLI, SAVADLI RƏHBƏR



Mən Orucov Hacan Qənbər oğlu ilə 1976-ci ildə Yaniqpəyə sovxozunda 5 il muddətində birlikdə işləmişəm. İşlədiyimiz müddətdə mən Hacan muəllimi bacarıqlı, savadlı, işgüzar rəhbər kimi tanidim və onunla işləməyə başladım. O, işlədikcə kənd camaatının böyük hörmətini qazandı və böyük nufuza malik oldu. Bizim camaat onu həm rəhbər, həm də kəndin ağsaqqalı kimi qəbul edirdi. Kəndimizin xeyir və şər işlərinin təşkil olunmasında həmişə köməklik göstərər, özu də ailəsi ilə birlikdə iştirak edərdi. Bu insan haqqında nə qədər çox danışsaq da doya bilmərik.

Bizim kolxozumuz sovxoz olan zaman Hacan muəllim bütün işçilərindən ərizə alıb sovxoza fəhlə keçmələrini təşkil etdiyi gün yaxşı yadımdadır. O, hər şeyə özü başçılıq edirdi. Hamının qayğısına qalır, hər kəsə ürək yanğısı ilə yanaşırdı.

Bir dəfə rayonun milis rəisi kəndə qonaq gələndə bizə tapşırıq verdi ki, qonaği bulaq başına aparın. Qonaq erməni olduğu üçün özü getmədi və dedi ki, erməni bizim düşmənimizdir.



Mən Hacan muəllimi gözəl bir ailə başçısı kimi tanıyıram. Onun ailəsi də bizim camaata qaynayıbqarışmışdı. Hacan muəllim çox sadə, təmiz qəlbli qayğıkeş bir insan olduğu üçün hamı onu sevir, hörmət və ehtiramla davranırdı. Çünki bunu o özu qazanmışdi. Onun ölümü bizim camaatı da çox sarsıtdı və həyacanlandırdı. Böyükdən kiçiyə hamı onun üçün ağladı. Hamı kimi mən də ona Allahdan rəhmət diləyir, övladlarına can sağlığı arzulayıram.

*Burdan bir atlı keçdi,*
*Atın oynatdı keçdi.*
*Gün kimi şəfəq saçdı,*
*Ay kimi batdı keçdi.*

***Məhəmməd NURU OĞLU İSMAYILOV***

## ƏSİL XALQ ADAMI



Mən Orucov Hacan Qənbər oğlunu 1965-ci ildən tanıyırdım. Həmin ildə mən Krasnoselo rayonunda komsomol komitəsinin ikinci katibi işləyirdim. Ona görə də rayonun bütün kəndləri ilə müntəzəm münasibətdə olurdum.

Toxluca qoyunçuluq və maldarlıq uzrə Krasnoselo rayonunda ən böyük sovxoz idi. Həmin sovxozda çoxlu sayda işguzar gənc mutəxəssis çalışırdı. Onlardan biri də Orucov Hacan Qənbər oğlu idi. Hacan müəllim çox təvazökar, öz ixtisasını əla bilən, xalqın hörmətini qazanan, işgüzar, mədəni, əxlaqlı, bütün xüsusiyyəti ilə hamıdan seçilən şəxsiyyətli bir gənc idi. Onda olan bu xüsusiyyətləri nəzərə alaraq o, Yanıqpəyə (sonradan Meşəkənd) maldarlıq sovxozuna və Toxluca qoyunçuluq sovxozuna direktor vəzifəsinə təyin edilmişdi. Hər iki kənddə işlədiyi vaxt zəhmətkeşlərin və bütün camaatın hörmətini qazanmışdı. O, bizim kənddə işlədiyi vaxt cox böyük işlər görmüşdü. İlk növbədə kənd camaatının şəraitini yaxşılaşdırmağa nail olmuşdu. Bizim kəndin orta məktəbi 8 illik idi. Məktəb uşaqları 10-cu sinfi oxumaq uçun başqa kəndlərə gedirdilər. Hacan



muəllim Yanıqpəyəyə gələndən sonra kənddə 10 illik məktəb açdırdı və uşaqlar başqa kəndə oxumaq uçun getmədilər.

Hətta Hacan Orucov Krasnoselo rayonunda islədiyi vaxt dəfələrlə rayon sovetinin deputatı, rayon partiya komitəsinin üzvü olmuşdur.

**1988-ci ildə** məlum hadisələrdən sonra, Baki şəhəri Xətai rayon Qaçqınlar Cəmiyyətində işlədiyi vaxt da Hacan müəllim qaçqın və koçkünlərin hörmətini qazanmışdı. Bu insan həyatda, cəmiyyət arasında qoyub getdiyi hörmətlə özünə bir heykəl qoymuşdur. Həmin hörmət və məhəbbəti heç kim tərəfindən unudulmur və unudulmayacaq. Çünki o böyük bir şəxsiyyət və gözəl bir insan idi. Allah ona rəhmət eləsin.

***Ziya SƏRDAROV***

# OT KÖKÜ ÜSTƏ BİTƏR



Husənlilər tayfası Göyçə mahalında tanınmış tayfa olubdur. Nəinki Göyçədə, hətta Qaraqoyunlu mahalında, Tovuzda, Gədəbəydə və bir çox yerlərdə tanınmış igid adamlarına görə ad-san qazanmışlar. Elinin-obasının həmişə tərəfində durmuş, hamısını qoruyub saxlamışlar. Onların adı gələn yerə yadlar girə bilməmişlər. Ata-babalarımızdan onların igidliklərini, səxavətlərini, kaslblara əl tutmaqlarını dəfələrlə esitmişik. Onlar böyük bir nəslin, tayfanın igid övladları olublar. 1905-ci ildə olan bund davasında onlar dəstə toplayıb düşmənə qarşı vuruşublar və kəndlərin heç birinə düşmənin girməyinə imkan verməyiblər. 1918-1920-ci illərdə daşnakların davasında Hüsənlilər nəinki Toxluca kəndinə, həm də qonşu kəndlərə düşmənin girməsinə imkan verməmişlər. Toxluca kəndindən Polad kəndi arasında olan məsafədə onlar dağların-dərələrin bütün keçidlərində postlar qoymuşlar.

Hər kəndə qoçaq adamlardan başçı təyin etmişlər. Əmirxeyir. Bəryabad kəndinin silah tutan adamlarının hamısı "Soyuqbulaq" yaylağından hər kəndin öz ətrafını gecə və gündüz mühafizə etmişlər. Əmirxeyir kəndinin



dəstə başçısı Dümələ oğlu Paşa, Namazalı oğlu Yusif, Qaci oğlu Mikayıl, Yaniqpəyə kəndindən Qurban Tapdiq oğlu "Abdulla dərəsi"nin yuxarı hissəsində dağın başında xeyli sayda erməni qırmışlar. Polad kəndində dəstənin başçısı Məşədi Abdu, Qarakərim, Qənbər, Allahverdi, İmamqulu olmuşdur. Bunların güçünə heç bir duşmən kəndə girə bilməyib. Bu işlərin hamısını təşkil edən Hüsənli igidi Topal Oruc olmuşdur. Onun tapşırığı ilə göstəriş verilib ki, kimin dəstəsinin arasından duşmən keçsə özü günahkar sayılacaq.

Topal Orucun oğlu Qənbər kişini hamı tanıyırdı. O, gözəl xasiyyətli, mərd, səxavətli bir kisi idi. Əmirxeyirdə Əsəd oğlu Məhəmmədin uşaqlarının kirvəsiydi. Onların kirvəliyini, bir-birinə olan hörməti, münasibti el-oba danışırdı. Həm də el-oba Hüsənli igidlərinə həsəd aparırdı.

Krasnoselo rayonuna Kəvərli bir ermənini raykoma katib qoymuşdular. 5-6 ay işlədikdən sonra öyrənir ki, Toxlucada Topal Orucun törəmələri haqda məlumat yığır. Katib istəyir ki, Husənlilər qıran ermənilərin qisasını bunlardan alsın. Həmin vaxt Əsədov Ağəli kolxoz sədri işləyirdi. Onun sayəsində erməni raykomu heç nə eləyə bilməmişdi.

Qənbər mərdanə kişi idi. Hamıya kişi deməklə hər kəsdə kişi nişanəsi olmur.

Qənbər Oruc oğlu da kənddə müəyyən vəzifələrdə çalışmış və xalqın böyük hörmətini qazanmışdı. Qənbər kişi müharibə illərində kasıblara, əsgər ailələrinə əl tutub, çoxköməklik etmişdi. Onu nə qədər sıxışdırırdılar, yenə də var əlini kəsmir, onları dolandırırdı.

Ağır təbiətli Qənbər kişinin güldüyünü biz görməmişdik. O, möhkəm iradəyə malik, əxlaqlı, təmiz ürəkli, təmiz qəlbli bir insan idi.

Qənbər kişi oğlu Hacana yüksək səviyyədə tərbiyə vermişdi. Hacan da tərbiyəsinə, mərifətinə, əxlaqına görə seçilən bir insan idi. İnsanlar öz övladlarına Hacan kimi olmağı tövsiyə edirdilər. Hacan balaca vəzifələrdən yüksək vəzifələrə qədər ucalmışdır. İşlədiyi müddətdə rayonun özündə və butun kəndlərdə boyuk hörmət qazanmış, alnı açıq olmuşdur. Elin dediyi kimi Hacanın bünövrəsi möhkəm qurulmuşdu. O istər dövlət, istərsə də xalqın yanında başı uca idi. Həmişə familyası ilə çağrılan Hacan müəllim Yaniqpəyə kəndində sovxoz direktoru işlədiyi zaman evsizlərə ev tikdirdi. Camaat üçün bacardığı qədər şərait yaratdı, onların dolanışığını yaxşılaşdırdı və camaat arasında boyuk nufuz qazandı. Orucov kəndin içi ilə işə gələndə kəndin kişiləri belə ondan həya edirdilər. O, özünü heç vaxt yuxarı tutmaz, camaatın toyunda kəndin əziz oğlu kimi iştirak edər, hər cür köməklik göstərirdi. Olduqca alicənab, insansevər, mudrikliyi ilə seçilən Hacan müəllimin sakit təbiəti, mulayim danışığı, asta yerişi, hamını heyran ediədi.

Hacan müəllim Toxluca sovxozuna direktor göndərildiyi zaman da Dərə kəndlərinin xeyrində-şərində həmişə iştirak edərdi. Qaraqoyunlu kəndlərinin hamısında onlarin kirvələri, qardaşlıqları olub. Hacanla bulaq başında çörək yeyəndə bizim hamımıza tərbiyəli sözlər deyərdi. O, deyərdi ki, çalışın elin gözündən duşməyin, bu zaman adam hörmətsiz olur, acgözlük, tamahkarlıq isə kişini kişilikdən salır. Hacan hər deyilən sözə inanmaz, öyrətməyə baxmazdi. O işi özü görüb subuta yetirməyə çalışardı.

Heyvandarlıqda qışlamanın vəziyyəti ilə bağlı iclas gedirdi. Ferma mudiri Abdulla müəllimə söz verildi. O, belə bir söz işlətdi ki, çobanlar yemi aparır, qoyuna vermirlər. Sonra sovxozun direktoru Hacan Orucova söz verildi. O, dedi ki, Abdulla özünün tonla apardığını demir, çoban cibində apardığını görür. Çoban çox əziyyət çəkir, zəhmət çəkir, onları incitmək olmaz.

Hacan Orucov zəhmətkeşlərə, fəhlələrə yaxşı baxırdı. Onları mukafatlandırır, əməklərini daim dəyərləndirirdi. Hacan öz babasının, atasının, kök və nəslinin adını daha da ucaltmışdı. El onun qeyrətinə, namusuna, əxlaqına, qoçaqlığına, əldən-qoldan çox iti olduğuna həsəd aparırdı və hamı onun xətrini çox istəyirdi.

Biz ağsaqqallar indi də Hacanın danışdığı sözləri, öyüd və nəsihətləri hər gün danışırıq. Onun haqqında danışanda məyus olmaya bilmirsən. Çox heyif ki, o, bu həyatdan tez köçdü.

***Ələsgər DƏMİR OĞLU***

***Əmirxeyir***

## ÖNCƏ CAMAATI DÜŞÜNƏRDİ



**1963-cü ildən** Yanıqpəyə kəndində baş mühasib vəzifəsində işləmişəm. Bərabər işlədiyim ilk kolxoz sədri Əhmədov Qurban olub. 1964-cü ildən 1970-ci ilə kimi Talıbov Rəşid Hasanpaşa oğlu, 1971-ci ildən 1975-ci ilə kimi Mustafayev Qulu ilə birgə iş yerində çalışmışam. 1975-ci ildə Hacan Qənbər oğlunu Yanıqpəyə (Meşəkənd) kənd kolxozuna sədr təyin etdilər. Mən şəxsən onun kimi alicənab bir insanla ilk dəfə qarşılaşırdım. O, kolxoza təyin olunan gündən kolxozda işçi qüvvəsini artırmaq üçün fəaliyyətə başladı.

Orucov işə gələn gün mən onunla keçmiş işçilərlə işləyib işləməməsi barədə soruşdum. O, mənə dedi ki, mən bura adamları işdən çıxarmağa gəlməmişəm. Kim işləmək istəyirsə işi ilə özünü göstərsin. Mən özüm haqqında ondan soruşdum ki, mənim baş mühasib işləməyimə necə baxırsınız? O, mənə dedi ki, rayon istehsalat idarəsinin baş mühasibi Qəhrəmanov İbarahim mənə haqqınızda dedi, məsləhət gördü ki, sizinlə işləyim. 1977-1979-cu illərdə bir yerdə işlədik. Bizim aramızda ayrı seçkilik olmadı. O, dediyini mən, mən dediyimi isə Orucov eşidirdi.



O, mənə deyirdi ki, həmişə camaatı düşünün və onların xeyrinə-şərinə fikir verin. Orucov işlədiyi dövrdə kənd camaatının pis günündə də, yaxşı günündə də bir yerdə olub. Onun kəndə gəldiyi gündən kənddə heç bir pis hadisə baş vermədi. Bu da onun xeyirxah bir insan, bir yoldaş olduğunu göstərirdi. Çünki o böyük bir şəxsiyyət idi.

Orucovun bir çox sərgüzəştləri olub. 1975-ci ildə yeni təyin olunan vaxt mənə dedi ki gedək fermaları yoxlayaq. Mən ona dedim ki, birinci fermaya getməyək. O isə dedi ki, yox elə birinci buradan başlayaq. Biz oraya gedəndə sağın vaxtı idi. O, axşamınız xeyir olsun, - deyib içəri girdi. Bu zaman sağıcı işləyən Xəlilova Bəsti və Zeynalova Aşa başladılar ona yalvarmağa. Siz bu gəlişinizlə bizim bu camaata xoş bir gün- güzəran gətirməyi unutmayın. Biz sizin haqqınızda çox eşitmişik.

Orucov Hacan gördü ki, bunlar əl çəkmirlər və bu söhbət 47 dəqiqə davam etdi. O, sakitcə hamını dinləyirdi. Mən ona dedim ki, bunlar sizdən əl çəkməyəcək. Süd sağımı gecikə bilər. O, isə mənə dedi ki, dayan mən bunlara bir misal çəkim, sonra gedək.

-Bacılar, bu məsələni özünüzə götürməyin. İki qadına uzun müddət iş verirlər. Vaxtları qurtaranda gəlib deyirlər ki, vaxtınız qurtarıb durun gedin. Qadınlar isə onlara deyir ki, bizə bir- iki saat vaxt verin sözümüzü qurtaraq. İndi xanımlar söhbət uzanacaq, süd sağımı qalacaq və biz getdik.

Günlərin bir günü Hacan Orucov, Məhəmməd İsmayılov, Çoban Ramazanov və mən hesabdarlıqda oturub söhbət edirdik. Bu vaxt qonşu Polad kəndindən olan bizim

kəndin yeznəsi Sarıyev Binnət içəri girdi və salam verdi. Hamıdan əvvəl Orucov onun salamını aldı. Bu vaxt Məhəmməd dedi ki, yeznə yaxşı ki, gəldin, səhərdən salam verən olmamışdı. Binnət kişi qayıtdı ki, mən gədə-güdələrə salam vermirəm, kişilərə salam verdim, cavabımı da aldım. Həmin vaxt Çoban dilləndi ki, gədə-güdə kimdir. O qayıtdı ki, gədə sən, güdə isə Məhəmməddir. Bunun bu sözündən Orucov çox pis oldu və ona bir məsələ çəkdi. Məsələni başa düşən Binnət kişi dedi Orucov, sən allah məsələnin dalını demə, hər şeyi başa düşdüm.

Hacan Orucovun belə məzəli söhbətləri çox olurdu. O, çox hazır cavab idi. Onun asta yerişi, asta gülüşü və şirin söhbətləri heç kimin nəzərindən qaçmırdı. Bu insanı sevməmək olmazdı. Onun zahiri nə qədər gözəl idisə daxili ondan da gözəl və təmiz idi.

Orucovla işlədiyim dövrdə bizim çox xatirələrimiz olub. Onları neçə il danışsam da doymaq olmaz. Onun işlədiyi dövrdə kolxozumuzda çox işlər görüldü və kəndimiz rayonda birincilər sırasında gedirdi. Orucov bizim kənddən gedəndən sonra da o, kənd camaatının xeyrində-şərində həmişə iştirak edirdi.

İndi Hacan müəllim cismən bizimlə deyil, ancaq həmişə bizimlədi!

***Məliş HƏTƏMOV,***
*Yanıqpəyə sovxozunun baş mühasibi*



## HACAN ELDƏN GETDİ



Hörmətli şairimiz Eldar İsmayıl elimizin hörmətli oğlu, mərhum Hacan Orucov haqqında xatirələr kitabı yazmaq istəyini bildirdi.

Mən belə bir kitabın yazılmasını öz üzərinə götürən böyük şairimiz Eldar İsmayıla öz minnətdarlığımı bildirərək, çox sevindim. Sevindim ona görə ki, belə qeyrətli eloğlum üçün mən də xatirələrimi yazmaq imkanı əldə edəcəyəm. Həm də kədərləndim. Kədərləndim ona görə ki, Hacan Orucov bu gün bizim aramızda yoxdur. Neyləmək olar, çətin də olsa, həyatın bu sərt qanunları ilə barışmalıyıq.

Bu yerdə yadıma bir el misalı düşdü. Aqillər deyirlər ki, adam var gedəndə evdən gedir, adam var gedəndə eldən gedir. Doğrudan da Hacan Orucov eldən gedən bir şəxsiyyət idi.

**1982-ci ildə** İrəvan Basarkeçər qatarı ilə evə gəlirdim. Qatarda olan bir erməni dığası mənə sataşmaq istədi. Mən də onun cavabını verdikdə, dalaşdıq. Mən bir zərbə ilə erməni dığasını yerə sərdim. Bunu görən qatar bələdçiləri (yəni ermənilər) mənim üstümə gəldilər. Bu davanı görən həmyerlilərim Təvəkgül, Nurəli, Ələddin mənə köməyə qalxdılar. Qatarda böyük dava düşdü. Bir

azdan o köməyə gələn ermənilər də bir- birinin yanında yerə sərildilər. Bu məsələ milisə düşdü. İşə Basarkeçər Dəmir Yol Polis İdarəsi baxırdı. Ermənilər çox məsləhətdən sonra belə bir qərara gəliblər ki, məni tapıb aparıb döysünlər, sonra istintaqı davam etdirsinlər. Buna görə də 2 milis nəfəri (erməni) mənim arxamca İrəvan şəhərindəki, oxuduğum texnikuma gəliblər. Bu xəbəri atam eşidib, bilib ki, məni gəzir, əl altından yerimi öyrənirlər. Ona görə də atam onlardan qabaq qardaşım Əlini tez İrəvan şəhərinə göndərdi. Nəhayət, ermənilər məni tuta bilmədilər. Atamgil belə qərara gəliblər ki, bu məsələni Hacan Orucova desinlər, bu işi o, yoluna qoya bilər. Məsələni Hacan Orucov bildikdə məni və mənim tələbə yoldaşlarımı da götürüb Basarkeçər rayonuna apardı. Milis idarəsinə gedib onlarla söhbət etdikdən sonra hər işi yerbəyer etdi və bizi qaytarıb evə gətirdi.

Bundan sonra 1983- cü il idi, kəndimizin təsərrüfat işlərində işləyirdim. Mənə bildirdilər ki, sovxozun direktoru Hacan Orucov səni çağırır. Mən getdim. Elə aramızda ən yaxın ünsiyyət də ondan sonra başladı. Hacan Orucov mənə bildirdi ki, siz hamınız bu təsərrüfatda işləyirsiniz. Özünüz də böyük ailəsiniz. Ona görə də sən məktəbi qurtarıb gələn gündən nəzərimdə idin, sənə bir yaxşı iş vermək fikrim vardı. Ancaq mən bu gün rayonda ərizəmi yazıb işdən çıxdım. Hazırda təsərrüfat briqadirliyi yeri boşdur. Get gənc mütəxəssis kimi 10 gün qabağa ərizə yaz, sənin əmrini ora verim, sonra başqa işə dəyişirilmək asandır. Mən 10 gün qabağa ərizə yazdım, əmrimi verdi. Sonra məni aparıb rayonda aqropromun sədri ilə tanış elədi və ona tapşırdı. Mənə



daim qayğı göstərməsini xahiş etdi.

Hacan Orucov çox uzaqgörən adam idi. Hər bir işi o, qaydasında yoluna qoymağı bacarırdı. Bundan sonra Hacan Orucov rayonda müxtəlif vəzifələrdə işlədi. Onun dediyi kimi bir az işlədikdən sonra sovxozda baş aqranom vəzifəsi boşaldı, məni o yerə təyin etdilər.

Hacan Orucovla əlaqələrimiz getdikcə daha da genişlənirdi. O, mənə dərin məsləhətlər verirdi. Mənə işdən çıxması haqqında rayondakı rəhbərlərlə bağlı hərtərəfli söhbətlər edirdi. Nəyi necə etmək lazımdı, necə işləmək lazımdı, -yollar göstərirdi. Hətta aramızda bəzi söhbətlər də olub. Mən elə bilirəm ki, o söhbətlər ikimizin arasında qalan söhbətlərdi. O, söhbətin hər biri mənim üçün böyük məktəb olub.

Hacan Orucov qarşısına çıxan hər bir insanla hal-əhval tuturdu.

Hətta o, xidmət maşını ilə gedərkən heç vaxt piyada adam yolda qoymazdı.

Hacan Orucov elin obanın qeyrətini, namusunu öz qeyrəti-namusu hesab edərdi.

Hacan Orucov haqqında günlərlə danışmaq olar, onun bütün hərəkətləri yaxşılıq üzərində qurulmuşdu. Hacan Orucovun görkəmində, yerişində, duruşunda, ünsiyyətində, baxışında böyük məna və hikmət vardı.

***Müzahim MEHBALIOĞLU***

## DÜNYA MALINDA GÖZÜ OLMADI



Xoş o insanın halına ki, Allahtəala ona xoş xasiyyət, insanlara qarşı məhəbbət verib, qəlbində yaxşılıq işığı yandırıb. Bax, belə insanlardan biri də Hacan Orucov idi.

Mən sovxozda avtomobil sürücüsü işləyirdim. Hacan müəllim isə sovxoz direktoru idi. Bu səbəbdən də tez-tez təmasda olurduq.

Həmkəndlilərimiz heyvanlarını vaxtaşırı Tovuz rayonuna satmağa aparırdılar. Mən işlədiyim maşınla gecələr gizli olaraq dağ yolu ilə heyvan aparıb töküb qayıdırdım. Mənim bu hərəkətimi kimsə Hacan Orucova çatdırmışdı. Bir gün Hacan müəllim məni yanına çağırtdırıb belə bir işlə məşğul olduğum haqqında məlumatı olduğunu dedi. Mən sözün düzünü danışdım və etiraf etdim ki, sizə demədən gedib gəlmişəm.

Sözün düzü mən ehtiyat edirdim ki, mənə nəsə deyə bilər, yeri gəlsə işdən də çıxara bilər. Ancaq gözləmədiyim bir cavabla, üzləşdim:

- Bilirəm, dolanma üçün gedirsən. Bir söz demirəm, ancaq ehtiyatlı ol, çalış ki, yolda-izdə tutmasınlar. Elə et ki, getdiyini heç kəs bilməsin.

İlahi, bu söz nə söz idi, sovxozun direktoru mənə deyirdi! Axı, direktora deməmiş bu işi tutmuşamsa o,



hirslənməli, mənə başqa cür yanaşmalı idi. Mən onun yanından ayrılıb bir müddət öz-özümə düşündüm: "Allah nə qədər böyük insanlar yaradıb. Doğrudan da Hacan müəllim əvəzsiz insandır!"

Demək istəyirəm ki, Hacan Orucov həm kəndimizdə, həm də rayonumuzda müxtəlif vəzifələrdə işləyərkən bütün varlığı ilə xalqına xidmət etmişdir. O, hamının qayğısına qalmağı bacarırdı. Heç kəsin zəhmətinə göz dikməz, heç kəsin əməyinə biganə qalmaz, dünya malına tamah salmazdı. Nəfsi tox, saf, pak, namuslu el oğluydu. Sözün həqiqi mənasında Hacan Orucov haqqında nə qədər xoş söz desən ona layiq idi. Bütün gözəllikləri Ulu Yaradan onda cəm etmişdi.

İnsan dünyaya ağlaya-ağlaya gəlir. Amma elə etməlisən ki, dünyadan gedəndə gülə-gülə gedəsən. Səni tanıyanlar isə səni ağlaya-ağlaya yola salsınlar.

Bəli, Hacan ömrü də belə ömürlərdən biri oldu. O, bu gəlimli-gedimli dünyaya gülə-gülə əlvida dedi. Onu tanıyanlar isə belə bir oğulu itirdiklərinə görə ağlaya-ağlaya yola saldılar.

*Allah rəhmət eləsin!*

***Əli İSKƏNDƏROV.***

## BÖYÜK İTKİ

Mən özüm əslən Pəmbək (Qarakilsə) mahalındanam. Qarakilsəni sonradan ermənilər Kirovakan eləmişdilər. Bizim türk ellərimizin hamısının adını ermənilər dəyişdiriblər. Bu da bizim əzəli torpaqlarımıza sahib olmaq məqsədi ilə edilib.

Onu da deyim ki, ermənilər mənim kəndim Vartanada iki dəfə soyqırım törədiblər. 1988-ci ildə 16 nəfərimizi vəhşicəsinə yandırıb kül etdilər.

Hacan Toxluca kəndindəndir. Onun babası Oruc çox qoçaq, mərd, namuslu bir adam olub. Mənim atamla çox dost olublar. Həmişə Pəmbək tərəfə gələndə Vartana kəndində atamın qonağı olarmış. Hacanın atası Qənbər kişi ilə də mən dostluq edirdik. Bundan sonra mən Hacan müəllimlə də sıx dostluq əlaqəsində olmuşam. Bu insana tale hər gözəlliyi vermişdi: uca boyu, şəstli qədd-qaməti, ağlı, kamalı, müdrikliyi, bacarığı, ləyaqəti, namusu bir-birini tamamlayırdı. Hacanın ölüm xəbəri məni də çox sarsıtdı. Ancaq nə etmək olardı. Bu, böyük Yaradanın məsləhətidir. Mən Hacanı daim xatırlayır və onun yoxluğunu böyük itki kimi içimdə çəkirəm.

*Allah rəhmət eləsin.*

***Əli ABBAS OĞLU ƏHMƏDOV,***
*Pəmbək mahalı, Vartana kəndi*



## SƏXAVƏTDƏ HATƏM, GÖZƏLLİKDƏ YUSİF



Təbiət müxtəlif canlı varlıqlar yaratmışdır. Canlı varlıqların ən alisi insandır. Təbiət onunla fəxr edə bilər ki, varlığın şah əsəri insanı yarada bilmişdir. İnsanlar haqqında, onların fəaliyyəti və həyatda tutduqları mövqe haqqında kitablar yazılmışdır. Amma bəzən insanların işi və fəaliyyəti haqqında oxuyarkən onun ləyaqəti barədə söz açılmır. İnsan və insanlıq məfhumları yaxındır. İnsanlıq insanın ən ali keyfiyyətidir ki, o da hər adama qismət olmur. Görkəmli şəxsiyyət Brijula yazır ki, bir an kifayətdir ki, qəhrəman olasan, lakin ləyaqətli insan olmaq üçün bütöv bir ömür lazımdır. İnsan sözü əsl insana aid edilirsə, bu çox əzəmətlə səslənir. Məni insanlığa aid qeydlər yazmağa daxili tələbat məcbur edir. Çünki insanlıq ləyaqətini hər adam qazana bilmir və ya tez itirir. Əsl insan dünyanın əşrəfidir. Belə şəxsiyyətlərdən biri, uşaqlıqdan tanıdığım, dostluq və yoldaşlıq etdiyim, elimizin gözəl və mərd oğlu Orucov Hacan Qənbər oğlu idi. Yaxşı insanlığı insanın özü qazanır, ətrafdakılar isə onu görür və qiymətləndirir.

Mən onu uşaqlıdan tanıyırdım. Onun xalası Saldat xala

əmim Nəsibin həyat yoldaşı idi. Onlarla bizim köhnə evimizin divarı ortaq divar idi. Təndir şişini biz tərəfdən uzadanda ucu onların evindən çıxırdı. Hacan həmişə xalasıgilə gələrdi. Bizim yoldaşlığımız oradan başlamışdır. Onun mülayim və səmimi hərəkətləri, yoldaşlığı dostluğa çevrildi. Biz beləcə böyüdük. Hacan İrəvan kənd təsərrüfatı məktəbinə, mən isə İrəvan Dövlət pedaqoji institutuna qəbul olunduq. Təhsil illərində daima görüşərdik, şəhərə gəzməyə bərabər çıxardıq. Bir şey almaq istərkən o, əlini cibinə məndən qabaq salardı və deyərdi ki, qoy mən alım. Bu illər gəncliyimizin ən əziz, şirin anları idi. Yoldaşlarımız çox idi. Amma hər ikimiz birlikdə olmaq istəyirdik. Onun mülayim səsi və ipək kimi yumşaq təbiəti insanlarda rahatlıq yaradırdı. O, səni dərhal özünə dost edirdi. Hacanda insanlıq və dost olmaq cazibəti güclü idi.

Sonra hər ikimiz təhsilimizi başa vurduq, işlə təmin olunduq. Məclislərimizdə iştirak etdik. Məclisdə artıq və acı söz danışmazdı. Deyərdim ki, gəlindən və qızdan həyalı idi. Onun psixioloji mimikası sifətindəki cizgilərdən oxunurdu.

Hacan Orucov Toxluca qoyunçuluq sovxozunun direktoru vəzifəsinə təyin olundu. Sovxozun 12 min baş qoyunu, min baş iribuynuzlu mal-qarası var idi. Rayonun ən iri təsərrüfatı hesab olunurdu. O, rayon rəhbərliyinin nəzərində və kənd adamlarının qəlbində ən hümanist və bacarıqlı rəhbər idi. Son dərəcə təvazökar bir insan idi. Kənd əhalisi onun şəxsində hər şeyə nail olmaq



ümidində olurdu. **Hacan Orusov təkcə ailənin övladı yox, kəndin və eləcə də elin övladı idi. O, Şərqdə səxavət simvolu olan Hatəmə, daxili və zahiri gözəlliyinə görə Yusifə bənzəyirdi.** Belə adamlar xalq üçün Allah tərəfindən göndərilir. O, xalqın ay və günəş işığı idi, hər evin pəncərəsindən düşürdü. Demək olar ki, hamı ondan hörmət görür və hamı ona hörmət edirdi.

**1988-ci il** ermənilərin törətdiyi qanlı hadisələr biz tərəfdən də yan keçmədi. Hacan da ailəsi ilə kənddən köçməli oldu. Bu qədər saf qəlbli adamlar ədalətsizliyə dözmürlər. Bakı şəhərində məskunlaşan Hacan müxtəlif vəzifələrdə çalışmışdır. O da başqa soydaşlarımız kimi qaçqınlıq həyatı ilə barışa bilmirdi və bilmədi də. Yaşadığı kimi də sakitcə qəflətən aramızdan getdi. O layiqli bir insan kimi getdi. Buna el-oba kədərləndi. Çünki o, elin oğlu idi.

*Hacanı qəfldən itirdi ailə,*
*Göylərə ucaldı acı bir nalə.*
*İnsanı qaytarmağa tapılmaz əməl,*
*Ancaq ürəklərdə ucaldı heykəl.*

Bəli onun heykəli, əziz xatirəsi ürəklərdədir. O, xalqın ziynəti idi. İndi də məzarın ziynətidir. Şükürlər olsun ki, onun tərbiyəli övladları var. Ona rəhmət oxudurlar. Arzu edək ki, torpaqlarımız azad olsun, el-oba öz yurduna qayıtsın. Hacanın da ruhu sevinsin və şad olsun.

*Ana yurdum, doğma Vətən torpağım,*
*Həm dünənim, həm bu günüm, sabahım.*
*Səni görmək qismət etsin Allahım.*
*Hər guşəsi gül-çiçəkli bir bağca...*
*Ürək vurur həsrət ilə Toxluca.*

*Mən istərdim möhkəm ordu yaransın,*
*Hərb başlasın, torpağımız alınsın.*
*Şadlıq rəmzi tonqalımız qalansın,*
*Şadlıq etsin qoca, cavan çoxluca...*
*Bizim olub, bizim olsun Toxluca.*

*Allah bu günü Qismət etsin!*
*Hacan müəllimə də Allah rəhmət eləsin!*
*Amin!*

**Behbud ƏLİYEV.**



## QOHUMCANLI İNSAN, SADİQ DOST



Hacan haqqında xatirələrimi qələmə alacağımı söyləyəndə, doğrusu, çox çətinlik çəkdim. Ona görə ki, onun ölümündən xeyli vaxt keçsə də mən hələ də inana bilmirəm ki, Hacan aramızda yoxdur. İkinci səbəb budur ki, adam gözəl insan, yaxşı dost, yaxşı iş yoldaşı, yaxşı qohum haqqında xatirələrini yazmaqda çətinlik çəkir. Mən onu orta məktəb illərindən tanıyıram. Hələ o vaxt Hacanda olan ən yüksək insani xüsusiyyətləri xatırlayıram. Onda insana xas olan bütün dəyərli keyfiyyətlər cəmləşmişdi. O, qohum, tanış, dostlarla asan dil tapar və ünsiyyət saxlayardı. Hacan Orucov böyükdən kiçiyə heç kəsin xətrinə dəyməzdi. Bir sözlə, çox alicənab adam idi.

Hacan Orucov iş fəaliyyətinə ferma müdiri kimi başlamış, çalışdığı dövrdə işçilərinə göstərdiyi qayğı və diqqətin nəticəsi idi ki, işçilər hər zaman onun haqqında ağızdolusu danışırdılar. Həmin vaxt rastlaşdığım işçilər onun sadəliyindən, onlara göstərdiyi xoş münasibətdən məmnunluqlarını bildirirdilər. Hacan sovxoz direktoru işlədiyi vaxt əksəriyyətin hörmətmini qazanmışdı.

İmkanı olmayanlara əl tutar, imkan dairəsində köməklik göstərərdi. O, öz xidməti maşını ilə hara gedərdisə, yolla gedən fəhləni öz maşınına mindirib mənzil başına çatdırardı. Hacanın cavan olmasına baxmayaraq camaat arasında bir ağsaqqal kimi hörməti vardı.

Qaçqınlar cəmiyyətində işlədiyi vaxt mən onunla görüşərdim, söhbət edərdik. Söhbət əsasında onun Vətən həsrəti, yurd nisgili aydın duyulurdu. Lakin özü də qaçqın olmasına baxmayaraq qaçqınların halına acıyar, onların dərdinə şərik olardı. Ümumiyyətlə, o insanın müsbət keyfiyyətləri haqqında danışmaqla qurtarmaz. Hacanı xatırlayanda məndə xoş təəssüratlar baş qaldırır.

Şükürlər olsun ki, Minayə xanım kimi qeyrətli el ağbirçəyinin böyük zəhməti sayəsində Hacanın ocağında onun adını şərəflə ucaldan hamının sevimlisi, çox qürur duyduğumuz Oruc və Mais kimi ləyaqətli, yüksək mənəviyyatlı oğlanları vardır. Hacanın övladları öz ləyaqətləri, əməlləri ilə ata yurduna şərəf gətiriblər.

*Sərvəz HÜSEYNOV.*



## MƏRD VƏ CƏSARƏTLİ İNSAN



Mən Hacan Orucovla 1972-ci ildən bir yerdə işləmişəm. Onda mən fermada briqadir işləyirdim. Hacan müəllim isə zootexnik işləyirdi. Həmin dövrdə demək olar ki, biz 6 ilə yaxın birlikdə işlədik. Bu müddətdə acılı-şirinli günlər yaşamışıq. Sonra Hacan müəllim Yanıqpəyə sovxozuna direktor getdi və məni öz yerinə namizəd verdi.

Bacarığı və qabiliyyəti sayəsində qısa vaxtda Yanıqpəyə sovxozunu qabaqcıl sovxozların cərgəsinə çatdırdı. Rayonda Orucovun belə təşkilatçılığı dillər əzbəri oldu. Sonra rayon partiya komitəsinin birinci katibi onuToxluca sovxozuna direktor təyin etdi. Bundan sonra büro iclaslarında H.Orucov barədə ağız dolusu danışaraq, onu nümunə kimi göstərərdi.

Həmin illərdə yenə də biz bir yerdə işlədik. Hamı ilə çox səmimi davranar, heç kəsi özündən incik salmazdı. İlk dəfə onun millətpərəst olmasının bir erməni dəmir parçası ilə ot oğurluğu üstündə necə döyməsinin şahidi oldum. Ondan sonra həmin erməni kənddən qaçıb getdi. Bu hadisə məni ona daha çox bağladı.

Bir dəfə Gədəbəyin Saratovka kəndində gözəl bir bulağın başında yeyib içirdik. Bizimlə birlikdə Brutyan adlı bir

ermәni dә vardı. Şәnliyın şirin yerindә Orucov Brutyana belә bir söz dedi: Ay ermәni, bu millәtin çörәyini yeyәndә elә yeyin ki, hәmişә yeyә bilәsiniz. Müqәddәs çörәyi itirmәk gec-tez adamın burnundan gәlir.

Hacan Orucov sözü yerindә demәyi vә hәdәfә vurmağı ustalıqla bacarırdı. Bir dәfә dә Haqqıxlı kәndi tәrәfdә Şinkar bulağına yeyib-içmәyә getmişdik. Demәk olar ki, hәmin vaxt bulağın başında ermәnilәr dә vardı. Söhbәt fırlanıb ermәni-türk mәsәlәsinә gәlәndә Hacan müәllim öz mәntiqli cavabı ilә ermәnilәri susmağa mәcbur etdi. Onlar dәrhal söhbәti başqa istiqamәtә yönәltdilәr. Hacan müәllim öz xalqına, elinә, obasına ürәkdәn bağlı bir insan idi.

Bir dәfә rayon partiya komitәsinin büro iclasında mәnim işdәn azad olmağım haqqında qәrar qәbul etdilәr. İclasda Hacan müәllim heç sәsini dә çıxarmadı. Düzünü deyim ki, mәn çox tәәccüb etdim. Bürodan sonra Orucov mәni özü ilә bәrabәr birinci katibin yanına apardı. O ,katibә tәk bircә kәlmә "Mәhәrrәm öz yerindә qalıb işlәyәcәk" dedi. Katib Orucovun üzünә baxa-baxa qaldı vә sonra dedi ki, ay Orucov, bu bir anlaşılmamazlıqdır. Narahat olmağa dәymәz! Biz katibin otağından çıxıb evә dönәndә Hacan müәllim özünә mәxsus bir tәrzdә dedi: "bu ermәni köpәk uşağını döyüb, qırıb, mәhv etmәsәn düzәlәn deyil. Yoxsa әllәrinә girәvә keçsә bizi diri-diri odda yandırarlar!" Bütün bunları Hacan gözәl bilirdi.

Belә bir şәxsiyyәt haqqında danışmaqla qurtarmaq olmaz. Mәn fәxr edirәm ki, belә bir şәxslә uzun müddәt bir yerdә işlәmişәm vә yaxın olmuşam.

*Mәhәrrәm QOCAYEV*



## YAXIN QONŞU, ӘZİZ İNSAN



Toxluca kәndindә Hacan bizim әn yaxın qonşumuz idi. Ağsaqqalların dediyinә görә babası Topal Orucun mәrdliyi irsәn ona keçmişdi. O, da babası Oruc kimi әdalәtsizliyә dözmәz, kasıblara әl tutar, ermәnilәrlә yola getmәzdi. Onun bu xasiyyәti vәzifә başında olan zaman daha açıq biruzә verirdi.

Uşaqlıqda gördüyüm hadisә indiki kimi yadımdadır. O vaxt kәndimizә işıq hәlә çәkilmәmişdi. Hәrdәn rayon mәrkәzindәn kәndimizin klubuna generator vasitәsilә kino gәtirirdilәr. Bir dәfә yenә kino gәtirilәn zaman avtomobilin kabinasında Andronikin şәkilini gördüm. Kabinadakı şәkili tez cırıb atdım. Elә bu vaxt üç ermәni mәni әhatәyә aldı. Hacan da orada imiş. O, ermәnilәrә yaxınlaşdı. Aralarında mübahisә düşdü. Onsuz da ermәnilәrdәn zәhlәsi gedәn Hacan bәrk hirslәnmişdi. Üç nәfәr ermәnini tәklikdә şil-küt elәdi. Ermәnilәr ağızburunları qanlı rayon mәrkәzinә yola düşdülәr.

Hacan hәm dә musiqini çox sevirdi. Atamın batareya ilә işlәyәn radiosu var idi. O, hәr bazar günü nә işi olursa - olsun buraxıb bizә gәlәr, muğam saatlarında radionu açar, dәrin xәyal içindә konsetә qulaq asardı.

1966-cı ildә ailәlikcә Bakı şәhәrinә gәldik. Bu ayrılıq mәni çox sıxırdı. Fikrim- xәyalım hey kәndimizdә, sinif

yoldaşlarımın və qonşularımın yanında olardı. Ancaq Hacanla həmişə məktublaşırdıq. Yay tətilini səbirsizliklə gözləyirdim. Deməк olar ki, hər il yay tətilimi kəndimizdə keçirirdim.

Hacan artıq Gəncə şəhərində Kənd Təsərrüfatı institunu bitirib kəndimizdə zootexnik işləyirdi. Kəndimizdə sovxoz direktoru işləyərkən böyük abadlıq işləri apardı.

Bir dəfə o mənə maraqlı bir hadisə danışdı. Dedi ki, rayonun birinci katibi Yerevana MK-nın birinci katibinə zəng vurub, bir nəfər azərbaycanlını- yəni məni xalq nəzarət komitəsinin sədri vəzifəsinə namizəd verdi. Elə həmin dəqiqə MK-dan cavab gəldi ki, bir nəfər erməni tapmadınız ki, türk balasını namizəd verirsiniz. Mən bu cavabı telefonda eşitdim.

O, çox az yaşadı. Hacan olduğu kimi gözümün qabağındadır. Xalq artisti Arif Babayev televizorda görüntüyə gəldikdə ailəliklə televizorun qabağına yığılırıq. Çünki Hacan Arif Babayevə çox oxşayır. Biz də təsəllimizi bundan alırıq.

***FİRUDİN***



**ALİCƏNAB İNSAN**



50-ci illərin axırında Hacan İrəvanda Kənd Təsərrüfatı texnikumunda oxuyurdu. Kəndin uşaqları İrəvana mal alıb satmağa gedəndə Hacan həmişə onlara bələdçilik edirmiş. Bir dəfə kənd uşaqlarının mallarını ermənilər oğurlayırlar. Bunu Hacan bilir və erməni dığaları ilə əlbəyaxa olub, uşaqların əşyalarını onlardan alır. Bu hadisə kənd arasında uzun müddət danışıldı.

Hacan Qənbər kişi və Qostan xalanın tək oğlu idi. Bir dəfə axşam Qənbər kişi bizə gəldi və atam Xəlil kişiyə dedi: - mən Ağəli kişinin qapısına elçi getmək istəyirəm, sən bu işdə mənə yardımçı ol.

Ağəli əmim həm böyük əmioğlu, həm ağsaqqal, həm də qayınata kimi dədəmə böyük hörmət bəslər, ailə daxili işlərdə onu eşidərdi. Dədəm bu işə razılıq və xeyir -dua verdi.

Bir sözlə, Hacan el-oba arasında böyük hörmət qazanmış bir insan idi. Hacan böyüklü- kiçikli hamıya hörmət etməyi bacaran, alicənab bir adam idi.

Allah rəhmət eləsin sənə, Hacan!

***Muradəli ƏSƏDOV***

## UĞURLU YOLUN DAVAMÇISI



Qərbi Azərbaycanın Ulu Göyçə mahalının - Toxluca adında dağ yamacının ətəyində səfalı bir yaşayış məskəni vardı. Bu yaşayış məskəninin tarixi çox qədim zamanlara gedib çıxır. Buranın oğuz türklərinin tarixi yaşayış məskəni olduğu barədə çoxlu faktlar vardır. Bu yaşayış məskənində Albanlara aid qəbirstanlıqlara və çoxlu faktlara rast gəlinirdi. XVIII əsrin sonlarında bu tarixi torpaqlarda yenidən yaşayış formalaşmağa başladı.

İlk Toxluca kəndinə gələn tayfalardan biri də Hüsənlilər olmuşdur. Hüsənlilər çox qoçaq, çox da bacarıqlı bir tayfa kimi obada sayılıb seçilirdilər. Onlar heç zaman kəndin camaatını darda qoymazdılar.

Hüsənlilərin içərisində qoçaq igidlərdən biri də Oruc idi- Topal Oruc. O, Süleymanın oğlu idi. Süleymanın iki oğlu var idi: Oruc və Səməd. Səməd hökumət yıxılan vaxtlarda ermənilər tərəfindən "Əyircə" deyilən yerdə vurulmuşdur. Orucun iki oğlu olub - Qənbər və Sənhan. Sənhan 1941-1945-ci il savaşı zamanı bölük komandiri kimi vuruşmuş və savaşda həlak olmuşdur.



Qədim oğuz yurdu olan Toxluca kəndini uzun müddət erməni vəhşiliklərindən Orucun başçılığı altında Hüsənli igidləri qorumuşdur. Oruc Toxlucadan Basarkeçərə gedən zaman heç bir erməni dığası qorxusundan yola çıxmazdı.

Bir gün ermənilər gəlib kəndin girəcəyində topları qurub axşamı gözləyirlər. Onlar kəndə gəlib camaata deyirlər ki, gəlin bir dama yığışıb iclas keçirib və barışıq eyləyək. Bunu eşidən İmanqulu deyir ki, biz arvadıq ki, damlara dolaq, dolun daşların dibinə bu it uşağının kökünü kəsin. Kənddə ermənilər böyük itkilər verərək qaçmalı olurlar. Ermənilər sonra gedib Şişqayada, Bala Məzrədə camaatı aldadıb dama dolduraraq diri- diri yandırmışdılar. Bu erməni vəhşiliyinin çox balaca bir hissəsidir.

Orucun böyük oğlu Qənbər idi. Ona kənddə Oruc oğlu Qənbər deyərdilər. Qənbər doğurdan da Orucun oğlu idi. O, çox qoçaq, çox bacarıqlı bir şəxsiyyət idi. O, kolxozun, sovxozun anbardarı olub. O, qoçaq olduğu qədər də, çox ağıllı, rahat və zəhmətkeş idi. Müharibə vaxtı camaatın kasıbına, acına kömək edərdi.

Belə bir tayfanın nümayəndəsi olan Hacan da, atasının yolunu davam etdirdi. Hacan cavan vaxtlarından ferma müdiri, zootexnik, kolxoz sədri və sovxoz direktoru işlədi. Meşəkənd kolzozunun sədri və sonralar sovxozunun direktoru işləyən Hacan tez bir zamanda kənd camaatının böyük hörmətini qazandı. Meşəkənd kəndinin camaatı və hətta ona yaxın olan qonşu kəndlərin camaatı Hacan haqqında çox yüksək fikirdədirlər, çünki, Hacan çox namuslu bir şəxs idi.

Bir müddət Toxluca sovxozunun direktoru işləyən Hacan camaatın içində olanda o qədər sadə idi ki, adam baxıb heyran olurdu. Qadınlara hər zaman ana- bacısı kimi baxardı. Mən həyatımda bu dərəcədə həyalı bir kişi görməmişdim. İnsan həm qoçaq ola, həm bacarıqlı, həm də namuslu ola. Bu insana ALLAHdan verilən ən böyük nemətdir ki, bunu da ALLAHTƏALA Hacana vermişdi.

Çox heyif, Hacan həyatdan çox tez köçdü. Onun vaxtsız ölümü hamının ürəyini göynətdi. ALLAH ona qəni-qəni rəhmət eləsin.

Çox şükürlər olsun ki, bu gün onun səcərəsini davam etdirən Oruc və Mais kimi gözəl övladları var. Bu gün onlar kəndin,elin-obanın hər- hansı xeyir- şərində varsa, deməli Hacan o məclisdə var. Qoy ALLAHTƏALA onun övladlarına onun torpağı sanı ömür versin və Hüsənli tayfasının səcərəsini davam etdirsin.

***Kərbəlayı MƏHƏMMƏDTAĞI***
***Kərbəlayı MƏŞƏDİ ƏLİ OĞLU***








## HÜSƏNLİ TAYFASININ NÜMAYƏNDƏLƏRİ






# IV HİSSƏ

***O idi dostların parlaq mayağı,***
***Doğma insanların səsi-sorağı.***
***Qədim Toxlucanın yanar çırağı,***
***Ulu Göyçəmizin pərvanəsiydi.***

***Eldar İSMAYIL***

***TOXLUCAYA, TOPAL ORUCA VƏ HACAN ORUCOVA HƏSR OLUNMUŞ ŞEİRLƏR***

## GÖYNƏYƏ-GÖYNƏYƏ
### (ikinci ağı)

Bəd xəbərin sorağını
Aldım göynəyə-göynəyə.
Dost- tanışın dərd- qəmini
Böldüm göynəyə-göynəyə.

Yan ay ellər, yan odumla,
Sən dərdimi qan, odumla...
Göz yaşımı can odumla
Sildim göynəyə-göynəyə.

Bu dərd dərdlərin dərini,
Kim verər sənin yerini!
Ayrılığın dərd- sərini
Bildim göynəyə-göynəyə.

Kürələndi söz içimdə,
Qor içimdə, köz içimdə.
Mən bu dərdi öz içimdə
Çaldım göynəyə-göynəyə.

Göyçə yurdum qəlbi xəstə,
Oba zarınc, el şikəstə.
Qürbət eldə, qəbrin üstə
Gəldim göynəyə-göynəyə.



Eldar, döndüm sınıq- neyə,
Naləm düşdü yerə-göyə.
Haray çəkdim Hacan deyə,
Qaldım göynəyə-göynəyə!



## ULU GÖYÇƏMİZİN PƏRVANƏSİYDİ

*Əziz Hacana ithaf edirəm*

Ərən igidlərin, mərd kişilərin,
Bu günkü varisi, nişanəsiydi.
Haqqın, ədalətin yenilməz qolu,
Düzlüyün, insafın əfsanəsiydi.

Mərifət mülkündə nurdu, ağıldı,
Hikmətdi, dastandı, şirin nağıldı.
Xalqını ürəkdən sevən oğuldu,
Vətənin, millətin divanəsiydi.

Haqqa tapınmaqdı əməli, yonu,
Bir dürlü aləmdi əvvəli, sonu.
Heç kəsə tay etmək olmazdı onu,
Bütün fəsillərin təranəsiydi.

O idi dostların parlaq mayağı,
Doğma insanların səsi-sorağı.
Qədim Toxlucanın yanar çırağı,
Ulu Göyçəmizin pərvanəsiydi.

Hacandı atını çapıb ayrılan,
Vədəsiz vaxt-vədə tapıb ayrılan.
Eldarın qəlbindən qopub ayrılan
Böyük dünyasıydı, zəmanəsiydi.

***16.08.07.***





## İSTƏDİM HACANA BİR NƏĞMƏ YAZIM

*Kəndimizin qəhrəmanlarına*

Neçə qəhrəmanlar gəldi dünyaya,
Tarixə iz saldı, tez öldü getdi.
Çığalın səsindən titrədi dağlar,
Düşdü dastanlara söz oldu getdi.

De, ədalət hanı fani dünyada?
Yurdum-yuvam qaldı gavura, yada.
Dərd çapdım, qəm çapdım, döndüm Fərhada,
Çapdığım qayalar iz oldu getdi.

Topal Oruc atın çapdı hər yana,
Şöhrəti yayıldı Azərbaycana.
Dağ çəkdi general Baqdasaryana,
Başında dəstəsi yüz oldu getdi.

Dağılıb el- obam, dillənmir sazım,
Qartallı dağlardan gəlmir avazım.
İstədim Hacana bir nəğmə yazım,
Dondu fikirlərim, buz oldu getdi.

Babası Oruc tək məğrur, təmkinli,
Dostlara mehriban, düşmənə kinli.
Yamanca sarsıldı yenə Hüsənli,
Hacan tək bir oğul tez soldu getdi.

Məhəmmədəm, Toxlucadı məskənim,
Yetmişi haqladım, qaldı səksənim.
Bir şerim yaşasa dillərdə mənim,
Deyərlər elinə göz oldu getdi.

***20 aprel 2002- ci il***







## ORUCOVDU

*Elimizin ləyaqətli oğlu*
*H.Orucovun xatirəsinə*

Elim-obam, yasın saxla,
İtirmişik ayrı bala.
Hüzünündən qalma dala,
Gəl, uyuyan Orucovdu.

İsti ocaq oldu soyuq,
Ürəyimiz oyuq-oyuq.
Minayəni boynu buruq,
Ağlar qoyan Orucovdu.

Sözü bütöv, qəlbi incə,
Tay deyildi hər gülüncə.
Yuxusuna girib Göyçə,
Oyanmayan Orucovdu.

Gəldi kişi, getdi kişi,
Yarımçıqdı xeyli işi.
Namərd görüb bu gərdişi,
Cana doyan Orcovdu.

Necə qıydı zalım fələk?
Hardan əsdi bu sərt külək?
Əli kimi açıb çiçək,
Tezcə solan Orucovdu.

## MATƏM GÜNÜ DEYİLMİŞ AĞI

Hacana bəy demişdik,
Bəyi qonşu bilmişdik.
Qonşuluğu çox gördü,
Torpağa tez gömüldü.

Bəy xanımı dul qaldı,
Gözləri ağlar qaldı.
Yeddi əziz balası,
Gör necə mələr qaldı.

Oğul kimi tək idi,
Çoxuna həmdərd idi.
O öz böyüklüyüylə,
Uşağa da baş əydi.

Boylu-buxunlu idi,
Boynu qalstuklu idi.
Evindən ayrı idi,
Yaman niskilli idi.

Maisinə baxmadı,
Altmışına çatmadı.
Babanın Leylasına
Niyə qardaş tapmadı.





## AĞLARAM

İlahi, dərdini çəkdiyim diyar
Oduna, közünə yanıb ağlaram.
O Göyçə gölünün həzin səsinə
Mən də öz səsimi qatıb ağlaram.

İlahi, yurd yeri bizsiz qalıbdır,
Ocağımız odsuz, közsüz qalıbdır.
Orda neçə igid heysiz qalıbdır,
İgidlər hayına yanıb ağlaram.

Ağlama ay ellər, siz də dalımca,
Həsrətdən alışdım, yandım doyunca.
Elim Göyçə adlı, kəndim Toxluca,
Bir qərib ölkədə qalıb ağlaram.

Sən Topal Orucun, Cığal Hasanın,
Məşəd Məhəmmədin, böyük mahalın,
İtirdin Hacan tək mərd oğulların
Onların qəbrini bulub ağlaram.

O torpaqda babalarım yatıbdır,
O yerlərdə izim-tozum qalıbdır.
Orda Göyçə adlı Vətən qalıbdır
Vətənsiz, məkansız qalıb ağlaram.

Ömür vəfa etməz, tale gətirməz,
Yaşımız doxsana, yüzə yetirməz.
Tanrımız dünyanı tərsə çevirməz,
Qəhərdən göz yaşı töküb ağlaram.

Ceyranlı-cüyürlü, laləli dağlar,
Almalı, armudlu, səfalı bağlar.
Sinəmdə gəncliyin həsrəti çağlar,
O gənclik illəri anıb ağlaram.

Xaləddin, adına qərib desələr,
Dost-aşna qapını döyməz desələr.
Sinəndə ürəyin vurmaz desələr
Sevincdən, fərəhdən küsüb ağlaram.

*2003*





## VARIYDI

İndi girov düşən dağlar qoynunda,
O dağlardan ötrü yanan varıydı.
Hər kəsin halına candan alışıb,
Dərdli ürəkləri qanan varıydı.

Hələ uzaq idik şeytan şərindən,
Onda qalxmamışdı ellər yerindən.
İllər xoş keçirdi biri-birindən,
İnsana xas olan dövran varıydı.

Gözəldi o günlər, gözəl, nə qədər,
Yad etsək sinəmdən asılır qəhər.
Toxluca adında kiçik bir şəhər,
Göyçə gölü kimi ümman varıydı.

Mənalı danışan, mənalı gülən,
Darda insanların hoyuna gələn.
Böyüyün-kiçiyin yerini bilən,
Ulu əcdadları anan varıydı.

Təvəkgül, ötüşdü, keçdi o zaman,
Qoy deyim, anlasın, bilsin hər insan.
Əsilli-nəsilli igid bir oğlan,
Ulu Göyçəmizdə Hacan varıydı.

## HACAN MÜƏLLİM

Bir Vətən oğluydu, ürəyi təmiz,
Sevgisi, sinəsi bir coşqun dəniz.
Bir tikə çörəyi yeməzdi sənsiz,
Gözəl insan idi Hacan müəllim.

Qüruru, Vüqarı sınmazdı heç vaxt,
Tale vergisiydi tac ilə, bu taxt.
Üzünə gülmədi bu həyat, bu baxt,
Gözəl insan idi, Hacan müəllim.

Dost- tanış zərgəri, söz sərrafıydı,
Haqqın- ədalətin tərəfdarıydı.
O, sazın, sənətin xiridarıydı,
Gözəl insan idi Hacan müəllim.





## ELDƏN GEDİBDİ

*Hacan Orucovun əziz xatirəsinə*

*Ötübdü ömürdən fəsillər, günlər*
*Bir igid ömürü, sona yetibdi.*
*Böyük bir şəxsiyyət, bir insan kimi*
*Hacan evdən deyil, eldən gedibdi.*

O, elin dərdini öz dərdi bildi,
Elə sədaqəti vardı Hacanın
Həmişə gənclərə məsləhət verdi,
Böyük dəyanəti vardı Hacanın

Dərin düşüncəsi, hikmətli sözü,
Pəhləvan duruşu, nurani üzü.
Ləldən zəri seçən billur tək gözü,
Böyük cəsarəti vardı Hacanın.

Vətən həsrətini çəkənim oldu,
Şimşək tək parlayıb, bulud tək doldu.
Şam kimi əriyib gül kimi soldu,
Yenilməz qeyrəti vardı Hacanın.

Qəhrəman tayfanın yadigarıydı,
Elimin, obamın düz ilqarıydı.
Anam Toxlucanın xilaskarıydı,
Sönməz həqiqəti vardı Hacanın.

## BOYNUBURUQ QALAN KƏNDİM

Turş suyun dadı qaldı damaqda,
O günlərin səs-sədası uzaqda.
Yağı düşmən pusqu qurdu marıqda,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Armudlumuz yaman yasa batıbdı,
Qamışlı, Qarbasan qaşın çatıbdı,
Kərəmbiçən xiffətindən yatıbdı,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Ağbulağın söz qüdrəti nur saldı,
Səndən neçə ustadların dərs aldı.
O gözəl oylaqlar gör kimə qaldı?
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Ocaq dağı sultanıydı dağların,
Lalə, lilpar bəzəyiydi hər yanın.
Əyilməzdi Koroğluluq vüqarın,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!



Kirkitlidən qartalların boylanır,
Var-dövlətin yağılara paylanır.
Yaralısan, ah-naləni kim qanır,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

"Seyidölən"də hər kəs şəfa tapardı,
Niyyət edən niyyət daşı atardı.
Hamı burda öz əhdinə çatardı,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Dərəyurda, Düzyurda da gedərdik,
Sürülərdən əmlik quzu seçərdik.
Novçalıda dadlı kabab edərdik,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Topal Oruc, Cığal Həsən qaladı,
Qorudular o qeyrəti, o adı.
İndi hanı o dağların Fərhadı,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

"Seyid Ağam" and yeriydi elimin,
"Gürzocağı" əzbəriydi dilimin.
Sərt qayalar qılıncıydı belimin,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Göyçə gölüm, səni çoxdan görmürəm,
Görən niyə yaşayıram, ölmürəm.
Ağır dərddir, necə dözüm bilmirəm,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!

Müzahimi sən kamala yetirdin,
Bir anatək öz səcdənə gətirdin.
Bir yaralı aslanını itirdin,
Boynuburuq tənha qalan Toxlucam!
Bizi qəmli yola salan Toxlucam!







## KÖÇDÜ

Bir yanı "Ocaq dağ", bir yanı Göyçə,
Öz ata yurdundan Hacan da köçdü.
Düşmənlərə qaldı o Göyçə gölü,
Yaxşını yamandan seçən də köçdü.

Səksən səkkiz-ömrün o acı günü,
Neçə sinələrə vurdu düyünü.
Millətin göylərə yüksəldi ünü,
Hamı öv bərədən keçəndə köçdü.

Çıxmadı yadından o dağ, o dərə,
Dözmədi həsrətə, getdi bir kərə.
Çox hörmət eylədi bizim ellərə,
Yerindən, yurdundan qaçanda köçdü.

Qaçqın Əli, kim qalıbdı Göyçədə?
El, dağıldı məskən saldı küçədə.
İgid odur gördüyünü seçə də...
Onlardan biriydi Hacan da, köçdü.

*23.09.2007.*

*RƏNA HACANQIZI*

## ATA

*Atam Hacan Qənbər oğlunun*
*vaxtsız ölümü münasibətilə*

Yandı qəlbim talan oldu,
Mənə yaman divan oldu.
Külək qopdu, tufan oldu,
Qurban sənə canım, ata.

O sənli günlərə qaytar,
Ən gözəl dəmlərə qaytar.
O qəmsiz qəmlərə qaytar,
Mən oduna yanım, ata.

Nə tufandı qopdu birdən,
Bu nə dərddi tapdı birdən?
Ürəyinmi tutdu birdən?
Oldumu divannım, ata?

Xoş günümüz sənlə getdi,
Hər arzumuz burda bitdi.
Bitən bitdi, itən itdi,
Uca adım-sanım, ata.



Çinar boylu, şux qamətli,
El-obaya məhəbbətli.
Dəyanətli, həqiqətli
Sən şərəfim-şanım, ata.

Göyçəmizin ər balası,
Hüsənlinin şir balası
Sən Qənbərin nur balası
Sən mənim sultanım, ata!



## BAYATILAR
**(Atama həsr olunur)**

Dağ çəkdin mənə, dünya,
Həmənsən yenə, dünya.
Yaxşı pisi seçməzsən,
Nə deyim sənə, dünya.

Tükənib sözüm, ata,
Qan ağlar gözüm, ata.
Üstündə yellər əssə
Qurbanın özüm, ata.

Nə deyim bu hicrana?
Bu dövrə, bu zamana?
Əlimdə ixtiyar yox,
Qalmışam yana-yana.

Bağlandı ara, getdin,
Olmadı çara, getdin.
Sən bizi çox istərdin
Tək qoyub hara getdin?

Yandım həsrət odunda,
Qaldım elin yadında.
Mən bir oba itirdim
Ulu Göyçə adında.



Haqqı seçənim, ata,
Candan keçənim, ata.
Dünyaya vaxtlı gəlib
Vaxtsız köçənim, ata.

O səsin-sədan hanı?
Əlimdən tutan hanı?
Baxıram dörd yanıma
Görünmür atam, hanı?

Gəzdim gül bağlarında,
Ömrün tər çağlarında.
Atamın izi qaldı
Toxluca dağlarında.



## UĞURLU SABAHA DOĞRU

### *NƏVƏLƏR-NƏTİCƏLƏR*









*Balaca Minayə*

**Mən babam üçün yazıram. Mənim babam çox hörmətli bir adam olub. Mən də istərdim babam kimi olum. Mən də bütün uşaqlar kimi babamı görmək istərdim**

**Balaca Minayənin yazdıqlarından.**

## KİTABIN İÇİNDƏKİLƏR

### I HİSSƏ

Dünya ..........4
Ön söz (Firudin Məmmədov) ..........6
Müəllifdən..........11
İndiki Ermənistan..........16
Elimiz-obamız, fəlakətlərimiz..........18
Toxluca..........28
Tayfalar..........38
Hüsənli tayfası..........40
Yaxşılar -yaxşılıqlar ..........48
Qənbər Oruc oğlu..........52
Hacan Orucov- Hüsənli..........54
Minayə Ağəli qızı Orucova..........56

### ÖVLADLARI

Oruc Orucov..........58
Mais Orucova..........59
Rəna orucova..........60
Almaz Orucova..........61
Solmaz Orucova..........62
Arzu Orucova..........63
Elza Orucova..........64



Ağəli Abduləli oğlu Əsədov..........65
Biz həmişə görüşərdik..........67
Hüseyn Ariflə görüş..........74
Bakı mühiti..........82
Bəd xəbər..........85

### II HİSSƏ

Müdrik el ağsaqqalı..........93
Unudulmaz günlər..........95
Qohumların sevimlisi..........97
Yüksək əyarlı insan..........99
Böyük insan, gözəl qardaş..........100
Bacılar yanar ağlar..........103
Ömrümü qardaşıma verərdim..........106
Belə şəxsiyyətlər az-az olar..........109
Atam mənim- müəllimim mənim..........113
Mənəvi dünyamın günəşi..........116
Mənim atam..........119
Mən ona çox oxşamışam..........123
Ona qayğı göstərəndə fərəhlənərdim..........125
Mən ona həmişə diqqətli olmuşam..........129
Həyatımın şirin anları..........131
Yarımçıq qalmış ömür..........133
Onun kürəkəni olmağımla fəxr edirəm..........135
O şəxsiyyət idi!..........137
Adını daim uca tutacağıq..........139
Onu böyük qardaşım bilərdim..........140

Biz əyilməyəcəyik....................................142
Xatirimdə yaraşıqlı bir gənc kimi qaldı.............145
Həmişə fəxr etmişik...........................................146
Çalışıram ki, babama oxşayım...........................147

## III HİSSƏ

Günəş kimi parlaq və saf insan.............................151
Ağayanalığı ilə gözüm önündə qalacaq.................154
Nakam ömrün əbədi varlığı..................................160
Baş ucalığı gətirən şəxs .......................................164
"Yeni Almaniya" qəzeti Hacan haqqında.............169
Hacan Qənbər oğlu mənalı bir həyat yaşamışdır...171
Unudulmaz şəxsiyyət.........................................172
Sədaqətli dost......................................................174
Geniş qəlbli insan...............................................176
Əsil vətəndaş idi..................................................178
Tarixi şəxsiyyətlər unudulmur.............................180
Ağır təbiətli, Milli ruhlu kişi................................186
Mənlikli insan......................................................193
Cəsarət simvolu...................................................197
O, qəlbimizdə yaşayır..........................................202
Hacan Orucov haqqında xatirələrim...................204
Xatirəsi qəlbimizdə yaşayacaq.............................207
Hacan müəllim hamıya əziz idi...........................209
Bacarıqlı, savadlı rəhbər.....................................210
Əsil xalq Adamı...................................................212
Ot kökü üstə bitər................................................214



Öncə camaatı düşünərdi.......................................218
Hacan eldən getdi ................................................221
Dünya malında gözü olmadı..................................224
Böyük itki.............................................................226
Səxavətdə Hatəm, gözəllikdə Yusif.......................227
Qohumcanlı insan, sadiq dost...............................231
Mərd və cəsarətli insan.........................................233
Yaxın qonşu, əziz insan........................................235
Alisənab insan.......................................................237
Uğurlu yolun davamçısı........................................238
Hüsənli tayfasının nümayəndələri.........................242

## IV HİSSƏ

**Eldar İsmayıl**
Göynəyə-göynəyə..................................................244
Ulu Göyçəmizin pərvanəsiydi...............................246
**Məhəmməd Rəşid Toxlucalı**
İstədim Hacana bir nəğmə yazım.........................247
**Əli Toxlucalı**
Orucovdu .............................................................249
**Mənzər xanım**
Matəm günü deyilmiş ağı......................................250
**Xaləddin Məmmədov**
Ağlaram.................................................................251
**Təvəkgül Cəmilli**
Varıydı...................................................................253

**Saşa Əliyev**
Hacan müəllim.........................................................254
**Müzahim Mehvalı oğlu**
Eldən gedibdi.........................................................255
Boynuburuq qalan kəndim..........................................256
**Əli Əhmədov**
Köçdü...................................................................259
**Rəna Hacan qızı**
Ata.......................................................................260
Bayatılar...............................................................262
**Uğurlu sabaha doğru**.............................................264



**ELDAR İSMAYIL**
**(Eldar Ələsgər oğlu İsmayılov)**

# HACANSIZ DÜNYA
(Azərbaycan dilində)

Nəşriyyatın direktoru: *Adil Abdullayev*
Redaktor: *Arif Məmmədli*
Buraxılışa məsul: *Şirazi Məhərrəmov*
Kompüterdə yığdı: *Vəfa Kəlbiqızı.*
Kompüter dizaynı: *Mətanət Babayeva*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
"Gənclik" nəşriyyatı

*Kitab "Gənclik" nəşriyyatında hazır diopozitivlərdən istifadə olunmaqla təbaşirli kağızda ofset üsulu ilə çap edilmişdir.*

Yığılmağa verilmiş 15.12.2007.
Çapa imzalanmış 10.02.2008
Həcmi 17 ç.v. Kağız formatı 60x84 1/16
Tirajı 300 ədəd. Sifariş: № 3
Tel: (050) 689 09 99 mob.
(012) 439-37-85 iş.